RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 20 (10040) 3 fevral 2026-cı il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Gənclər siyasəti dövlətimizin sosialyönümlü siyasətinin prioritet istiqamətlərindən biridir

### 2 Fevral - Gənclər Günü münasibətilə Azərbaycan gənclərinə

Əziz gənclər!

Sizi 2 Fevral - Azərbaycan Gəncləri Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə möhkəm can-sağlığı, yüksək əhvali-ruhiyyə və gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 30 il əvvəl gənclərimizin geniş və açıq müzakirə tribunasına çevrilmiş ilk Ümumrespublika Gənclər Forumunun keçirildiyi günün ölkəmizdə Gənclər Günü kimi qeyd olunması ənənəsi və bu cür forumların müntəzəm təşkili sübut edir ki, gənclər siyasəti dövlətimizin sosialyönümlü siyasətinin prioritet istiqamətlərindən biridir. Ötən onilliklər ərzində icra olunan dövlət proqramları nəticəsində gənclərin fərdi inkişafı və ictimai-siyasi fəallığının artması üçün əlverişli zəmin yaranmış və dövlət quruculuğunda onların rolu daha da güclənmişdir.

Sevindirici haldır ki, bu gün Azərbaycanda milli-mənəvi dəyərlərimizə dərindən bağlı olmaqla yanaşı, həm də müasir dünyanın inkişaf tendensiyası ilə ayaqlaşa bilən intellektual gənc nəsil formalaşmışdır. Sizlər bu gün iqtisadiyyatdan elm və mədəniyyətə qədər bütün sahələrdə dövlətimizin qüdrətini artıran bir qüvvəsiniz. Vətəndaş cəmiyyətinin möhkəmləndirilməsi, zəngin mədəni irsimizin qorunması və beynəlxalq aləmdə tanıdılması yolunda atdığınız hər addım xalqımızın ümumbəşəri ideallara sadiqliyinin ifadəsidir.

Dövlətimizin yaratdığı hərtərəfli şəraitin və aşıladığı vətənpərvərlik ruhunun nəticəsidir ki, Azərbaycan gəncliyi üçün böyük imtahan olan 44 günlük Vətən müharibəsində gənclərimiz misilsiz rəşadət göstərdilər. 30 illik işğala son qoyaraq xalqımızın Qələbə əzmini bütün dünyaya nümayiş etdirən qəhrəmanlarımızın əksəriyyətini məhz gənclər təşkil etmişdir. Bu Zəfər salnaməsi Azərbaycan gəncinin Vətənə sonsuz sevgisinin və sarsılmaz iradəsinin əbədi rəmzidir.

Əminəm ki, müasir tariximizin yeni intibah dövründə də Azərbaycan gəncliyi öz innovativ potensialı və yaradıcı enerjisi ilə dövlətimizin gələcək inkişafına layiqli töhfələr verəcəkdir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 fevral 2026-cı il*



## Azərbaycan-BƏƏ ikitərəfli əlaqələri strateji tərəfdaşlığa əsaslanır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 2-də Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfərə gedib.

Prezident İlham Əliyevi Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan qarşılayıb.

Həmin gün hər iki ölkə rəhbərinin görüşü olub. Söhbət zamanı Azərbaycan-BƏƏ ikitərəfli əlaqələrinin strateji tərəfdaşlığa əsaslandığı vurğulanaraq, ölkələrimiz arasında əməkdaşlığın bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi, enerji, həmçinin bərpaolunan enerji, mədəni, humanitar və digər istiqamətlərdə inkişafından məmnunluq ifadə olunub, münasibətlərimizin genişlənməsində hər iki prezidentin Azərbaycana və BƏƏ-yə qarşılıqlı səfərlərinin, görüşlərinin önəmi qeyd edilib.

2

## Azərbaycan Prezidenti Gənclər Günü ilə bağlı paylaşım edib




## Birinci vitse-prezident Mehriban Əliyeva Gənclər Günü ilə bağlı paylaşım edib






## İlham Əliyev Məsud Pezeşkiana zəng edib

Yanvarın 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkiana zəng edib.

Söhbət zamanı Azərbaycan ilə İran arasında münasibətlərin dostluq, qardaşlıq və mehriban qonşuluq prinsiplərinə əsaslandığı və xalqlarımız arasında tarixi, etnik və dini bağların olduğu bir daha qeyd edilib.

Telefon danışığı əsnasında İran Prezidentinin Azərbaycana səfərləri, dövlət başçılarının görüşləri və apardıqları səmərəli danışıqlar məmnunluqla xatırlanıb, bunların ikitərəfli əlaqələrimizin inkişafına mühüm töhfə verdiyi qeyd olunub. Araz çayı üzərində Ağbənd və Kəlalə məntəqələrini birləşdirən avtomobil körpüsünün tikintisi üzrə işlərin qrafikə uyğun aparıldığı vurğulanıb.

Dövlətimizin başçısı bölgədə yaranmış vəziyyətin narahatlıq doğurduğunu ifadə edərək, Azərbaycanın gərginliyin aradan qaldırılmasına töhfə verməyə hazır olduğunu bildirib və ölkəmizin bu kimi məsələlərin danışıqlar və qarşılıqlı anlaşma yolu ilə həllinin tərəfdarı olduğunu vurğulayıb.

Prezident Məsud Pezeşkian öz tərəfindən Prezident İlham Əliyevə təşəkkürünü bildirib.

Telefon söhbəti zamanı ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin müxtəlif aspektləri və gələcək birgə addımlar barəsində fikir mübadiləsi aparılıb, təmasların davam etdirilməsi barədə razılıq əldə olunub.

***Prezidentin Mətbuat Xidməti***

## Azərbaycan regionda sülhün və sabitliyin tərəfdarıdır

### Prezident İlham Əliyevin buna yönələn siyasəti ölkəmizi dünya arenasında önə çıxarır



Bu gün dünya geosiyasi qarşıdurmalarla dərindən silkələnir. Regional və qlobal miqyasda artan silahlı münaqişələr, qanlı müharibələr, siyasi böhranlar və təhlükəsizlik riskləri beynəlxalq münasibətlər sistemini demək olar ki, iflic vəziyyətinə salıb. Dünyanın bir çox bölgəsi "qaynar qazan"ı xatırladır. Bu mürəkkəb və təhlükəli proseslərin fonunda isə Azərbaycan sabitlik, inkişaf və sülh məkanı kimi ön plana çıxır. Hətta Azərbaycanın bilavasitə sərhədində, bir addımlığında yerləşən ölkələrin müharibə və xaos içərisində olduğunu nəzərə alsaq, respublikamızda hökm sürən sabitliyin və təhlükəsizliyin real dəyəri daha aydın görünür. Azərbaycan artıq təkcə öz vətəndaşları üçün deyil, region üçün də təhlükəsizlik adasına çevrilib ki, bu da məqsədyönlü və uzaqgörən dövlət siyasətinin məntiqi nəticəsidir.

5

## Azərbaycan hərbi əməkdaşlıq coğrafiyasını genişləndirir

Azərbaycan Ordusunun bir qrup hərbi qulluqçusu Birləşmiş Ərəb Əmirliklərində keçirilən "Sülh Qalxanı - 2026" adlı birgə əməliyyat-taktiki təlimində iştirak edir. Müdafiə Nazirliyinin məlumatına görə, təlimin əsas məqsədi iştirakçı ölkələrin antiterror əməliyyatları üzrə bacarıqlarını təkmilləşdirmək, davamlı sülhə töhfə vermək və təcrübə mübadiləsi aparmaqdır. "Sülh Qalxanı - 2026" təlimi Azərbaycan Ordusunun hərbi diplomatiyasında yeni və strateji bir mərhələni təmsil edir. Builki təlimlər, sadəcə, manevrlərdən ibarət deyil, daha çox çoxölçülü hibrid təhdidlərə qarşı hazırlığı da özündə ehtiva edir. Təlimlərdə Azərbaycan kontingenti yalnız iştirakçı kimi deyil, həm də taktiki qərarların verilməsində aktiv rol oynayan aparıcı element kimi çıxış edir.

2



## Sumqayıt: inkişafın və uğurların ünvanı



Sumqayıtın əldə etdiyi nailiyyətlərin, o cümlədən sənaye şöhrətini bərpa etməsinin, möhtəşəm abadlıq və quruculuq məkanına çevrilməsinin təməlində Prezident İlham Əliyevin xüsusi diqqəti və qayğısı, xalqımızın Ulu Öndəri Heydər Əliyevin şəhərlə bağlı qarşıya qoyduğu vəzifələrin layiqincə davam etdirilməsi dayanır. Cənab İlham Əliyevin Sumqayıtın inkişafı ilə bağlı məsələləri xüsusi diqqət mərkəzində saxlamasını ötən 22 ildə şəhərə 35 dəfə səfər etməsi də təsdiqləyir. Bu səfərlərin hər biri ali qayğının təsəssümü olmaqla şəhərin tarixində əlamətdar hadisəyə çevrilib və Sumqayıtın inkişafına töhfə verib. Vaxtilə xalqımızın Ulu Öndəri Heydər Əliyev Sumqayıtı intibah yoluna çıxarmış, şəhərimizi dünyaya tanıtmışdı. Bu gün isə möhtərəm Prezident İlham Əliyevin diqqəti və qayğısı ilə Sumqayıtın yeni tarixi yazılır.

7

◆ **Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri**

# Azərbaycan-BƏƏ ikitərəfli əlaqələri strateji tərəfdaşlığa əsaslanır

## Əbu-Dabinin Zayed Beynəlxalq Aeroportunda qarşılanma





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 2-də Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfərə gedib.**

AZƏRTAC xəbər verir ki, Əbu-Dabinin Zayed Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan qarşıladı.

## Azərbaycan Prezidenti İlham Əliyevin Əbu-Dabidə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti ilə görüşü olub





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 2-də Əbu-Dabidə Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanla görüşü olub.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Azərbaycan-BƏƏ ikitərəfli əlaqələrinin strateji tərəfdaşlığa əsaslandığı vurğulanaraq, ölkələrimiz arasında əməkdaşlığın bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi, enerji, həmçinin bərpaolunan enerji, mədəni, humanitar və digər istiqamətlərdə inkişafından məmnunluq ifadə olundu, münasibətlərimizin genişlənməsində hər iki prezidentin Azərbaycana və BƏƏ-yə qarşılıqlı səfərlərinin, görüşlərinin önəmi qeyd edildi.



Görüşdə Əbu-Dabidə Azərbaycanın və Birləşmiş Ərəb Əmirliklərinin Silahlı Qüvvələri arasında keçirilən "Sülh Qalxanı - 2026" birgə əməliyyat-taktiki təliminin əhəmiyyətinə toxunuldu, bu təlimlərin iki ölkənin Silahlı Qüvvələri arasında operativ hərbi uyğunluğun inkişafına töhfə verəcəyinə əminlik bildirildi və bunun gələcəkdə də davam etdirilməsinin önəmi vurğulandı.

Dövlət başçıları əlaqələrimizin perspektivlərinə və gələcək təmaslara dair fikir mübadiləsi apardılar.

Sonra Azərbaycan və BƏƏ prezidentlərinin iştirakı ilə "Cənub qaz dəhlizi" QSC-də İqtisadiyyat Nazirliyinə məxsus qeyri-nəzarət payının müəyyən hissəsinin Əbu-Dabi Milli Neft Şirkətinin investisiya qolu olan XRG şirkətinə satışı ilə bağlı alqı-satqı müqaviləsinə dair sənəd imzalandı.

Qeyd edək ki, səfər çərçivəsində Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Müdafiə Nazirliyi arasında müdafiə əməkdaşlığı razılaşması barədə niyyət məktubu da imzalanıb.

Azərbaycan və BƏƏ prezidentləri bu sənədlərin ölkələrimiz arasında əlaqələrin daha da inkişafına təkan verəcəyinə əminliklərini bildirdilər.

Söhbət zamanı Bakı ilə Əbu-Dabi arasında qardaşlaşma münasibətlərinin yaradılması məsələləri də qeyd edildi.

# Azərbaycan Gənclərinin XI Forumunun açılış mərasimi keçirilib

**Fevralın 2-də Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Gənclərinin XI Forumunun açılış mərasimi keçirilib. Tədbirdən öncə gənclər Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət ediblər.**






AZƏRTAC xəbər verir ki, əvvəlcə gənclər və idman naziri Fərid Qayıbov Prezident İlham Əliyevin Azərbaycan Gəncləri Günü münasibətilə gənclərə ünvanladığı müraciəti səsləndirib.

Tədbir çərçivəsində ölkəmizdə həyata keçirilən gənclər siyasətinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Daha sonra tədbirdə dövlətimizin başçısının yanvarın 30-da imzaladığı "2026-cı il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında" sərəncamla Prezident mükafatlarına layiq görülmüş gənclərə mükafatlar təqdim olunub. Mükafatları Prezident Administrasiyası Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev, əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev, gənclər və idman naziri Fərid Qayıbov, elm və təhsil nazirinin müavini Firudin Qurbanov, mədəniyyət nazirinin müavini Murad Hüseynov təqdim ediblər.

Azərbaycan Gənclərinin XI Forumunda əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev qeyd edib ki, ötən il dövlət məşğulluq xidməti orqanları tərəfindən 125 minə yaxın gənclə iş aparılaraq, onların aktiv məşğulluq tədbirlərinə cəlb olunması təmin edilib. Onlardan 72,6 min gəncin işə düzəlməsi təmin olunub. Həmçinin gənclərin əmək bazarına inteqrasiyasında ən önəmli amillərdən biri də peşə hazırlığıdır. Nazirlik tərəfindən həyata keçirilən peşə hazırlığı gənclərin əmək fəaliyyətinə hazırlıq səviyyəsinin yüksəldilməsinə, innovativ düşüncə tərzinin və praktiki vərdişlərin inkişafına, habelə iqtisadiyyatın müxtəlif sahələri üzrə ixtisaslı kadr potensialının formalaşdırılmasına mühüm töhfə verir.

Nazir vurğulayıb ki, bu istiqamətdə 2025-ci il ərzində Dövlət Məşğulluq Agentliyi tərəfindən təşkil edilən peşə hazırlığı kurslarına 9,5 min gənc cəlb olunub. Eyni zamanda işsiz və işaxtaran şəxslərin əmək bazarının cari vəziyyəti, əmək bazarında tələbin yüksək olduğu peşə və ixtisaslar, peşə hazırlığına cəlbolunma imkanları barədə məlumatlandırılması məqsədilə nazirlik tərəfindən peşəyönümlü məsləhət xidmətləri göstərilir.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov gənclər siyasətinin əsasının birbaşa Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğuna diqqət çəkib: "Ümummilli Liderin gənclərə göstərdiyi diqqət və qayğı nəticəsində gənclər siyasəti üzrə möhkəm hüquqi baza formalaşdırılıb, bu sahədə mühüm fərman və sərəncamlar qəbul olunub. Həmin sənədlər gənclərin inkişafına güclü stimul verib və onların cəmiyyətin fəal üzvlərinə çevrilməsində mühüm rol oynayıb. Qeyd etmək lazımdır ki, bu siyasətin təməli qoyularkən ölkəmiz üçün olduqca çətin bir dövr idi. Buna baxmayaraq, gənclərə olan inam və etimad daim qorunub. Bu gün gənclərimizə baxarkən böyük qürur hissi keçirirəm. Sizin malik olduğunuz imkanlar məhz həmin dövrdə yaradılan möhkəm əsasların nəticəsidir",- deyə nazir müavini vurğulayıb.

Firudin Qurbanov əlavə edib ki, hazırda bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Dövlətimizin başçısının həyata keçirdiyi məqsədyönlü siyasət gənclər üçün aydın "yol xəritəsi"nə çevrilib. Məhz bu uğurlu siyasətin nəticəsində ölkəmizin ərazi bütövlüyü bərpa olunub. Bu tarixi prosesdə gənclərimizin göstərdiyi şücaət hər zaman xüsusi vurğulanır və onlara böyük dəyər verilir.

Mədəniyyət nazirinin müavini Murad Hüseynov isə qeyd edib ki, gənclərin dünyagörüşünün formalaşmasında mədəniyyət aparıcı rol oynayır və bu amil gənclər siyasətinin mahiyyətinə də öz təsirini göstərir.

"Yeni dövrün reallıqları, ölkəmizin ərazi bütövlüyünün və dövlət suverenliyinin tam bərpa olunması yeni bir tarixi mərhələnin başlanğıcını qoyub. Bu mərhələ Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu azərbaycançılıq məfkurəsinə söykənən yeni milli ideologiyanın - qalib Azərbaycan ideologiyasının və müasir mədəniyyət siyasətinin daha da dərinləşməsini zəruri edib. Şanlı Zəfərimizlə formalaşan yeni ictimai reallıqlar, mədəniyyət sahəsində uzunmüddətli, inklüziv və gələcəyə yönəlmiş strategiyanın hazırlanmasını obyektiv zərurətə çevirib. Məhz bu məqsədlə Prezident İlham Əliyevin 2026-cı il 14 yanvar tarixli sərəncamı ilə "Azərbaycan Mədəniyyəti - 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası təsdiq olunub. Konsepsiya Azərbaycanın milli kimliyinə əsaslanan, eyni zamanda qlobal çağırışlara açıq olan müasir mədəniyyət modelini hədəfləyir. Burada əsas məqsəd mədəniyyəti yalnız qorunan bir dəyər deyil, inkişaf edən, cəmiyyətin bütün sahələrinə təsir göstərən canlı bir sistem kimi formalaşdırmaqdır",- deyə nazir müavini diqqətə çatdırıb.

Forum sessiya müzakirələrlə davam edib, qeyd olunub ki, fevralın 3-də Xankəndi Konqres Mərkəzində "Şəhərsalma və Memarlıq İli" sessiyası və "Gənclərin potensialı - milli inkişaf naminə" mövzusunda vörkşop olacaq.

Xatırladaq ki, I Azərbaycan Gəncləri Forumu Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və iştirakı ilə 1996-cı il fevralın 2-də keçirilib. Bununla da Azərbaycan Gəncləri forumlarının keçirilməsi ənənəsi formalaşıb.

# Azərbaycan hərbi əməkdaşlıq coğrafiyasını genişləndirir

*Əvvəli 1-ci səh.*

Təlimlərlə yanaşı, hər iki ölkənin müdafiə nazirlikləri arasında Birgə Hərbi Əməkdaşlıq Komitəsi yaradılıb. Komitənin ilk iclası 2026-cı ilin yanvarın 30-da Əbu-Dabidə keçirilib. İclasda hər iki ölkənin müdafiə qurumları arasında hərbi əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib. Eləcə də qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

Xatırladaq ki, bu, Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında ilk hərbi təlim deyil. 2025-ci ilin 21-30 oktyabr tarixlərində ölkəmizdə Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələri (XTQ) və Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Prezident Qvardiyasının Xüsusi Əməliyyat Komandanlığı bölmələrinin iştirakı ilə "Sarsılmaz Tərəfdaşlıq-2025" birgə xüsusi təyinatlı qüvvələrin təlimi keçirilib. Zirehli texnika, ordu aviasiyası və pilotsuz uçuş aparatlarının cəlb edildiyi birgə XTQ təlimində bölmələr döyüş taktikaları üzrə atəş, desantlaşma, snayper fəaliyyəti, düşmən obyektlərinin sıradan çıxarılması, eləcə də yaşayış məntəqəsinin düşməndən təmizlənməsi mövzuları üzrə təlim-döyüş tapşırıqlarını yerinə yetiriblər.

Birgə təlimlərin silsilə xarakter alması Azərbaycan və BƏƏ arasında strateji tərəfdaşlığın hərbi müstəviyə keçdiyini göstərir. Azərbaycan 44 günlük müharibədə qazandığı müasir döyüş təcrübəsini, xüsusilə PUA və xüsusi təyinatlıların tətbiqini BƏƏ ilə bölüşür. Qarşı tərəf isə ən son hərbi texnologiyalar və beynəlxalq təhlükəsizlik standartları sahəsində öz təcrübəsini təqdim edir.

Azərbaycan Ordusu artıq yalnız Türkiyə, digər türk respublikaları, yaxud yaxın region ölkələri ilə deyil, Körfəz regionunun aparıcı hərbi gücləri ilə də dərin inteqrasiyaya girir. Yəni Azərbaycanın xarici siyasətində hərbi əməkdaşlıq coğrafiyası yalnız türk dövlətləri ilə məhdudlaşmır. Birləşmiş Ərəb Əmirlikləri, Qətər və Səudiyyə Ərəbistanı kimi ərəb ölkələri ilə də sülh və təhlükəsizlik naminə hərbi əməkdaşlıq gücləndirilir. Qətər Azərbaycanın hərbi sahədə ən yaxın tərəfdaşlarından biridir. 2025-ci ilin sentyabr ayında Bakıda keçirilən "Sonsuz qardaşlıq - IV" çoxmillətli birgə xüsusi təyinatlı qüvvələrin təlimində Qazaxıstan, Özbəkistan, Pakistan və Türkiyə xüsusi təyinatlıları ilə bərabər, Qətər hərbçiləri də iştirak ediblər. Təlimdə xüsusi təyinatlı bölmələr döyüş taktikaları üzrə atəş, paraşüt, snayper, eləcə də yaşayış məntəqəsinin düşməndən təmizlənməsi mövzuları üzrə təlim-döyüş tapşırıqlarını yerinə yetiriblər. Səudiyyə Ərəbistanı ilə əlaqələr daha çox kəşfiyyat, hərbi təhsil və minalardan təmizləmə sahələrini əhatə edir.

Birgə təlimlərdə məqsəd regional təhlükəsizliyin gücləndirilməsi və müxtəlif ölkələrin xüsusi təyinatlıları arasında operativ koordinasiyanın təmin edilməsidir.

Azərbaycan bu təlimlər vasitəsilə regionda və islam dünyasında sülhün qorunması, terrorizmə qarşı mübarizə və hərbi təcrübə mübadiləsi sahəsində multivektorlu siyasət yürütdüyünü nümayiş etdirir. Bu əməkdaşlıqlar həm də Azərbaycanın müdafiə sənayesi məhsullarının ərəb ölkələri bazarına çıxarılması və yeni texnologiyaların mənimsənilməsi baxımından da əhəmiyyətlidir.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 27 avqust tarixli 118 nömrəli Qərarı ilə təsdiq edilmiş “Müəssisə və təşkilatların, habelə sahibkarlıqla məşğul olan fiziki şəxslərin iş xüsusiyyətlərinə uyğun olaraq ciddi hesabat blanklarının tərtibi və tətbiq Qaydaları”nda və 2012-ci il 15 fevral tarixli 37 nömrəli Qərarı ilə təsdiq edilmiş “Fövqəladə vəziyyət şəraitində rabitədən istifadə üçün xüsusi Qaydalar”da dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 28** **Bakı şəhəri, 29 yanvar 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin yaradılması və bununla əlaqədar bəzi məsələlərin həll edilməsi haqqında" 2024-cü il 7 noyabr tarixli 226 nömrəli Fərmanının 6.3-cü bəndinin və "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxsin Nizamnaməsinin təsdiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" 2025-ci il 15 yanvar tarixli 286 nömrəli Fərmanının 4-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 27 avqust tarixli 118 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 662 (Cild I); 2025, № 2, maddə 196, № 10, maddə 993) ilə təsdiq edilmiş "Müəssisə və təşkilatların, habelə sahibkarlıqla məşğul olan fiziki şəxslərin iş xüsusiyyətlərinə uyğun olaraq ciddi hesabat blanklarının tərtibi və tətbiq Qaydaları"nın 1.2-ci, 1.5-ci və 1.6-cı bəndləri aşağıdakı redaksiyada verilsin:

"1.2. Ciddi hesabat blankları (Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən yaradılan Hökumət Ödəniş Portalının, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyindəki İnnovasiyalar Mərkəzinin "ASAN ödəniş" informasiya sisteminin ödəniş barədə və "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxsin strukturuna daxil olan "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Müxtəlif Yığımlar üzrə Mərkəzləşdirilmiş İnformasiya Sisteminin, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Sərnişin Daşımaları üzrə Avtomatlaşdırılmış İdarəetmə Sisteminin, "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən tətbiq edilən "Poçt-maliyyə xidmətləri" Avtomatlaşdırılmış Korporativ İnformasiya Sisteminin çıxarışları istisna olmaqla) ciddi hesabat blanklarının hazırlanması fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslər tərəfindən sifarişçilərin vəsaiti hesabına çap edilir.";

"1.5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla, Hökumət Ödəniş Portalının çıxarışlarının uçotu qaydaları Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən, "ASAN ödəniş" informasiya sisteminin ödəniş barədə çıxarışlarının uçotu qaydaları Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən, "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Müxtəlif Yığımlar üzrə Mərkəzləşdirilmiş İnformasiya Sisteminin, "Poçt-maliyyə xidmətləri" Avtomatlaşdırılmış Korporativ İnformasiya Sisteminin və "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Sərnişin Daşımaları üzrə Avtomatlaşdırılmış İdarəetmə Sisteminin çıxarışlarının uçotu qaydaları Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən müəyyən edilir.

1.6. Bu Qaydaların 2.1.1-ci, 2.1.2-ci, 2.1.3-cü yarımbəndlərinin, 2.3-cü və 3.5-3.10-cu bəndlərinin müddəaları Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən yaradılan Hökumət Ödəniş Portalının, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyindəki İnnovasiyalar Mərkəzinin "ASAN ödəniş" informasiya sisteminin ödəniş barədə və "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxsin strukturuna daxil olan "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Müxtəlif Yığımlar üzrə Mərkəzləşdirilmiş İnformasiya Sisteminin, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Sərnişin Daşımaları üzrə Avtomatlaşdırılmış İdarəetmə Sisteminin, "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən tətbiq edilən "Poçt-maliyyə xidmətləri" Avtomatlaşdırılmış Korporativ İnformasiya Sisteminin çıxarışlarına şamil edilmir.".

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 15 fevral tarixli 37 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 181 (Cild I) ilə təsdiq edilmiş "Fövqəladə vəziyyət şəraitində rabitədən istifadə üçün xüsusi Qaydalar"da aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.3-cü bənddə "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "Radio-Televiziya yayımı və Peyk rabitəsi" sözləri "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxsin strukturuna daxil olan "Radio-Televiziya Yayımı və Peyk Kommunikasiyası" sözləri ilə əvəz edilsin;

2.2. 2.9-cu bənddə "qurumlar" sözü "İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 14 oktyabr tarixli 305 nömrəli Qərarı ilə təsdiq edilmiş “Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları”nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 29** **Bakı şəhəri, 30 yanvar 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 19-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 14 oktyabr tarixli 305 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 10, maddə 1223 (Cild I); 2024, № 2, maddə 217, № 3, maddə 314, № 4, maddə 468, № 9, maddə 1106; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 10 dekabr tarixli 385 nömrəli və 25 dekabr tarixli 412 nömrəli qərarları) ilə təsdiq edilmiş "Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1.10-cu yarımbəndə "nəzərə alınmaqla," sözlərindən sonra "hər təqvim ili ərzində bir dəfə 1 ədəd mobil cihaz," sözləri əlavə edilsin.

1. Aşağıdakı məzmunda 2.2-1-ci bənd əlavə edilsin:

"2.2-1. Fiziki şəxslər tərəfindən gömrük ərazisinə gətirilən mobil cihazların gömrük dəyəri bu Qaydaların 2.1.2-ci və 2.1.4-cü yarımbəndləri ilə müəyyən edilmiş bir aylıq həddən artıq olduğu halda ümumi gömrük dəyərindən müvafiq yarımbəndlərdə göstərilən məbləğlər çıxılmaqla, bu malların gömrük rəsmiləşdirilməsi xarici-iqtisadi fəaliyyətin tarif və qeyri-tarif tənzimlənməsinə uyğun gömrük ödənişləri alınmaqla sadələşdirilmiş qaydada həyata keçirilir.".

3. Qaydalara 1 nömrəli əlavə - "Fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilərkən yazılı formada bəyan edilməli olan malların Siyahısı"nın 9-cu hissəsində "telefon" sözü "cihaz" sözü ilə əvəz edilsin və "və digər simsiz rabitə avadanlıqları" sözləri çıxarılsın.

4. Bu Qərar 2026-cı il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## “Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 31** **Bakı şəhəri, 30 yanvar 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 596 (Cild I); 2024, № 3, maddə 335, № 9, maddə 1067; 2025, № 5, maddə 507, № 9, maddə 870) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında və 1-ci hissədə "hesablanması və ödənilməsi haqqında Əsasnamə" sözləri "təyin edilməsi, hesablanması və ödənilməsi Qaydası" sözləri ilə əvəz edilsin;

1.2. 2-ci hissədə "Əsasnamənin" sözü "Qaydanın" sözü ilə əvəz edilsin;

1.3. həmin Qərarla təsdiq edilmiş "Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə" yeni redaksiyada verilsin *(əlavə olunur)*.

2. Bu Qərar qüvvəyə mindiyi tarixədək baş vermiş və (və ya) bu tarixdən sonra davam edən sosial sığorta hadisəsinə görə məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin təyin edilməsi, hesablanması və ödənilməsi həmin tarixə qüvvədə olan normalara uyğun həyata keçirilir.

3. Bu Qərar qüvvəyə mindiyi tarixədək təyin edilmiş və ödənişi davam edən məcburi dövlət sosial sığortası üzrə ödəmələrin (3 yaşınadək uşağa qulluğa görə müavinət istisna olmaqla) ödənişinin bu Qərarın qüvvəyə minməsi ilə əlaqədar dayandırılmasına və yenidən hesablanmasına yol verilmir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 8 yanvar tarixli 9 nömrəli Qərarı ilə təsdiq edilmiş “Sığortaolunanlar üçün xəstəlik vərəqələrinin elektron sənəd formasında tərtib edilməsi qaydası haqqında təlimat”da dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 32** **Bakı şəhəri, 30 yanvar 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 8 yanvar tarixli 9 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 4, maddə 452) ilə təsdiq edilmiş "Sığortaolunanlar üçün xəstəlik vərəqələrinin elektron sənəd formasında tərtib edilməsi qaydası haqqında təlimat"a aşağıdakı məzmunda 17-1-ci hissə əlavə edilsin:

"17-1. Sığortaolunanın xəsarət nəticəsində əmək qabiliyyətini müvəqqəti itirməsi ilə bağlı tibb müəssisəsi tərəfindən hüquq mühafizə orqanına məlumat verildiyi hallarda bu barədə xəstəlik vərəqəsində müvafiq qeyd aparılır.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Vergi və gömrük sahəsində verilmiş güzəşt və azadolmaların dövlət büdcəsinin gəlirlərinə təsirinin qiymətləndirilməsi metodologiyası və həmin güzəşt və azadolmaların reyestrinin aparılması Qaydası”nın təsdiq edilməsi haqqında” 2020-ci il 8 fevral tarixli 38 nömrəli Qərarında və 2020-ci il 3 noyabr tarixli 436 nömrəli Qərarı ilə təsdiq edilmiş “Vergi və gömrük güzəştlərinin səmərəliliyinin qiymətləndirilməsi Qaydaları”nda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 30** **Bakı şəhəri, 30 yanvar 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 102-VIIQD nömrəli Qanununun tətbiqi və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 4 iyul tarixli 936 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 dekabr tarixli 265 nömrəli Fərmanının 2.1-ci bəndinin və "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 98-VIIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 dekabr tarixli 269 nömrəli Fərmanının 2.2.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Vergi və gömrük sahəsində verilmiş güzəşt və azadolmaların dövlət büdcəsinin gəlirlərinə təsirinin qiymətləndirilməsi metodologiyası və həmin güzəşt və azadolmaların reyestrinin aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 8 fevral tarixli 38 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 2, maddə 189 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.".

1.2. həmin Qərarla təsdiq edilmiş "Vergi və gömrük sahəsində verilmiş güzəşt və azadolmaların dövlət büdcəsinin gəlirlərinə təsirinin qiymətləndirilməsi metodologiyası və həmin güzəşt və azadolmaların reyestrinin aparılması Qaydası" üzrə:

1.2.1. 1-ci hissə üzrə:

1.2.2. 1.1-ci bənddən "(bundan sonra - güzəşt)" sözləri çıxarılsın;

1.2.3. 1.2-ci bənddə "güzəştlərin" sözü "güzəşt və azadolmaların" sözləri ilə əvəz edilsin;

1.2.4. 1.4-cü bənd üzrə:

1.2.4.1. 1.4.1-ci yarımbənddə "güzəştlərin" sözü "güzəşt və azadolmaların" sözləri ilə əvəz edilsin;

1.2.4.2. 1.4.2-ci və 1.4.3-cü yarımbəndlərdə "güzəştlər" sözü "güzəşt və azadolmalar" sözləri ilə əvəz edilsin;

1.2.5. 1.4.4-cü yarımbənddə "güzəştlərlə" sözü "güzəşt və azadolmalarla" sözləri ilə əvəz edilsin;

1.2.6. aşağıdakı məzmunda 1.5-ci bənd əlavə edilsin:

"1.5.Vergi və gömrük sahəsində güzəşt və azadolmalar bu Qaydanın məqsədləri üçün aşağıdakı meyarlar üzrə təsnifləşdirilir:

1.5.1. güzəşt meyarı - azadolma meyarı ilə əhatə olunmayan və sahibkarlıq və qeyri-sahibkarlıq fəaliyyətində tətbiq olunan digər imtiyazlar;

1.5.2. azadolma meyarı:

1.5.2.1. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulan imtiyazlar;

1.5.2.2. "Xüsusi iqtisadi zonalar haqqında" və "Ələt Azad İqtisadi Zonası haqqında" Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulan imtiyazlar;

1.5.2.3. vergi borclarının silinməsi və gömrük borclarının ləğv edilməsi ilə əlaqədar gəlirlər üzrə imtiyazlar;

1.5.2.4. qrant, humanitar və texniki yardım üzrə imtiyazlar;

1.5.2.5. maliyyə xidmətləri və dövlət tərəfindən yaradılan maliyyə institutlarının və təsisatlarının fəaliyyəti üzrə imtiyazlar;

1.5.2.6. qeyri-kommersiya fəaliyyəti üzrə imtiyazlar;

1.5.2.7. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 102-ci maddəsi ilə sosial baxımdan həssas əhali qrupu üzrə müəyyən edilən imtiyazlar.";

1.3. 2-ci hissə üzrə:

1.3.1. adında "Güzəştlərin" sözü "Güzəşt və azadolmaların" sözləri ilə əvəz edilsin;

1.3.2. 2.1-ci və 2.2-ci bəndlərdə "Güzəştlər" sözü "Güzəşt və azadolmalar" sözləri ilə əvəz edilsin;

1.3.3. 2.3-cü bənddə "güzəştlər" sözü "güzəşt və azadolmalar" sözləri ilə, "güzəştlərin" sözü "güzəşt və azadolmaların" sözləri ilə və "kateqoriyalar" sözü "meyarlar" sözü ilə əvəz edilsin;

1.3.4. 2.4-cü bənd üzrə:

1.3.4.1. birinci abzasda "güzəştlər" sözü "güzəşt və azadolmalar" sözləri ilə, "güzəştlərin" sözü "güzəşt və azadolmaların" sözləri ilə əvəz edilsin;

1.3.4.2. 2.4.2-ci (hər iki halda) və 2.4.4-cü (hər iki halda) yarımbəndlərdə "güzəşt" sözü "güzəşt və azadolma" sözləri ilə əvəz edilsin;

1.3.5. 2.5-ci bənddə "güzəştləri" sözü "güzəşt və azadolmaları" sözləri ilə, "güzəştlər" sözü "güzəşt və azadolmalar" sözləri ilə əvəz edilsin;

1.3.6. 2.6-cı bənd üzrə:

1.3.6.1. birinci abzasda "Güzəştlər" sözü "Güzəşt və azadolmalar" sözləri ilə əvəz edilsin;

1.3.6.2. 2.6.1-ci yarımbənddə "güzəştlər" sözü "güzəşt və azadolmalar" sözləri ilə əvəz edilsin;

1.3.6.3. 2.6.2-ci yarımbənddə "güzəştlər" sözü "güzəşt və azadolmalar" sözləri ilə, "güzəştlərə" sözü "güzəşt və azadolmalara" sözləri ilə və "güzəştlərinə" sözü "güzəşt və azadolmalarına" sözləri ilə əvəz edilsin;

1.4. 3-cü hissə üzrə:

1.4.1. 3.1-ci bənddə "və güzəştdən" sözü ", güzəşt və azadolmadan" sözləri ilə əvəz edilsin;

1.4.2. 3.1.1-ci yarımbənd üzrə:

1.4.2.1. səkkizinci abzasda "2500 manatadək" sözləri "gəlir 2500 manatadək olduqda, güzəşt tətbiq edilən və" sözləri ilə əvəz edilsin;

1.4.2.2. doqquzuncu abzasda "2500 manatdan yuxarı" sözləri "gəlir 2500 manatdan yuxarı olduqda, güzəşt tətbiq edilən və" sözləri ilə əvəz edilsin;

1.4.2.3. on üçüncü və iyirmi yeddinci abzaslarda "güzəştlərlə" sözü "güzəşt və azadolmalarla" sözləri ilə əvəz edilsin;

1.4.3. 3.1.2-ci yarımbənd üzrə:

1.4.3.1. yeddinci abzasda "güzəştin" sözü "güzəşt və azadolmanın" sözləri ilə əvəz edilsin;

1.4.3.2. səkkizinci abzasa "güzəşt" sözündən sonra birinci halda "və azadolma" sözləri, ikinci halda "və azadolma tətbiq" sözləri əlavə edilsin;

1.4.3.3. doqquzuncu və on ikinci abzaslarda "güzəştin" sözü "güzəşt və azadolmanın" sözləri ilə əvəz edilsin;

1.4.3.4. on dördüncü abzasda "güzəştlərlə" sözü "güzəşt və azadolmalarla" sözləri ilə əvəz edilsin;

1.4.4. 3.1.3-cü yarımbənd üzrə:

1.4.4.1. doqquzuncu abzasa "güzəşt" sözündən sonra "və azadolma" sözləri əlavə edilsin;

1.4.4.2. on ikinci abzasda "güzəştlərlə" sözü "güzəşt və azadolmalarla" sözləri ilə əvəz edilsin;

1.4.5. 3.1.4-cü yarımbənd üzrə:

1.4.5.1. yeddinci abzasa "güzəşt" sözündən sonra "və azadolma" sözləri əlavə edilsin;

1.4.5.2. onuncu abzasda "güzəştlərlə" sözü "güzəşt və azadolmalarla" sözləri ilə əvəz edilsin;

1.4.6. 3.1.5-ci yarımbənd üzrə:

1.4.6.1. yeddinci abzasda "azad" sözü "güzəşt və azadolma tətbiq" sözləri ilə əvəz edilsin;

1.4.6.2. on birinci abzasda "güzəştlərlə" sözü "güzəşt və azadolmalarla" sözləri ilə əvəz edilsin;

1.4.7. 3.1.6-cı yarımbənd üzrə:

1.4.7.1. yeddinci abzasda "azad" sözü "güzəşt və azadolma tətbiq" sözləri ilə əvəz edilsin;

1.4.7.2. on birinci abzasda "güzəştlərlə" sözü "güzəşt və azadolmalarla" sözləri ilə əvəz edilsin;

1.4.8. 3.1.7-ci və 3.1.8-ci yarımbəndlərin yeddinci abzaslarında "güzəşti" sözü "güzəşt və azadolmaları" sözləri ilə, onuncu abzaslarında "güzəştlərlə" sözü "güzəşt və azadolmalarla" sözləri ilə əvəz edilsin;

1.4.9. 3.1.9.1-ci abzas üzrə:

1.4.9.1. altıncı abzasda "güzəşti" sözü "güzəşt və azadolmaları" sözləri ilə əvəz edilsin;

1.4.9.2. doqquzuncu abzasda "güzəştlərlə" sözü "güzəşt və azadolmalarla" sözləri ilə əvəz edilsin;

1.4.10. 3.1.9.2-ci abzas üzrə:

1.4.10.1. altıncı abzasda "güzəşti" sözü "güzəşt və azadolmaları" sözləri ilə əvəz edilsin;

1.4.10.2. on birinci abzasda "güzəştlərlə" sözü "güzəşt və azadolmalarla" sözləri ilə əvəz edilsin;

1.4.11. 3.1.10-cu yarımbəndin onuncu abzasında "güzəştlərlə" sözü "güzəşt və azadolmalarla" sözləri ilə əvəz edilsin;

1.4.12. 3.1.11-ci yarımbənd üzrə:

1.4.12.1. yeddinci abzasda "rüsumundan azad" sözləri "rüsumu üzrə güzəşt və azadolma tətbiq" sözləri ilə əvəz edilsin;

1.4.12.2. on birinci abzasda "güzəştlərlə" sözü "güzəşt və azadolmalarla" sözləri ilə əvəz edilsin;

1.5. 4-cü hissə üzrə:

1.5.1. adında "Güzəştlərin" sözü "Güzəşt və azadolmaların" sözləri ilə əvəz edilsin;

1.5.2. 4.1-ci bənddə "güzəştdən" sözü "güzəşt və azadolmalardan" sözləri ilə əvəz edilsin;

1.5.3. 4.2-ci bənddə hər iki halda "güzəştlərin" sözü "güzəşt və azadolmaların" sözləri ilə əvəz edilsin;

1.5.4. 4.3-cü bənd üzrə:

1.5.4.1. birinci abzasda və 4.3.1-ci yarımbənddə "güzəştlər" sözü "güzəşt və azadolmalar" sözləri ilə əvəz edilsin;

1.5.4.2. 4.3.2-ci yarımbənddə "güzəştlər" sözü "güzəşt və azadolmalar" sözləri ilə, "güzəştlərə" sözü "güzəşt və azadolmalara" sözləri ilə və "güzəştlərinə" sözü "güzəşt və azadolmalarına" sözləri ilə əvəz edilsin;

1.5.5. 4.4-cü bənd üzrə:

1.5.5.1. birinci abzasda "güzəştlər" sözü "güzəşt və azadolmalar" sözləri ilə əvəz edilsin;

1.5.5.2. 4.4.1-ci yarımbənddə "güzəştlərin" sözü "güzəşt və azadolmaların" sözləri ilə əvəz edilsin;

1.5.5.3. 4.4.5-ci yarımbənddə "güzəştdən" sözü "güzəşt və azadolmalardan" sözləri ilə əvəz edilsin;

1.5.5.4. 4.4.6 - 4.4.8-ci yarımbəndlərdə "güzəştlərin" sözü "güzəşt və azadolmaların" sözləri ilə əvəz edilsin;

1.5.5.5. 4.4.9-cu yarımbənddə "güzəştlərə" sözü "güzəşt və azadolmalara" sözləri ilə əvəz edilsin;

1.5.5.6. 4.5-ci bənd üzrə:

1.5.5.6.1. birinci abzasda "güzəştlər" sözü "güzəşt və azadolmalar" sözləri ilə əvəz edilsin;

1.5.5.6.2. 4.5.1-ci və 4.5.2-ci yarımbəndlərdə "güzəştlərin" sözü "güzəşt və azadolmaların" sözləri ilə əvəz edilsin;

1.5.5.6.3. 4.6-cı və 4.7-ci bəndlərdə "güzəştlər" sözü "güzəşt və azadolmalar" sözləri ilə əvəz edilsin;

1.5.5.6.4. 4.8-ci bənddə "güzəştlərdən" sözü "güzəşt və azadolmalardan" sözləri ilə, "güzəştlərin" sözü "güzəşt və azadolmaların" sözləri ilə əvəz edilsin;

1.6. 5-ci hissə üzrə:

1.6.1. adında "Güzəştlərin" sözü "Güzəşt və azadolmaların" sözləri ilə əvəz edilsin;

1.6.2. 5.1-ci bənddə "güzəştlərə" sözü "güzəşt və azadolmalara" sözləri ilə əvəz edilsin;

1.6.3. 5.2.1-ci və 5.2.2-ci yarımbəndlərdə "güzəştlərinə" sözləri "güzəşt və azadolmalarına" sözləri ilə əvəz edilsin;

1.6.4. 5.4-cü bənd üzrə:

1.6.4.1. birinci abzasda "güzəştlər" sözü "güzəşt və azadolmalar" sözləri ilə əvəz edilsin;

1.6.4.2. 5.4.1-ci, 5.4.7-ci və 5.4.11-ci yarımbəndlərdə "güzəştin" sözü "güzəşt və azadolmaların" sözləri ilə əvəz edilsin;

1.6.4.3. 5.4.2-ci və 5.4.9-cu yarımbəndlərdə "güzəşt" sözü "güzəşt və azadolmalar" sözləri ilə əvəz edilsin;

1.6.4.4. 5.4.6-cı yarımbənddə "güzəştdən" sözü "güzəşt və azadolmalardan" sözləri ilə əvəz edilsin;

1.7. 1 və 2 nömrəli əlavələr yeni redaksiyada verilsin *(əlavə olunur)*.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 3 noyabr tarixli 436 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 11, maddə 1380 (CildI) ilə təsdiq edilmiş "Vergi və gömrük güzəştlərinin səmərəliliyinin qiymətləndirilməsi Qaydaları"nın 1.1-ci bəndində "güzəşt və azadolmaların (bundan sonra - güzəşt) " sözləri "güzəştlərin" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Milli Məclisin iclasında

# Parlamentin yaz sessiyası öz işinə başladı



Fevralın 2-də Milli Məclisin 2026-cı ilin yaz sessiyasının ilk plenar iclası keçirilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri Sahibə Qafarova yaz sessiyasını açıq elan etdikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra spiker diqqətə çatdırıb ki, Milli Məclis ötən ili uğurla başa vurub. Öz fəaliyyəti ilə parlament Azərbaycan Prezidenti İlham Əliyevin daxili və xarici siyasətini qanunvericilik səviyyəsində dəstəkləmək üçün lazımi tədbirlər görüb. Sədr ötən ilin yekunları barədə ətraflı məlumat verdiyini deputatlara xatırladaraq qeyd edib ki, Milli Məclisin beynəlxalq fəaliyyəti sessiyalar arasındakı dövrdə də davam edib. Deputatlar 2 beynəlxalq təşkilatın tədbirlərində iştirak ediblər. Parlamentin 10 üzvü tərəfindən 6 xarici ölkəyə 18 səfər həyata keçirilib. Ay ərzində 5 ölkənin və 1 beynəlxalq təşkilatın 6 nümayəndə heyəti, ümumən 44 nəfər xarici qonaq Milli Məclisdə olub.

Spiker qeyd edib ki, onun başçılığı ilə nümayəndə heyəti yanvarın 25-də və 26-da Bəhreyn Krallığında rəsmi və işgüzar səfərdə, yanvarın 27-də Birləşmiş Ərəb Əmirliklərində işgüzar, yanvarın 28-də isə Oman Sultanlığında rəsmi səfərlərdə olub.

Bəhreyn Krallığına rəsmi səfəri çərçivəsində Milli Məclisin Sədrinin Bəhreyn Kralı Həmədbin İsa Al Xəlifə, Şura Məclisinin Sədri Əli bin Saleh Al Saleh, Nümayəndələr Şurasının Sədri Əhməd bin Salman Al Musalam ilə görüşləri olub. Səfər zamanı Azərbaycan Milli Məclisi ilə Bəhreyn Nümayəndələr Şurası arasında Anlaşma Memorandumu imzalanıb. Sənədi parlament sədrləri imzalayıblar.

Bəhreyn Krallığına işgüzar səfərdə məqsəd Asiya Parlament Assambleyasının yanvarın 26-da keçirilən 16-cı plenar sessiyasında iştirak etmək idi. Sessiyada Sahibə Qafarova son 2 ilə yaxın dövr ərzində Milli Məclisin Parlament Assambleyasına sədrlik fəaliyyətinin nəticələri barədə məlumat verib.

Plenar sessiyanın yekununda Manama Bəyannaməsi qəbul edilib. Bəyannamədə Asiya Parlament Assambleyasına uğurlu sədrliyinə, təşkilatın məqsədlərinin reallaşdırılması işində liderliyinə və səylərinə görə Milli Məclisə təşəkkür ifadə edilir. Bəyannamədə həmçinin multikulturalizmin, tolerantlığın təşviq olunmasında ölkəmizin ardıcıl və prinsipial səyləri yüksək qiymətləndirilir.

Yanvarın 27-də Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfərdə isə əsas məqsədlərdən biri Aralıq Dənizi Parlament Assambleyasının Qadın Parlament Forumunun 2-ci sessiyasında iştirak etmək idi. Spiker bildirib ki, oradakı çıxışında tədbirin mövzusunun əhəmiyyəti barədə fikirlərini bölüşüb. Azərbaycanda gender bərabərliyi sahəsində mövcud olan vəziyyət və müsbət təcrübə haqqında tədbir iştirakçılarına məlumat verib.

Milli Məclisin Sədrinin Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri çərçivəsində bu ölkənin Federal Milli Şurasının Sədri Saqr Qobaş ilə görüşü olub. Görüşdə ölkələrimiz arasında münasibətlərin dinamik və hərtərəfli inkişafından məmnunluq ifadə olunub.

Spiker Azərbaycan Prezidenti İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görüldüyünü xatırladıb. O, dövlətimizin başçısının Birləşmiş Ərəb Əmirliklərinin qurucusu mərhum Şeyx Zayedin adını daşıyan belə nüfuzlu mükafata layiq görülməsinin xalqımız tərəfindən yüksək qiymətləndirildiyini bildirib.

Qeyd olunub ki, səfərdə məqsədlərdən biri də Aralıq Dənizi Parlament Assambleyasının Sədri Cülio Çentemero ilə görüşüb danışıqlar aparmaq idi. Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər nəzərdən keçirilib. Spiker xüsusən Parlament Assambleyasının Büro iclasında Milli Məclisə müşahidəçi statusunun verilməsi ilə bağlı müraciətin təsdiqindən məmnunluğunu bildirib. Yekun qərar verildikdən sonra bu statusun parlamentlərarası əlaqələrin inkişafı üçün yeni imkanlar yaradacağına inamını ifadə edib.

Yanvarın 28-də və 29-da Oman Sultanlığına rəsmi səfər çərçivəsində spiker Sahibə Qafarovanın bu ölkənin Şura Məclisinin Sədri Şeyx Xalid bin Hilal Al Mavali, Dövlət Şurasının Sədri Şeyx Əbdülməlik Al Xəlili və xarici işlər naziri Bədr Al Busaidi ilə görüşləri olub. Görüşlərdə Azərbaycanla Oman arasında siyasi və digər münasibətlərin yüksək səviyyədə olmasından, parlamentlər səviyyəsində əlaqələrin dərinləşməsindən məmnunluq ifadə edilib. Azərbaycan Milli Məclisi ilə Oman Şura Məclisi arasında Anlaşma Memorandumunun imzalanması barədə də razılıq əldə olunub. Azərbaycan Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi çərçivəsində əməkdaşlığın əhəmiyyəti vurğulanıb.

Milli Məclisin Sədri 3 ərəb ölkəsinə rəsmi və işgüzar səfərlərin uğurlu olduğunu qeyd edib və bununla əlaqədar nümayəndə heyətinin hər bir üzvünə minnətdarlığını bildirib.

Spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən xarici siyasəti, dövlətimizin beynəlxalq fəaliyyətinə strateji baxışı parlament diplomatiyasının uğurunun əsas amilidir.

Sonra Milli Məclisin Sədri bildirib ki, ölkəmizdə fevralın 2-də Gənclər Günü qeyd edilib. Ölkə Prezidentinin sərəncamı ilə bir sıra fəaliyyət sahələrində fərqlənən gənclərə Prezident mükafatının verildiyini diqqətə çatdıran spiker Sahibə Qafarova deyib ki, Azərbaycan gəncləri dövlət və cəmiyyət həyatının bütün sahələrində önəmli rol oynayır, ölkəmizin inkişafı, xalqımızın rifahı naminə bütün bilik və bacarıqlarını sərf edirlər. Gənclərimiz 44 günlük Vətən müharibəsində, antiterror əməliyyatında tarixi qələbələrimizin əldə edilməsində müstəsna rol oynayıblar. Spiker Gənclər Günü münasibəti ilə bütün Azərbaycan gənclərini ürəkdən təbrik edib, onlara möhkəm cansağlığı və uğurlar arzulayıb.

Sonra Milli Məclisin Sədri yaz sessiyasında görüləcək işlər haqqında qısa məlumat verib. Qeyd edib ki, sessiyanın qanunvericilik işləri planı hazırlanıb və iclasda müzakirə ediləcək. Bildirilib ki, bu sessiyada qanun layihələrini müzakirə və qəbul etməklə yanaşı, konstitusiyanın tələbinə uyğun olaraq, Nazirlər Kabinetinin hesabatı da dinləniləcək. Bundan əlavə, Milli Məclisin iclaslarından birində 2025-ci ilin dövlət büdcəsinin icrası haqqında məsələ müzakirəyə təqdim ediləcək. Sessiyada Hesablama Palatasının, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun, İnsan hüquqları üzrə müvəkkilin (ombudsmanın), bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən müvafiq qurumun və gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanının illik hesabat, məlumat və məruzələri də dinləniləcək.

Milli Məclisin beynəlxalq əlaqələrinin inkişafı, parlamentin səlahiyyətləri ilə bağlı olan digər məsələlər də diqqət mərkəzində saxlanılacaq.

Spiker çıxışının sonunda Milli Məclisin yaz sessiyasının yüksək səviyyədə keçəcəyinə əminliyini bildirib və sessiyada deputatlara uğurlar arzulayıb.

Sonra iclasın gündəliyi qəbul edilib və cari məsələlərin müzakirəsinə başlanılıb. Müzakirələrdə komitə sədrləri Tahir Rzayev, Zahid Oruc, Fazil Mustafa, deputatlar Razi Nurullayev, Elnarə Akimova, Rövşən Muradov, Bəhruz Məhərrəmov, Vüqar Bayramov, Asif Əsgərov və Hikmət Məmmədov gündəmdə olan məsələlərə münasibət bildiriblər. Qeyd olunub ki, dövlətimizin başçısı cənab İlham Əliyevin yürütdüyü müdrik və uzaqgörən siyasət ölkəmizin milli maraqlarını etibarlı şəkildə qorumağa, Azərbaycanın müstəqil və balanslı xarici siyasət kursunu uğurla davam etdirməsinə imkan verib. Azərbaycan Prezidenti İlham Əliyevin 56-cı Davos İqtisadi Forumunda iştirakı və burada keçirdiyi çoxsaylı mühüm görüşlər ölkəmizin qlobal iqtisadi və siyasi gündəmdə fəal aktor kimi rolunu bir daha təsdiqləyib. Diqqətə çatdırılıb ki, Azərbaycanın Sülh Şurası kimi yeni beynəlxalq təşəbbüsə təsisçi üzv qismində dəvət olunması Prezident İlham Əliyevin sülhün, dialoqun və beynəlxalq əməkdaşlığın təşviqi istiqamətində apardığı ardıcıl siyasətin növbəti mühüm nəticəsidir.

Azərbaycan Prezidenti İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi onun sülhün, dialoqun, multikultural dəyərlərin və humanist prinsiplərin təşviqi istiqamətində apardığı ardıcıl və məqsədyönlü siyasətə verilən yüksək beynəlxalq qiymətin bariz nümunəsi kimi dəyərləndirilib.

Həmçinin Zəngəzur dəhlizinin (Tramp marşrutu) işə düşməsi ilə bağlı aparılan müzakirələrə və bölgədə davamlı sülh və təhlükəsizliyin təmin edilməsinə yönələn təşəbbüslərə toxunan çıxışçılar qeyd ediblər ki, bu addımlar regional etimadı, iqtisadi əməkdaşlığı daha da gücləndirəcək.

Millət vəkilləri çıxışlarında qeyd ediblər ki, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və müvafiq sərəncamı ilə hər il fevralın 2-si ölkəmizdə Gənclər Günü kimi qeyd olunur və bu tarix gənclərə göstərilən dövlət qayğısının rəmzidir. Deputatlar Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın gənclərə göstərdiyi xüsusi diqqət və qayğıdan da bəhs ediblər. Qeyd olunub ki, ölkəmizdə gənclərin fiziki və mənəvi inkişafına, onların müasir düşüncəli, intellektual və vətənpərvər ruhda yetişməsinə daim önəm verilir, bu məqsədlə ardıcıl şəkildə dövlət proqramları və layihələr icra olunur.

Cari məsələlərin müzakirəsindən sonra spiker Sahibə Qafarova gündəliyin birinci məsələsinin "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun ikinci səsverməsi ilə bağlı olduğunu deyib. Nəzərə çatdırıb ki, konstitusiya qanunları Milli Məclisdə iki dəfə səsə qoyulur. O, bu qanun layihəsinə də 6 ay öncə birinci səsvermədə münasibət bildirildiyini, indi isə ikinci səsverməyə çıxarıldığını söyləyib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məsələ ilə bağlı məlumat verib. O, sənədin Milli Məclisdə üç oxunuşdan keçdiyini, geniş müzakirə olunduğunu, deputatlar tərəfindən dəstəkləndiyini deyib və səsə qoyulmasını xahiş edib.

Komitə sədri Siyavuş Novruzovun məsələ ilə bağlı fikirləri dinlənildikdən sonra Konstitusiya qanunu səsə qoyularaq ikinci səsvermədə qəbul edilib.

Daha sonra komitə sədri Əli Hüseynli "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya Qanunu (II səsvermə) barədə məlumat verib. Nəzərə çatdırılıb ki, dəyişikliyin edilməsində məqsəd Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına ediləcək dəyişikliklərdən sonra "Normativ-hüquqi aktlar haqqında" Konstitusiya Qanununun müvafiq maddəsində yarana biləcək uyğunsuzluğun aradan qaldırılmasıdır.

Bu Konstitusiya qanunu da səsə qoyularaq ikinci səsvermədə qəbul edilib.

Sonra iclasda Azərbaycan Respublikası Milli Məclisinin 2026-cı il yaz sessiyasının qanunvericilik işləri planı müzakirəyə təqdim olunub. Məsələnin müzakirəsində komitə sədrləri Zahid Oruc, Siyavuş Novruzov, deputatlar Azay Quliyev, Razi Nurullayev, Qüdrət Həsənquliyev, Əli Məsimli, Bəhruz Məhərrəmov, Kamal Cəfərov, Sahib Alıyev çıxış edərək, məsələ barədə öz fikir və təkliflərini səsləndiriblər. Spiker Sahibə Qafarova deputatların qarşıdakı yaz sessiyasının iş planı ilə bağlı irəli sürdükləri təkliflərin nəzərə alınaraq müvafiq qərarların qəbul ediləcəyini diqqətə çatdırıb.

Milli Məclisin 2026-cı il yaz sessiyasının qanunvericilik işləri planı haqqında qərar layihəsi qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova növbəti məsələni təqdim edərək bildirib ki, Daxili Nizamnamənin 40-cı maddəsinə uyğun olaraq, yaz sessiyasının birinci iclasında Milli Məclisin Hesablayıcı komissiyası yaradılmalıdır. O, qeyd edib ki, komissiya bir il müddətinə və 7 üzvdən ibarət tərkibdə seçilir.

Milli Məclisin Hesablayıcı komissiyasının yaradılması haqqında qərar layihəsi səsə qoyularaq qəbul olunub.

Sahibə Qafarova gündəliyin beşinci məsələsi ilə əlaqədar nəzərə çatdırıb ki, Daxili Nizamnamənin 41-ci maddəsinə əsasən, Milli Məclisin İntizam komissiyası da yaradılmalıdır. Komissiya bir il müddətinə və 11 üzvdən ibarət tərkibdə seçilir.

Milli Məclisin İntizam komissiyasının yaradılması haqqında qərar layihəsi də qəbul edilib.

Gündəliyin altıncı məsələsi olan İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvlərinin seçilməsi haqqında Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlu məlumat verib.

Komitə sədri bildirib ki, İctimai Televiziya və Radio Yayımları Şirkətinin Yayım Şurasında idman federasiyalarını, dini konfessiyaları və yaradıcılıq təşkilatlarını təmsil edən şəxslərin qanunda göstərilən səlahiyyət müddəti başa çatdığına görə, yeni namizədlərin irəli sürülməsi ilə bağlı Azərbaycan Respublikasının Audiovizual Şurası tərəfindən təşkilati tədbirlər görülüb. Komitə sədri İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasına idman federasiyaları, dini konfessiyalar və yaradıcılıq təşkilatları tərəfindən irəli sürülmüş namizədləri təqdim edib.

Məsələ ilə bağlı komitə sədri Fazil Mustafa, deputatlar Azay Quliyev və Hikmət Məmmədov çıxış edərək fikirlərini bildiriblər.

Müzakirələrin yekununda Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının tərkibinə üç təşkilatın hərəsindən 2 nəfər olmaqla 6 nəfərin namizədliyi göstərilib və biz onlardan üç nəfəri seçməliyik.

Sonra təqdim olunan namizədlərlə bağlı səsvermə keçirilib. Səsvermə nəticəsində idman federasiyalarından Azərbaycan Cüdo Federasiyasının icraçı vitse-prezidenti Rəşad Rəsullu, dini konfessiyalardan Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini Salman Musayev, yaradıcılıq təşkilatlarından Bəstəkarlar İttifaqının İdarə heyətinin üzvü Həcərxanım Babayeva İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının yeni üzvləri seçiliblər.

Sahibə Qafarova Yayım Şurasının yeni üzvlərini təbrik edib və onlara uğurlar arzulayıb, tövsiyələrini çatdırıb.

İclasda "Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş"in təsdiq edilməsi ilə bağlı Azərbaycan Respublikası qanununun layihəsi təsdiq olunub.

Qısa fasilədən sonra iclas işini davam etdirib.

Beynəlxalq Əmək Təşkilatının "Əməyin Təhlükəsizliyi və Gigiyenasının Təşviq Edilməsinin Əsasları haqqında" 187 nömrəli Konvensiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi təsdiq olunub.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Komitə sədri qeyd edib ki, Azərbaycan Prezidenti tərəfindən Milli Məclisə təqdim olunan qanun layihəsində nəzərdə tutulan dəyişiklik qanunun tətbiq edilmə müddətinin uzadılması ilə bağlıdır. Dəyişikliyə əsasən, Azərbaycan Respublikası ərazisində sahibkarlıq sahəsində aparılan yoxlamalar 2027-ci il yanvarın 1-dək dayandırılır.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (birinci oxunuş) təqdim edib. O, Məcəlləyə təklif edilən dəyişikliyin minimum əməkhaqqının məbləğinin müəyyən edilməsinin dövriliyini nəzərdə tutduğunu və mühüm mütərəqqi əhəmiyyət daşıdığını deyib.

Təklif olunan dəyişikliyə əsasən, minimum əməkhaqqının məbləğinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın təklifləri əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən ildə bir dəfədən az olmayaraq yenidən baxılır.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Banklar haqqında" və "Gömrük tarifi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib. O, layihənin elektron ticarətin tənzimlənməsi və bu sahədə vergi nəzarətinin gücləndirilməsi, dövlət qurumlarının bank əməliyyatlarının daha sistemli və vahid qaydada həyata keçirilməsi üçün hüquqi mexanizmlərin dəqiqləşdirilməsi, habelə ölkəmizdə keçiriləcək beynəlxalq tədbirlərlə bağlı vergi və gömrük məsələlərinin operativ şəkildə həll edilməsi məqsədi daşıdığını bildirib.

Qeyd edilib ki, sənəd dövlət maliyyəsinin idarə olunmasını, dövlət sektorunda mərkəzləşdirilmiş nəzarət mexanizminin və uçot sisteminin təkmilləşdirilməsini nəzərdə tutan dəyişiklikləri əhatə edir. Layihəyə əsasən, dövlət qurumlarının uçota alınması, yenidən təşkili, bank hesablarının açılması ilə bağlı məlumatlar elektron qaydada müvafiq orqana təqdim ediləcək. Bu məqsədlə Vergi Məcəlləsinə və "Banklar haqqında" qanuna dəyişikliklər təklif olunur.

Bununla yanaşı, bildirilib ki, şəhərsalma sahəsində Azərbaycanın uğurlu fəaliyyəti layiqincə qiymətləndirilərək, irimiqyaslı qlobal tədbirlərdən hesab edilən Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) 2026-cı ildə Bakı şəhərində keçirilməsi qərara alınıb. Bu məqsədlə 2023-cü il dekabrın 22-də Azərbaycan Respublikası Hökuməti ilə BMT arasında müvafiq saziş imzalanıb və qanunla təsdiq edilib. Həmin tədbirlə əlaqədar qeyri-rezident şəxslərə bir sıra vergi azadolmalarının tətbiqi məqsədəuyğun hesab edilir. Bütün vergi güzəşt və azadolmaları müvafiq təsdiqedici sənəd əsasında və 2025-ci il sentyabrın 1-dən 1 il müddətinə tətbiq olunacaq.

Qanun layihəsinə əsasən, Vergi Məcəlləsinə dəyişikliklər Azərbaycan bazarında elektron qaydada xidmət göstərən və illik dövriyyəsi 10 min ABŞ dolları ekvivalentini keçən qeyri-rezident şəxslər üçün vergi orqanlarında uçota alınma və əlavə dəyər vergisi öhdəliyinin yerinə yetirilməsi tələblərini təsbit edir. Dövriyyəsi bu həddə çatmayanlar üçün qeydiyyat könüllü olacaq. Eyni zamanda bəzi xidmətlər, o cümlədən hüquq, maliyyə, mühasibat, dizayn, mühəndislik və real vaxt rejimində tədris xidmətləri elektron ticarət xidməti kimi qiymətləndirilməyəcək. Bu dəyişiklik yerli və xarici şirkətlər arasında bərabər rəqabət şərtlərini təmin edir, yerli sahibkarlarla xarici platformalar arasında ədalətli vergi rejimi yaradır, büdcə daxilolmalarını artırır.

Habelə, Məcəlləyə təklif olunan dəyişikliklərə əsasən, müvafiq təsdiqedici sənəd əsasında müəyyən ediləcək siyahı ilə incəsənət əsərlərinin, kolleksiya əşyalarının və antiq əşyaların ölkəyə idxalı ƏDV-dən azad ediləcək. Bununla yanaşı, il ərzində məhdud sayda nadir avtonəqliyyat vasitələrinin idxalı ilə bağlı xüsusi qaydalar müəyyən edilir.

Deputat Qüdrət Həsənquliyev məsələyə dair fikirlərini söylədikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov "Əhalinin sağlamlığının qorunması haqqında" və "Onkoloji yardım haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Diqqətə çatdırılıb ki, hazırda müvafiq qanunvericiliyə əsasən, onkoloji xidmət yalnız onkoloji xidmət göstərilməsi üçün ixtisaslaşmış dövlət müəssisələri tərəfindən həyata keçirilir. Təklif edilən dəyişikliklərdə onkoloji xəstələrə göstərilən tibbi yardımın dövlət onkoloji tibb müəssisələri ilə yanaşı, özəl tibb müəssisələri tərəfindən də həyata keçirilməsi ehtiva olunur.

Müzakirələr zamanı parlamentin komitə sədri Hicran Hüseynova, deputatlar Razi Nurullayev, Elçin Mirzəbəyli məsələ ilə bağlı bəzi qeyd və təkliflərini bildiriblər. Komitə sədri Əhliman Əmiraslanov qaldırılan məsələlərə münasibət bildirib, sualları cavablandırıb.

Sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Zaur Şükürov Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində və "Qiymətli metallar və qiymətli daşlar haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirilib ki, layihə ölkəmizin "Kimberli Prosesinin Sertifikatlaşdırma Sxemi"nə qoşulmasının dəstəklənməsi məqsədini daşıyır. "Kimberli Prosesinin Sertifikatlaşdırma Sxemi"nin tələblərinə əsasən, hər bir üzv ölkənin emal edilməmiş almazların ixracına və idxalına nəzarəti həyata keçirən səlahiyyətli qurumu müəyyən olunmalı, ölkəyə gətirilən və ölkədən aparılan almazlara nəzarətin həyata keçirilməsi məqsədilə səlahiyyətli orqan tərəfindən rəy verilməli, ixrac zamanı emal edilməmiş almazlar Kimberli Prosesinin tələblərinə uyğun olan sertifikatla müşayiət olunmalıdır.

Diqqətə çatdırılıb ki, adıçəkilən beynəlxalq sənədə qoşulmaq məqsədilə dövlət başçısı tərəfindən "Kimberli Prosesinin Sertifikatlaşdırma Sxemi"nə Azərbaycan Respublikasının qoşulması ilə bağlı tədbirlər haqqında" 25 fevral 2025-ci il tarixli sərəncam imzalanıb. Həmin sərəncamda bu istiqamətdə bir sıra tədbirlərin həyata keçirilməsi, o cümlədən qanunvericiliyin təkmilləşdirilməsi nəzərdə tutulur.

Qeyd olunub ki, təqdim edilən qanun layihəsində emal edilməmiş almazın idxalı, ixracı, istifadəsi, dövriyyəsi, uçotu və saxlanılması, o cümlədən izlənməsi sahəsində dövlət nəzarəti mexanizminin yaradılması, emal edilməmiş almazın ixracı ilə əlaqədar sertifikatın forması və verilməsi qaydasının "Kimberli Prosesinin Sertifikatlaşdırma Sxemi"nin tələblərinə uyğunlaşdırılması, emal edilməmiş almazın idxalının yalnız "Kimberli Prosesinin Sertifikatlaşdırma Sxemi"nə üzv dövlətlərdən həyata keçirilməsi ilə bağlı məsələlər təsbit olunur, habelə emal edilməmiş almazın idxalı və ixracı ilə bağlı müəyyən olunacaq mexanizmin pozulmasına, yəni müvafiq rəy olmadan idxal və ixracın həyata keçirilməsinə görə inzibati məsuliyyət nəzərdə tutulur.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov "Büdcə sistemi haqqında", "Mühasibat uçotu haqqında" və "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumatı nəzərə çatdırıb. Bildirilib ki, "Dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Prezidentinin 2025-ci il 25 avqust tarixli Fərmanına əsasən, "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin yaradılması müəyyənləşdirilib. Buna uyğun olaraq, təqdim edilən qanun layihəsində bir sıra dəyişikliklərin edilməsi nəzərdə tutulub.

Belə ki, "Büdcə sistemi haqqında" qanuna təklif olunan dəyişikliyə əsasən, həmin qanunla müəyyən olunmuş müddətlərdə dövlət büdcəsinin və icmal büdcənin göstəricilərinin tərtibi üçün zəruri olan məlumatların büdcə təşkilatları tərəfindən müvafiq dövlət orqanına təqdim edilməsi, eləcə də dövlət büdcəsi göstəricilərinin, gəlir və xərclər bölgüsünün və digər məlumatların həmin orqan tərəfindən büdcə təşkilatlarına təqdim edilməsi "Rəqəmsal dövlət maliyyəsi" informasiya sistemi vasitəsilə həyata keçiriləcək. "Rəqəmsal dövlət maliyyəsi" informasiya sistemi mühasibat uçotu sahəsindəki fəaliyyəti də əhatə etdiyindən "Mühasibat uçotu haqqında" qanuna müvafiq dəyişiklik təklif olunur və "e-mühasibat" informasiya sistemi ifadəsi "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi" ifadəsi ilə əvəz olunur.

"Dövlət satınalmaları haqqında" qanuna təklif olunan dəyişikliyə əsasən, satınalma prosedurunun nəticəsi üzrə satın alan təşkilatla təsərrüfat subyektləri arasında satınalma müqavilələrinin elektron qaydada - "Rəqəmsal dövlət maliyyəsi" informasiya sistemi vasitəsilə bağlanılması, həmçinin bu proseslə bağlı bir sıra məsələlərin tənzimlənməsi təmin ediləcək.

Deputatlar Qüdrət Həsənquliyev, Vasif Qafarov, Samir Vəliyev, Rəşad Mahmudov məsələ ilə əlaqədar öz fikirlərini açıqladıqdan sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

İclasda "Patent haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə və "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri ikinci oxunuşda qəbul edilib.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

## İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvlərinin seçilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin QƏRARI

"Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinə əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun I hissəsinin 5-ci bəndinə və "İctimai televiziya və radio yayımı haqqında"Azərbaycan Respublikası Qanununun 17.2-17.4-cü və 17.6-cı maddələrinə əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Aşağıdakı şəxslər 6 il müddətinə İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvü seçilsinlər:

| | | |
|---|---|---|
| Rəşad Fərhad oğlu Rəsullu | - | namizədliyi idman federasiyaları tərəfindən irəli sürülmüşdür; |
| Salman Musa oğlu Musayev | - | namizədliyi dini konfessiyalar tərəfindən irəli sürülmüşdür; |
| Həcərxanım Teymur qızı Babayeva | - | namizədliyi yaradıcılıq təşkilatları tərəfindən irəli sürülmüşdür. |

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 2 fevral 2026-cı il*

# Nazir Vilayət Eyvazov Qəbələdə növbəti vətəndaş qəbulu və sıra baxışı keçirib





**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələr üzrə vətəndaş qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov fevralın 1-2-də Qəbələ rayonunda növbəti vətəndaş qəbulu keçirib.**

Nazir əvvəlcə Qəbələ rayonunda Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini dərin hörmət və ehtiramla yad edib.

Daha sonra polis şöbəsinin inzibati binasında Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala və Balakən rayonlarından, eləcə də digər bölgələrdən qəbula gələn 314 nəfər vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Qəbula gələn vətəndaşların müraciətlərinin operativ və qanunvericiliyin tələblərinə uyğun həlli, habelə vətəndaş məmnunluğunun təmin olunması məqsədilə nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə müvafiq tapşırıqlar verilib.

Müraciətlərin böyük əksəriyyəti yerindəcə həll olunub, digərləri nəzarətə götürülüb.

Səfər çərçivəsində general-polkovnik Vilayət Eyvazov polis və Daxili Qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını da keçirib.

Sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 206 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 17 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

*"Azərbaycan"*

# Azərbaycan regionda sülhün və sabitliyin tərəfdarıdır

## Prezident İlham Əliyevin buna yönələn siyasəti ölkəmizi dünya arenasında önə çıxarır

*Əvvəli 1-ci səh.*

" ...Reallıq budur ki, bu gün bizim ölkəmiz sabitlik, inkişaf, tərəqqi məkanı kimi dünya miqyasında tanınır və bu adı biz öz əməyimizlə, zəhmətimizlə, düşünülmüş siyasətlə qazanmışıq", - deyə ötən ilin 24 iyununda Mingəçevirdə ölkəmizin enerji potensialını böyük dərəcədə gücləndirəcək "8 Noyabr" Elektrik Stansiyasının açılış mərasimində, Prezident İlham Əliyev ölkəmizin sabitlik məkanı kimi dünya miqyasında tanınmasının, əldə olunmuş uğurların formulunu açıqlamışdı.



### Sülh və əməkdaşlıq

Müstəqilliyini bərpa etdikdən sonra ağır sınaqlardan keçən Azərbaycan dövləti zamanla güclü siyasi iradə, milli birlik və strateji baxış ortaya qoyması sayəsində inkişaf yoluna qədəm qoydu. Bu yolun zirvə nöqtəsi isə 2020-ci ildə Qarabağda qazanılan tarixi Zəfər oldu. Uzun illər davam edən işğala hərb meydanında son qoyan ölkəmiz ərazi bütövlüyümüzü, dövlət suverenliyimizi tam təmin etdi. Qarabağ Zəfəri Azərbaycanı tarixinin ən qüdrətli mərhələsinə çatdırdı. Bu gün ölkəmiz siyasi, iqtisadi və hərbi baxımdan bölgənin aparıcı gücünə çevrilib. Ordu quruculuğunda əldə olunan nailiyyətlər, iqtisadi dayanıqlılıq, sosial rifahın yüksəlməsi və beynəlxalq nüfuzun artması Azərbaycanın güclü dövlət olduğunu açıq şəkildə göstərir.

Xüsusi vurğulanmalı məqamlardan biri də Azərbaycanın geostrateji mövqeyindən səmərəli istifadə etməsidir. Enerji və nəqliyyat layihələri ölkəmizi Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən mühüm qovşağa çevirib. Bakı-Tbilisi-Ceyhan, "Cənub qaz dəhlizi", Bakı-Tbilisi-Qars dəmir yolu və Orta dəhliz kimi layihələr Azərbaycanın qlobal iqtisadi və siyasi əhəmiyyətini daha da artırıb. Təsadüfi deyil ki, dünyanın aparıcı dövlətləri, o cümlədən ABŞ, Çin kimi nəhəng siyasi-iqtisadi güclər Azərbaycanla əməkdaşlığa xüsusi maraq göstərirlər.

Qarabağ münaqişəsinin birdəfəlik həlli ilə Azərbaycan həm öz təhlükəsizliyini möhkəmləndirdi, həm də regionda dayanıqlı sülhün əsas təminatçısına çevrildi. Azərbaycan sülh istiqamətində atdığı real addımlarla Cənubi Qafqazda qarşıdurma yox, əməkdaşlıq, düşmənçilik yox, qarşılıqlı etimad mühitinin formalaşmasında maraqlı olduğunu ortaya qoydu.

Prezident İlham Əliyevin prinsipial mövqeyi, milli maraqlara əsaslanan qərarları və çevik diplomatik fəaliyyəti nəticəsində Azərbaycan regionun lider dövlətinə çevrilib. Dünyanın müxtəlif bölgələrində gərginliklərin artdığı bir vaxtda Cənubi Qafqazda sülh və əməkdaşlıq üçün yaranan real tarixi şərait məhz Azərbaycan liderinin düşünülmüş siyasətinin nəticəsidir.

### Etibarlı vasitəçilik missiyası

Bu gün Azərbaycan münaqişə edən tərəflər arasında vasitəçilik missiyasını üzərinə götürməyə hazır olan etibarlı tərəfdaş kimi tanınır. Ölkəmiz sülh təşəbbüslərini dəstəkləyir, qonşularla münasibətlərdə qarşılıqlı hörmət və etimad prinsipinə sadiq qalır. Eyni zamanda ərazisindən üçüncü qüvvələrin istifadə edərək regionda yeni gərginlik ocaqları yaratmasına qətiyyətlə imkan vermir. Beynəlxal KİV-də ABŞ-nin qonşu İrana qarşı hərbi əməliyyatlara başlayacağına dair informasiyalar geniş yer alıb. Təbii ki, bu, İranın yaxın qonşusu olaraq Azərbaycanı da narahat edir, çünki hərbi toqquşmalar regiona yaxşı heç nə vəd etmir.

İranla mehriban qonşuluq əlaqələrinə malik Azərbaycan eyni zamanda ABŞ ilə səmimi dostluğa dayanan strateji tərəfdaşlıq qurub. Bu mənada adıçəkilən ölkələr arasında hərbi qarşıdurmanın olması arzuolunan deyil və tərəflərin ortaq məxrəcə gələrək aralarındakı problemləri dialoq yolu ilə həll etməsi məqsədəuyğundur. Bu prosesdə Azərbaycan uğurlu vasitəçi ola bilər. Bakının buna qədər də aralarında gərginlik olan müxtəlif ölkələr arasında barışdırıcılıq missiyası həyata keçirməsini göz önünə gətirdikdə, Azərbaycanın strateji rolu və etibarlı vasitəçiliyi bir daha ön plana çıxır.

Yanvarın 31-də Prezident İlham Əliyev İran Prezidenti Məsud Pezeşkiana zəng edən zaman dövlətimizin başçısı bölgədə yaranmış vəziyyətin narahatlıq doğurduğunu ifadə edərək, Azərbaycanın gərginliyin aradan qaldırılmasına töhfə verməyə hazır olduğunu bildirib və ölkəmizin bu kimi məsələlərin danışıqlar və qarşılıqlı anlaşma yolu ilə həllinin tərəfdarı olduğunu vurğulayıb.

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə İranın xarici işlər naziri Seyid Abbas Əraqçi arasında yanvarın 29-da telefon danışığı zamanı İran ətrafında yaranmış vəziyyət müzakirə olunub.

Nazir Ceyhun Bayramov bölgədə son gərginliyin narahatlıq doğurduğunu, bütün tərəflərin İranda və onun ətrafında qeyri-sabitliyə səbəb ola biləcək addımlardan və ritorikadan çəkinmələrinin zəruriliyinin ölkəmiz tərəfindən hər zaman vurğulandığını bildirib. Mövcud problemləri yalnız beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, dialoq və diplomatik yollarla həll etməyin vacib olduğu qeyd edilib.

Azərbaycanın hava məkanının və ya ərazisinin hər hansı dövlət tərəfindən qonşu İrana və ya hər hansı digər ölkəyə qarşı hərbi əməliyyatların aparılması üçün istifadə edilməsinə heç vaxt imkan verilməyəcəyi xüsusi vurğulanıb.

Göründüyü kimi, bölgədə sabitliyin və təhlükəsizliyin təmin olunmasında maraqlı olan ölkəmiz daim sülhü təşviq edir, qarşılıqlı faydalı əməkdaşlığı əsas meyar kimi təqdim edir.

Bu gün dünya qeyri-müəyyənlik, münaqişə və təhlükəsizlik böhranları içərisində çabaladığı bir vaxtda Azərbaycan sabitliyin, təhlükəsizliyin və inkişafın real modeli kimi çıxış edir. Güclü siyasi iradə, milli maraqlara əsaslanan prinsipial mövqe və uzaqgörən dövlət siyasəti ölkəmizi regionda sülhün və etibarlı əməkdaşlığın əsas dayağına çevirib. Məhz bu amillər Azərbaycanın bu gün və gələcəkdə də təhlükəsizlik adası, sabitlik ünvanı və regionun aparıcı gücü olaraq qalacağını əminliklə deməyə əsas verir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Milli Məclisdə görüş

**Yanvarın 31-də Amerika Birləşmiş Ştatları Konqresi Nümayəndələr Palatasının Xarici məsələlər komitəsinin çoxluğunun peşəkar heyət üzvləri Milli Məclisdə olublar.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, ABŞ ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri Səməd Seyidov Azərbaycan-ABŞ münasibətlərinin tarixi, mövcud əməkdaşlıq istiqamətləri və gələcək inkişaf perspektivləri barədə fikirlərini bölüşüb. Vurğulanıb ki, bu gün əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi əzmi tərəflərin birgə bəyanatlarında və atılan praktiki addımlarda öz aydın ifadəsini tapır.

Vaşinqton Sammitini dəyərləndirən komitə sədri Azərbaycan Prezidenti İlham Əliyevin ötən ilin avqust ayında ABŞ-yə işgüzar səfəri, bu əsnada aparılan danışıqlar, əldə olunan razılaşmalar və imzalanan sənədlərin əhəmiyyətini qeyd edərək bildirib ki, sözügedən razılaşmalar Azərbaycan ilə ABŞ arasında münasibətləri keyfiyyətcə yeni mərhələyə daşıyıb. Vurğulanıb ki, bu sənədlər ikitərəfli əməkdaşlığın möhkəmləndirilməsi ilə yanaşı, Azərbaycan-Ermənistan sülh gündəliyi kontekstində də xüsusi rol oynayır və regionda sabitliyin, eləcə də əməkdaşlığın möhkəmləndirilməsi baxımından mühüm addım kimi dəyərləndirilir.

Söhbətdə "Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu"nun əhəmiyyəti qeyd olunaraq bildirilib ki, Birləşmiş Ştatların dəstəyi ilə bu təşəbbüsün reallaşması Avrasiyanın nəqliyyat xəritəsini dəyişməklə yanaşı, daha geniş regionda əməkdaşlığın dərinləşməsinə də mühüm töhfə verəcək.

Həmçinin "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişin Azərbaycana münasibətdə ləğv edilməsinin əhəmiyyəti vurğulanaraq, bunun ikitərəfli münasibətlərin inkişafına, qarşılıqlı etimadın möhkəmlənməsinə və əməkdaşlıq imkanlarının genişlənməsinə xidmət edəcəyi qeyd olunub.

Sonra Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev qonaqlara parlamentin səlahiyyətləri və onun fəaliyyətini tənzimləyən normativ-hüquqi aktlar barədə məlumat verib. Bildirilib ki, parlamentin fəaliyyəti qanunvericilik təşəbbüslərinin müzakirəsi və qəbulu, parlament nəzarətinin həyata keçirilməsi və beynəlxalq parlamentlərarası əməkdaşlığın inkişafı istiqamətində ardıcıl və sistemli şəkildə qurulub.

Fərid Hacıyev parlamentin strukturu, ölkədəki seçki sistemi, parlamentdə təmsil olunan partiyalar, mövcud komitə və komissiyaların fəaliyyətinə də toxunub. Qonaqlara deputatların fəaliyyətini tənzimləyən qanunlar, habelə qanun yaradıcılığı prosesi və bununla bağlı prosedur qaydaları barədə də məlumat verilib.

Amerika Birləşmiş Ştatları Konqresi Nümayəndələr Palatasının Xarici məsələlər komitəsinin çoxluğunun peşəkar heyət üzvləri çıxış edərək son dövrlər ABŞ-Azərbaycan münasibətlərinin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu, qarşılıqlı əməkdaşlığın dərinləşdiyini və parlamentlərarası dialoqun yeni səviyyəyə çatdığını məmnunluqla vurğulayıblar. Onlar bu müsbət dinamikanın davam etdirilməsinin hər iki tərəfin maraqlarına uyğun olduğunu bildiriblər.

Görüşdə iştirak edən Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Nigar Arpadarai, deputatlar Vüqar Bayramov, Erkin Qədirli, Sevinc Fətəliyeva və Gülşən Paşayeva qonaqları maraqlandıran sualları cavablandırıblar, Azərbaycan-ABŞ münasibətlərinin perspektivləri barədə fikirlərini bölüşərək, parlamentlərarası dialoqun genişləndirilməsinin qarşılıqlı etimadın möhkəmləndirilməsinə və ikitərəfli münasibətlərin daha da inkişafına töhfə verəcəyini vurğulayıblar.

Tədbirdə Milli Məclis Aparatı rəhbərinin müavini Rüstəm Mahmudov, parlamentin struktur bölmələrinin rəhbərləri, ABŞ-nin ölkəmizdəki diplomatik korpusunun əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

# Parlamentin İntizam komissiyasının iclası keçirilib

**Fevralın 2-də VII çağırış Milli Məclisin yaz sessiyasında yenidən formalaşdırılmış İntizam komissiyasının ilk iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasa sədrlik edən komissiya üzvü Hikmət Məmmədov komissiyanın sədri vəzifəsinə deputat Eldar İbrahimovun namizədliyini irəli sürüb.**



Səsvermə nəticəsində deputat Eldar İbrahimov komissiyanın sədri seçilib. Komissiya sədrinin təklifinə əsasən, Asim Mollazadə sədr müavini, Kamal Cəfərov isə komissiyanın katibi seçiliblər.

Tədbirdə çıxış edən Milli Məclisin İntizam komissiyasının sədri Eldar İbrahimov yenidən ona göstərilən etimada görə təşəkkürünü bildirib və komissiya üzvlərinə uğurlar arzulayıb.

İclasda komissiya üzvləri Nizami Səfərov, Afət Həsənova, Məlahət İbrahimqızı, Nəsib Məhəməliyev, Məşhur Məmmədov və Kamaləddin Qafarov iştirak ediblər.

*"Azərbaycan"*

# Azərbaycan regionda sabitliyin təmin edilməsi naminə uğurlu vasitəçi ola bilər

**Azərbaycan bütün dünya dövlətləri ilə normal və bərabərhüquqlu əlaqələrin qurulmasının tərəfdarıdır. Bu istiqamətdə xarici siyasətimiz uğurla davam etdirilir.**

Azərbaycanın hər zaman mehriban qonşuluq siyasətinə sadiq olduğunu qeyd edən Milli Məclisin deputatı Sevinc Fətəliyeva qəzetimizə açıqlamasında bildirib ki, məhz buna görə ölkəmiz dünyada etibarlı tərəfdaş kimi tanınır. Bu mənada, İranla da mehriban qonşuluq siyasətinin qarşılıqlı olaraq davam etdirilməsi həm hər iki dövlətin maraqlarına cavab verir, həm də bütövlükdə regionumuz üçün faydalıdır.

"Hazırda dünyada, o cümlədən yaxın regionumuzda mürəkkəb proseslər baş verir. Bu gün Yaxın Şərq bölgəsində artan gərginlik region xalqları və dövlətləri üçün ciddi narahatlıq doğurur. Xüsusilə, ABŞ-nin qonşu İrana qarşı hərbi əməliyyatlara başlayacağına dair xarici mediada informasiyalar yayılmaqdadır. İranın yaxın qonşusu olaraq Azərbaycan bu proseslərdən narahatdır, çünki hərbi toqquşmalar bölgəyə yalnız fəlakətlər gətirə bilər",- deyə o əlavə edib.

Deputatın sözlərinə görə, dövlətimiz regionda sabitliyin təmin olunmasında maraqlıdır. Ölkəmiz xarici siyasətində milli maraqlar və beynəlxalq hüquq normaları ilə yanaşı, sülh, sabitlik, inkişaf, qarşılıqlı faydalı əməkdaşlıq kimi meyarları da əsas götürür, yeni və daha mütərəqqi dəyərlər təqdim edir. Bu isə həm də regional və qlobal inkişafa, sabitliyə, təhlükəsizliyə töhfə kimi xarakterizə edilir.

S.Fətəliyeva qeyd edib ki, İran Azərbaycanın yaxın qonşusu, ABŞ isə fəal tərəfdaşımızdır: "Əlbəttə ki, bu ölkələr arasında hərbi toqquşmanın olmasını istəmirik. Ölkəmiz gərginliyin aradan qaldırılması məqsədilə tərəflər arasında vasitəçi rolunu oynaya bilər. Yanvarın 31-də Azərbaycan Prezidenti İlham Əliyevlə İranın Prezidenti Məsud Pezeşkianın telefon söhbətində də bu məsələ diqqət mərkəzində olub. Dövlətimizin başçısı bölgədə yaranmış vəziyyətin narahatlıq doğurduğunu ifadə edərək, Azərbaycanın gərginliyin aradan qaldırılmasına töhfə verməyə hazır olduğunu bildirib və ölkəmizin bu kimi məsələlərin danışıqlar və qarşılıqlı anlaşma yolu ilə həllinin tərəfdarı olduğunu vurğulayıb. İki ölkənin XİN başçılarının telefon danışığında isə Azərbaycanın hava məkanının və ya ərazisinin hər hansı dövlət tərəfindən qonşu İrana və ya digər hansısa bir ölkəyə qarşı hərbi əməliyyatların aparılması üçün istifadə edilməsinə heç vaxt imkan verilməyəcəyi xüsusi vurğulanıb".



Deputatın fikrincə, dövlətimizin mövqeyi mövcud problemlərin yalnız beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq dialoq və diplomatik yollarla həll edilməsidir. Azərbaycanın bəzi ölkələr arasında yaranmış problemlərin həllində uğurlu vasitəçilik təcrübəsi mövcuddur. Məsələn, hələ 2008-ci ildə Rusiya ilə Gürcüstan arasında baş verən gərginliyin aradan qaldırılmasında da ölkəmiz fəal vasitəçi rolunu oynamışdı. İsrail ilə Türkiyə arasında yaranmış problemin həllində də ölkəmiz vasitəçilik edib. Bakı həmin ölkələrin nümayəndələrinin görüşünə evsahibliyi edib. Eləcə də, İsrail və Suriya rəsmilərinin bəzi görüşləri də Bakıda baş tutub. "Bundan əlavə, ölkəmiz fərqli siyasi-hərbi qütblər arasında dialoqun baş tutması üçün ən uyğun məkanlardan biri kimi özünü təsdiqləyib. Məsələn, Bakıda Rusiya və NATO-nun ali hərbi rəhbərlərinin görüşlər keçirməsi ölkəmizin strateji dialoq platforması kimi çıxış etdiyini göstərir. Ölkəmiz NATO-Rusiya və ABŞ-Rusiya arasında yüksək vəzifəli hərbçilərin bir çox görüşünə evsahibliyi edib. Belə mötəbər görüşlərin keçirilməsi üçün Azərbaycanın seçilməsi beynəlxalq səviyyədə ölkəmizə olan böyük inamın ifadəsidir", -deyə deputat vurğulayıb.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası olub.**

Məhkəmənin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, iclasda konstitusiyanın 130-cu maddəsinin V hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" qanunun 7.1-ci maddəsinə əsasən, Ali Məhkəmənin Mülki Kollegiyasının 6 noyabr 2025-ci il tarixli qərarının konstitusiyaya və qanunlarına uyğunluğunun yoxlanılmasına dair vətəndaş A.Şükürovanın şikayətinə baxılaraq, plenumun icraatına qəbul olunması haqqında qərardad qəbul edilib.

Şikayətə mahiyyəti üzrə Konstitusiya Məhkəməsi Plenumunun fevralın 20-nə təyin edilmiş iclasında baxılacaq.

# Qalib dövlətin məğrur gəncləri

## Ölkəmizin parlaq gələcəyinin təmsilçiləri



**Dövlətin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunan Azərbaycan gəncliyi cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirak edir. Gənclərin potensialının üzə çıxarılması, onların intellektual, fiziki və mənəvi inkişafının təmin edilməsi, dövlətçilik prinsiplərinə sadiq, vətənpərvər və rəqabətqabiliyyətli kadrlar kimi formalaşdırılması ölkəmizdə həyata keçirilən dövlət siyasətinin əsas prioritet istiqamətlərindəndir. Uzun illərdir həyata keçirilən bu siyasət gənclərin yalnız bugünkü deyil, eyni zamanda gələcək inkişaf proseslərində də aparıcı rol oynamasına yol açır.**

Xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən əsası qoyulan dövlət gənclər siyasəti müasir Azərbaycan gəncliyinin formalaşmasında mühüm rol oynayıb. Ulu Öndər gəncləri cəmiyyətin strateji resursu kimi qiymətləndirərək, onların bilik və bacarıqlarının ölkənin inkişafı naminə səfərbər edilməsini əsas vəzifələrdən biri kimi müəyyənləşdirmişdir. Məhz bu yanaşma nəticəsində gənclərin azərbaycançılıq ideologiyası, milli-mənəvi dəyərlər, dövlətçilik və vətənpərvərlik prinsipləri əsasında formalaşması üçün mühüm addımlar atıldı.

Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlət gənclər siyasəti dövrün çağırışlarına uyğunlaşdırılaraq uğurla davam etdirilir. Gənclərlə bağlı dövlət proqramlarının qəbulu, institusional mexanizmlərin yaradılması, sosial, təhsil və məşğulluq sahələrində məqsədyönlü təşəbbüslərin həyata keçirilməsi gənclərin cəmiyyət həyatında fəallığını əhəmiyyətli dərəcədə artırıb. Bu siyasət gənclərin müasir biliklərə yiyələnməsinə, innovativ düşüncə tərzinin formalaşmasına və qlobal rəqabət mühitinə uğurla inteqrasiya olunmasına geniş imkanlar yaradıb.

Azərbaycan gəncliyinin Vətən müharibəsində göstərdiyi yüksək vətənpərvərliyi və qəhrəmanlıqları xüsusi qeyd etmək istərdim. Bu, dövlət gənclər siyasətinin real və praktik nəticələrini nümayiş etdirdi. Qürurla deyə bilərik ki, dövlətimizin başçısı cənab İlham Əliyevin hakimiyyəti illərində formalaşmış gənclərimiz ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda aparılan mübarizədə milli birliyimizin əsas dayaqlarından birinə çevrildilər.

Eyni zamanda gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına şərait yaradan dövlət proqramları, könüllülük hərəkatının genişlənməsi, liderlik və idarəçilik bacarıqlarını inkişaf etdirən təşəbbüslər onların şəxsi və peşəkar inkişafına mühüm töhfələr verir. Bu uğurlu mexanizmlər gənclərin ictimai məsuliyyət hissini gücləndirir, onların təşəbbüskarlığını və sosial fəallığını artırır.

Gənclərimiz üçün ölkəmizin müxtəlif bölgələrində yaradılan müasir infrastruktur, intellektual və yaradıcı mühit onların asudə vaxtlarının daha səmərəli təşkilinə, inkişaflarına mühüm təkan verir. Bu, həmçinin regionlarda yaşayan gənclərin potensialının üzə çıxarılmasına xidmət edir və onların cəmiyyətin fəal üzvləri kimi formalaşmasına, sosial və mədəni proseslərdə yaxından iştiraklarına imkan yaradır.

Gənclərimizin əldə etdiyi uğurlardan danışarkən təbii ki, idman sahəsini xüsusi vurğulamaq lazımdır. Bu istiqamətdə yaradılan geniş imkanlar, müasir idman infrastrukturları, sağlam həyat tərzinin təşviqi istiqamətində görülən işlər gənclərin idmana olan marağını daha da artırıb. Bu gün gənclərimiz müxtəlif idman yarışlarında ölkəmizi uğurla təmsil edir, böyük qələbələrə imza atırlar.

Bütövlükdə, dövlətin ardıcıl, məqsədyönlü və sistemli siyasəti nəticəsində Azərbaycan gəncliyi cəmiyyətin aparıcı qüvvələrindən birinə çevrilib. Azərbaycan dövlətinin uğurlu gənclər siyasəti nəticəsində formalaşan, yüksək bilik və bacarıqlara, güclü vətənpərvərlik ruhuna malik, milli-mənəvi dəyərlərə bağlı gənc nəsil ölkəmizin parlaq gələcəyinin təzahürüdür.

*Şahin İSMAYILOV,*
*Milli Məclisin Gənclər və idman komitəsinin sədri*

## "Gənc həmkarlarla inkişafa doğru" mövzusunda tədbir keçirilib

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) üzv təşkilatı Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Birliyi tərəfindən 2 Fevral - Azərbaycan Gəncləri Gününə həsr olunmuş "Gənc həmkarlarla inkişafa doğru" adlı tədbir keçirilib.**











Səməd Vurğun adına Sağlamlıq və İstirahət Mərkəzində təşkil olunan tədbirdə AHİK-in və dövlət qurumlarının nümayəndələri, həmkarlar ittifaqlarının gənc üzvləri iştirak ediblər.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb, Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov Ulu Öndər Heydər Əliyevin uğurlu gənclər siyasətindən, cənab Prezident İlham Əliyevin Azərbaycan gəncliyinə göstərdiyi xüsusi diqqət və qayğıdan bəhs edib, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun reallaşdırdığı sosial, mədəni və humanitar layihələrin gənclərin inkişafına və cəmiyyətdə rolunun artırılmasına mühüm töhfə verdiyini vurğulayıb.

Konfederasiya sədri ölkəmizdə həyata keçirilən gənclər siyasətinə dəstək olaraq AHİK-in həyata keçirdiyi məqsədyönlü və sistemli tədbirləri də qeyd edib.

Gənclər və idman nazirinin müavini İndira Hacıyeva çıxışında ölkəmizdə gənclərin fiziki, mənəvi və sosial inkişafının təmin olunması məqsədilə həyata keçirilən dövlət proqramları və layihələrdən danışıb. Nazir müavini gənclərin sağlam həyat tərzinin təşviq olunmasının, idman infrastrukturlarının genişləndirilməsinin, onların cəmiyyətin ictimai-siyasi və sosial həyatında fəal iştirakının təmin edilməsinin gənclər siyasətinin əsas istiqamətlərindən olduğunu qeyd edib.

Elm və təhsil nazirinin müavini Kənan Kərimzadə gənclərin inkişafında təhsilin strateji roluna toxunaraq bildirib ki, Azərbaycanın müasir təhsil sistemi gənclərin bilik və bacarıqlarının, yaradıcılıq qabiliyyətinin və peşəkar kadr potensialının formalaşmasına xidmət edir, onları məsuliyyətli vətəndaş kimi yetişməyə yönəldir.

Gənclər Fondunun icraçı direktoru vəzifəsini icra edən Yusif Vəliyev isə gənclərin təşəbbüslərinin stimullaşdırılması, onların sosial, innovativ və ictimai əhəmiyyət daşıyan ideyalarının layihələr vasitəsilə dəstəklənməsi istiqamətində görülən işlərdən danışıb, fondun gənclərin fəallığının artırılmasına, liderlik bacarıqlarının inkişafına və onların cəmiyyətin müxtəlif sahələrində daha aktiv iştirakına verdiyi töhfəni qeyd edib.

Tədbir çərçivəsində AHİK tərəfindən həmkarlar ittifaqları sistemində aparılan islahatları, həyata keçirilən layihələri və tətbiq olunan yenilikləri əks etdirən videoçarx nümayiş olunub.

Daha sonra gənclər - "Uğur yolu" müsabiqəsinin qalibi, İqtisadiyyat Nazirliyinin İnsan resurslarının inkişafı şöbəsinin əməkdaşı Hüriyyə Məmmədova, 3-cü "Yüksəliş" müsabiqəsinin qalibi, Mərkəzi Bankın şöbə rəisi İlahə Baxışova Tahirli və Yeni Azərbaycan Partiyası Həmkarlar İttifaqı Komitəsinin əməkdaşı Camo Əliyev çıxış edərək uğur hekayələrini iştirakçılarla bölüşüblər.

Sonra "Rəqəmsallaşma və innovasiyaların tətbiqində gənclərin rolu" mövzusunda panel müzakirə aparılıb.

Tədbir bədii hissə ilə davam edib.

*Nərminə ƏSGƏROVA,*
*"Azərbaycan"*

## Milli Kitabxanada "2 Fevral - Azərbaycan Gəncləri Günü" adlı virtual və eyniadlı ənənəvi kitab sərgisi istifadəçilərə təqdim olunub



**Milli Kitabxanada "2 Fevral - Azərbaycan Gəncləri Günü" adlı virtual və eyniadlı ənənəvi kitab sərgisi istifadəçilərə təqdim olunub.**

Ənənəvi sərgidə gənclər siyasəti ilə bağlı normativ hüquqi sənədlər toplusu, Heydər Əliyev və Azərbaycan Respublikasında gənclər siyasəti, Prezident İlham Əliyev və müasir Azərbaycan gəncləri, gənclərdə vətənpərvərlik ruhunun formalaşması, Azərbaycan gəncləri statistik məcmuələri, gənc yazarlar, gənc tədqiqatçıların elmi əsərləri, Azərbaycan gəncliyinin Vətən müharibəsi dövründəki fəaliyyəti, həmçinin Böyük Zəfərin ardınca vüsət götürən Qarabağın yenidən dirçəldilməsi prosesindəki iştirakı haqqında Azərbaycan və müxtəlif dillərdə ədəbiyyatlar, gənclərdə milli mənlik, vətənə sədaqət ruhu aşılayan mahnıların müsiqi notları nümayiş olunur.

Virtual sərgidə rəsmi sənədlər, dövlətin gənclər siyasəti, Heydər Əliyevin gənclər siyasəti və sevgisi, istedadlı gənclərin Azərbaycanın dayanıqlı inkişafında rolu, gənclərdə milli ruh və s. mövzularda dövri mətbuatda çap olunan məqalələr, gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında rolundan bəhs edən, Milli Kitabxananın fondunda mühafizə olunan Azərbaycan və xarici dillərdə ədəbiyyatlar nümayiş olunur.

Ulu Öndər Heydər Əliyevin 1997-ci il fevralın 2-də imzaladığı Fərmana əsasən, hər il fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edilib. Dahi şəxsiyyət Heydər Əliyevin imzaladığı fərmanla təsis olunan əlamətdar gün Azərbaycan gənclərinin cəmiyyətdəki roluna verilən yüksək qiymətdir.

Ulu Öndər Heydər Əliyev gənclər sahəsində dövlət siyasətinin uğurla həyata keçirilməsi məqsədilə bu sahənin zəruri qanunvericilik bazasının formalaşdırılmasını təmin edib.

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan siyasi kurs bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafına təkan verir, onların özlərini cəmiyyətdə təsdiq etməsində mühüm rol oynayır.

Azərbaycan Respublikasında gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə nail olmaq, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək, gənc nəslin sağlamlığını qorumaq, gənclərin təhsil və məşğulluq məsələlərinə diqqəti artırmaq, müasir informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etmək məqsədilə Azərbaycan gəncliyi ilə bağlı dövlət proqramları qəbul edilib, 2007-ci il "Gənclər ili" elan olunub, 2011-ci ildə Gənclər Fondu yaradılıb, 2013-cü ildə ölkədə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı" təsis olunub, Azərbaycan gənclərinin İnkişaf Strategiyası təsdiqlənib.

Dövlətimizin başçısının 2007-ci il 16 aprel tarixli sərəncamı ilə təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil üzrə Dövlət Proqramı" və "2022-2026-cı illərdə gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair Dövlət Proqramı" bütün təbəqədən olan gənclərin xaricdə təhsilinə geniş imkanlar yaradıb. Bu proqram çərçivəsində minlərlə gənc dünyanın ən nüfuzlu təhsil ocaqlarında oxuyur.

Azərbaycanda həyata keçirilən gənclər siyasəti yeni nəslin intellektual və innovativ potensialının reallaşmasına hərtərəfli imkan yaratmaqla yanaşı, onlarda dərin vətənpərvərlik ruhu formalaşdırıb. Azərbaycan gənci məhz qəlbindəki güclü Vətən sevgisi sayəsində döyüşlərin əsas ağırlığını qəhrəmancasına öz üzərinə götürərək, xalqımızın qələbə əzmini dünyaya nümayiş etdirmiş Vətən müharibəsində Zəfər salnaməsi yazıb.

## Keçmişdən güc, bu gündən ilham alaraq sabaha doğru

**Gənclər gələcəyi formalaşdıran əsas qüvvədir. Son illər ölkəmizin gəncləri elm, texnologiya, ictimai həyat, mədəniyyət və idman sahələrində fəal iştirak edərək, ölkənin inkişafına mühüm töhfələr verirlər. Dövlət tərəfindən gənclərə göstərilən diqqət və qayğı onların potensialının üzə çıxmasına şərait yaradır.**



Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təməlini qoyduğu siyasət ölkəmizin gələcəkdə də dayanıqlı inkişafını təmin edəcək gənc nəslin formalaşmasına xidmət edir.

AZƏRTAC 2 Fevral - Azərbaycan Gəncləri Günü münasibətilə gəncliyə göstərilən diqqət və qayğını, müasir dövrdə əldə olunan uğurları xatırlayır.

Ölkəmizdə dövlətin gənclər siyasətinin əsasları Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə formalaşıb. Gənclər və İdman Nazirliyinin yaradılmasını, Azərbaycan Gənclərinin Birinci Forumunun keçirilməsini bu yolda ilk addımlar hesab etmək olar. Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu gənclərin vətənpərvərlik və milli dəyərlərə sədaqət ruhunda yetişməsini prioritet vəzifə kimi irəli sürüb. Onun strateji baxışları nəticəsində gənclərin ölkənin hərtərəfli inkişafında fəal iştirakı üçün möhkəm baza yaradılıb. Dahi şəxsiyyət Heydər Əliyev müstəqilliyin ilk illərində gənclərin enerji və imkanlarını milli maraqlarımızın müdafiəsinə səfərbər edərək, onların vətənpərvər ruhda yetişməsinə zəmin yaradıb. Gənclərin mənəvi inkişafı, ictimai-siyasi həyatda fəal iştirakı, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli sahəsində davamlı addımlar atılıb. Gənclər təşkilatlarının formalaşması və inkişafına yaşıl işıq yandırılıb. Gənc kadrlar vəzifədə irəli çəkilib, bir sıra mühüm dövlət işlərinə rəhbərlik onlara etibar edilib.

Ümummilli Lider Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyev bütün sahələrdə olduğu kimi, gənclər siyasəti sahəsində də Ümummilli Liderin yolunu davam etdirib, bu istiqamətdə mühüm addımlar atılıb. Təsadüfi deyil ki, son illər ölkəmizin hərtərəfli inkişafında gənclər böyük rol oynayırlar. Bu, ilk növbədə gənclərlə iş sahəsində aparılan ardıcıl siyasətin nəticəsidir. 2007-ci ildən bəri icra olunan gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair dövlət proqramları çərçivəsində minlərlə gənc dünyanın müxtəlif universitetlərində yüksək ali təhsilə yiyələnib. İlk növbədə təhsil sahəsində müşahidə olunan inkişaf xüsusi qeyd olunmalıdır. Azərbaycan gəncləri yerli və xarici ali məktəblərdə təhsil almağa böyük maraq göstərirlər. Beynəlxalq mübadilə proqramları, təqaüd layihələri və onlayn təhsil imkanları onların dünyagörüşünü genişləndirir. Təhsilli və savadlı gənclər gələcəkdə ölkənin elmi və iqtisadi inkişafında aparıcı rol oynayırlar.

Texnologiyanın sürətli inkişafı gənclərin fəaliyyətinə yeni istiqamətlər açıb. Son illər Azərbaycanda startap ekosistemi formalaşıb, gənc sahibkarlar innovativ layihələrlə çıxış etməyə başlayıblar. Proqramlaşdırma, süni intellekt, kibertəhlükəsizlik və rəqəmsal marketinq sahələrində çalışan gənclər qlobal əmək bazarında rəqabət aparmaq gücünə malikdirlər.

"2022-2026-cı illərdə gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair Dövlət Proqramı"na uyğun olaraq, hər il ümumilikdə 2 minədək Azərbaycan gənci xaricdə nüfuzlu ali təhsil müəssisələrində bakalavriat və magistratura səviyyələrində təhsil alır. Həmin proqram çərçivəsində minlərlə gənc dünyanın ən nüfuzlu təhsil ocaqlarında oxuyur.

Heydər Əliyev Fondu tərəfindən gənclərin istedad və bacarıqlarının üzə çıxarılması istiqamətində həyata keçirilən layihələr yetişməkdə olan nəslin gələcəyinin etibarlı təminatında böyük əhəmiyyət kəsb edir. Eləcə də fondun rəhbərliyinin təşəbbüsü ilə xaricdə və ölkəmizdə reallaşan layihələr Azərbaycanın uğurlarının təbliğində, gənclərimizin fəallığının artırılmasında və onların fəaliyyətlərinin əlaqələndirilməsində mühüm rol oynayır. Bu ali diqqət və qayğını daim öz üzərində hiss edən Azərbaycan gəncliyi göstərilən etimadı layiqincə doğrultmağa çalışır.

Gənclərin məşğulluğunun artırılması, onların istedad və bacarıqlarının üzə çıxarılması məqsədilə mühüm layihə və proqramlar onların yaradıcılıq və peşəkar inkişafına hərtərəfli imkanlar yaradır.

2012-ci ildən başlayaraq hər il Azərbaycanın müxtəlif şəhər və rayonlarından birinin "Gənclər Paytaxtı" elan edilməsi ənənə halını alıb və həmin təşəbbüs bölgələrdə gənclər hərəkatının inkişafında əhəmiyyətli rol oynayır. Ötən il Sumqayıt şəhəri Azərbaycanın "Gənclər Paytaxtı" olub. Qəbələ şəhəri isə 2025-ci il üçün "MDB Gənclər Paytaxtı" elan edilib. 2026-cı il üçün isə Azərbaycanın "Gənclər Paytaxtı" Goranboy rayonu seçilib.

Böyük Zəfərlə başa çatan Vətən müharibəsi gənclərin Vətənə bağlılıq və fədakarlıq ruhunun parlaq nümunəsinin nümayişinə çevrilib. Hər şeyin sınağa çəkildiyi həmin günlərdə gənclər qəhrəmanlıq, fədakarlıq, rəşadət və hünər tarixi yazmaqla yanaşı, öz adlarını da xalqımızın ən yeni tarixinə qızıl hərflərlə yazıblar. Məhz onların rəşadəti sayəsində qazanılan bu şanlı Zəfər sayəsində Azərbaycan ərazi bütövlüyünü bərpa edib, xalqımız 30 illik həsrətdən sonra tarixi torpaqlarına qovuşub. Həmin günlərdə onların nümayiş etdirdikləri birlik, həmrəylik, igidlik və rəşadət zaman-zaman xatırlanacaq. Gənc nəsil həmin sınaq günlərində çox böyük örnək qoyub.

Azərbaycan gəncliyi dünyaya açılan pəncərədir. O, bir tərəfdən qədim tarixin və milli dəyərlərin daşıyıcısı, digər tərəfdən isə müasir dünyanın ritmini tutan yenilikçi ruhdur. Gənclər dövlətin etimadını doğruldaraq ölkənin sosial, iqtisadi və ictimai-siyasi həyatında fəal iştirak edir, öz bilik və bacarıqları ilə dövlətimizin strateji məqsədlərinə xidmət edirlər. Onların fəaliyyəti ölkənin inkişaf strategiyasının əsas dayaqlarından biridir. Gənclərə yaradılan imkanlar genişləndikcə, Azərbaycan gələcəkdə daha da güclü və rəqabətqabiliyyətli dövlətə çevriləcək.

Qeyd edək ki, Prezident İlham Əliyev yanvarın 30-da "2026-cı il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən 10 nəfərə 2026-cı il Gənclər üçün Prezident mükafatları verilib.

# Sumqayıt: inkişafın və uğurların ünvanı

## Şəhərin yüksəlişi davamlı, sürətli və hərtərəflidir

**Geridə qoyduğumuz 2025-ci il Azərbaycan Respublikasının tarixində olduqca əlamətdar dövr kimi yadda qaldı. Möhtərəm Prezident İlham Əliyevin müdrik rəhbərliyi və qətiyyətli siyasəti nəticəsində ötən il qarşıda dayanan siyasi, iqtisadi və sosial vəzifələr layiqincə yerinə yetirildi, dövlətimiz özünün əsas məqsədləri ilə bağlı tarixi uğurlar əldə etdi. Xüsusilə ötən il avqust ayının 8-də Vaşinqton şəhərində Azərbaycanla Ermənistan arasındakı sülh sazişi layihəsinin paraflanması respublikamızın mühüm siyasi uğuruna çevrilərək, 44 günlük Vətən müharibəsi və antiterror əməliyyatları nəticəsində regionda yaranan yeni reallıqların və Prezident İlham Əliyevin müəllifi olduğu sülh prosesinin qlobal səviyyədə qəbul olunduğunu, böyük dəstək qazandığını və rəğbətlə qarşılandığını təsdiq etdi.**



Ötən il Vaşinqtonda Zəngəzur dəhlizinin açılması istiqamətində əldə olunan tarixi razılaşma, Azərbaycanın dünyanın aparıcı siyasi və iqtisadi gücləri olan ABŞ və Çin kimi dövlətlərlə münasibətlərin yeni mərhələyə qədəm qoyması və strateji məzmun alması, Prezident İlham Əliyevin regionda sülh və əməkdaşlığı təmin edən siyasətinin beynəlxalq nümunəyə çevrilməsi dövlətimizin növbəti siyasi uğurları oldu.

2025-ci il dövlətimizin milli prioriteti olan işğaldan azad edilmiş ərazilərimizin bərpası və "Böyük qayıdış" proqramının həyata keçirilməsi baxımından da yaddaqalan mərhələ oldu. Ötən il keçmiş məcburi köçkünlərin qayıtdığı şəhər və kəndlərin sayının 32-yə çatması, Qarabağ və Şərqi Zəngəzurda yaşayan, işləyən və təhsil alan vətəndaşlarımızın sayının 70 min nəfəri ötməsi Böyük qayıdışın sürətli və dinamik olduğunu göstərir.

### İnnovativ və rəqəmsal çağırışlara əsaslanan tərəqqi

Respublikamızın iqtisadi prioritetlərinin reallaşması və regionların inkişafı baxımından da 2025-ci il mühüm uğurlarla zəngindir. Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciətində qeyd etdiyi kimi, biz əldə olunmuş uğurlarla fəxr edə bilərik. Prezident İlham Əliyev 5 yanvar 2026-cı il tarixdə yerli televiziya kanallarına verdiyi müsahibədə də bununla bağlı prinsipial məqamlara toxunmuşdur. Hazırda Azərbaycanın valyua ehtiyatları 83-84 milyard ABŞ dolları səviyyəsindədir. Ölkəmizin xarici borcu isə tarixdə ən aşağı səviyyədə, ÜDM-in 6,3-6,4 faizi həcmindədir. Maliyyə ehtiyatlarımız xarici borcu 16-17 dəfə üstələyir ki, bu da Azərbaycanın iqtisadi təhlükəsizliyinin mühüm təminatlarından biri kimi özünü göstərir. Ötən il Azərbaycan iqtisadiyyatının güclü dayanıqlıq nümayiş etdirməsi beynəlxalq səviyyədə də diqqəti cəlb edib və "Moody's" və "Fitch" agentlikləri respublikamızın kredit reytinqini yeniləyiblər.

2025-ci ildə ölkəmizdə 129,1 milyard manatlıq ümumi daxili məhsul istehsal olunmuş, qeyri-neft-qaz sektorunda 2,7 faiz artım baş vermişdir. Böyük fəxrlə qeyd edə bilərik ki, əldə olunan bu uğurlarda dinamik inkişaf yolunda olan, ən müasir şəhərsalma standartları əsasında gündən-günə gözəlləşən, o cümlədən sənayedə böyük nailiyyətlərə imza atan Sumqayıt şəhərinin də payı və özünəməxsus yeri var.

Sumqayıtın əldə etdiyi nailiyyətlərin, o cümlədən sənaye şöhrətini bərpa etməsinin, möhtəşəm abadlıq və quruculuq məkanına çevrilməsinin təməlində Prezident İlham Əliyevin xüsusi diqqəti və qayğısı, xalqımızın Ulu Öndəri Heydər Əliyevin şəhərlə bağlı qarşıya qoyduğu vəzifələrin layiqincə davam etdirilməsi dayanır. Cənab İlham Əliyevin Sumqayıtın inkişafı ilə bağlı məsələləri xüsusi diqqət mərkəzində saxlamasını ötən 22 ildə şəhərə 35 dəfə səfər etməsi də təsdiqləyir. Bu səfərlərin hər biri ali qayğının təsəssümü olmaqla şəhərin tarixində əlamətdar hadisəyə çevrilib və Sumqayıtın inkişafına töhfə verib. Vaxtilə xalqımızın Ulu Öndəri Heydər Əliyev Sumqayıtı intibah yoluna çıxarmış, şəhərimizi dünyaya tanıtmışdı. Bu gün isə möhtərəm Prezident İlham Əliyevin diqqəti və qayğısı ilə Sumqayıtın yeni tarixi yazılır. Sumqayıtın müasir və innovativ çağırışlar əsasında inkişafı, gözoxşayan quruculuğu və sənaye şöhrətini bərpa etməsi müasir Azərbaycanın yüksəlişinin ən gözəl nümunələrindən biri kimi özünü göstərir.

Sumqayıtın tərəqqisi həm də Prezident İlham Əliyevin müəyyən etdiyi strateji iqtisadi prioritetlərdən biri olan regional inkişafın bariz təzahürüdür. Belə ki, şəhərin sosial-iqtisadi inkişafı istiqamətində atılan addımlar regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının tərkib hissəsi olmaqla şəhər üzrə kompleks tədbirlərin həyata keçirilməsinə şərait yaradıb və bütün bunlar öz növbəsində şəhərin əsas sosial-iqtisadi göstəricilərinin ilbəil artan dinamika ilə hərəkətinə imkan verib. Bu baxımdan son illərin göstəriciləri şəhərdə iqtisadi sferada nə qədər böyük dəyişikliklərin baş verdiyini görməyə imkan yaradır. Təkcə 2015-2025-ci illərin statistikası bu sahədəki möhtəşəm dinamikadan xəbər verir. Belə ki, bu dövrdə;

*Ümumi məhsul buraxılışının həcmi 6 dəfə artaraq 850 milyon manatdan 5 milyard 250 milyon manata;*

*- sənaye məhsulunun həcmi 9 dəfə artaraq 500 milyon manatdan 4 milyard 500 milyon manata;*

*- şəhərin gəlirləri 3 dəfə artaraq 84 milyon 818 min 557 manatdan 248 milyon 303 min 952 manata;*

*- əsas kapitala yönəldilmiş vəsait 2,5 dəfə artaraq 140 milyon manatdan 350 milyon manata;*

*- şəhər əhalisinin hər bir nəfərinə düşən gəlir 1,6 dəfə artaraq 3400 manatdan 5600 manata;*

*- şəhər üzrə işçilərin orta aylıq əməkhaqqı 2,2 dəfə artaraq 400 manatdan 935 manata;*

*- şəhərdə məşğul olan əhalinin sayı 1,9 dəfə artaraq 100 min nəfərdən 190 min nəfərə çatmışdır.*

Bu rəqəmlər göstərir ki, Sumqayıt iqtisadi sahədəki göstəricilərinə görə respublika üzrə aparıcı mövqedən çıxış edir. Ən əsası, bu rəqəmlər möhtərəm Prezident İlham Əliyevin müdrik rəhbərliyi nəticəsində Sumqayıtın timsalında Azərbaycanın iqtisadi inkişafının möhtəşəm təcəssümlərindən biridir. Bir mühüm faktı da xüsusi qeyd etməliyik ki, Sumqayıt 2012-ci ildən etibarən dövlət büdcəsindən dotasiya almır. Bu gün də Sumqayıtın büdcəsi şəhərin özünün iqtisadiyyatı əsasında formalaşır.

















### Müasir sənaye mərkəzi

Sumqayıtın yüksəlişinin iqtisadi tərəflərindən bəhs edərkən yada düşən ilk məsələ şəhərin sənaye potensialının hərəkətə gətirilməsi olur. Sumqayıt sənaye şəhəri kimi yaranıb, inkişaf edib. Hələ sovet dövründə şəhərdə böyük kimya, neft-kimya, metallurgiya, maşınqayırma, elektroenergetika sənayesi formalaşmış, o cümlədən yüngül sənaye sahələri yaradılmışdı. Xüsusən Ulu Öndər Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə Sumqayıtın sənayesi daha da inkişaf etmiş, şəhərdə yeni müəssisələr fəaliyyətə başlamışdı. O dövrdə şəhərin sürətlə böyüməsi və yeni mikrorayonların salınması da sənayenin inkişafı ilə birbaşa bağlı idi.

Tarixi ənənələrə və mövcud potensiala söykənərək Sumqayıt bu gün də sənaye şəhəri kimi inkişaf edir. Möhtərəm Prezident İlham Əliyevin həyata keçirdiyi inkişaf siyasətinin tərkib hissəsi kimi burada yeni sənaye komplekslərinin formalaşdırılması xüsusi diqqət mərkəzində saxlanılıb və nəticə etibarilə Sumqayıt regionun ikinci böyük sənaye mərkəzinə çevrilib. Hazırda şəhərdə onlarca kimya və neft-kimya, qara və əlvan metallurgiya, maşınqayırma, elektroenergetika, yeyinti və





yüngül sənaye, tikinti materiallarının istehsalı müəssisələri fəaliyyət göstərir. Onların hər biri nəinki Sumqayıt şəhərində, eləcə də Azərbaycan iqtisadiyyatında böyük rol oynayan aparıcı istehsal müəssisələridir.

Şəhərdəki yeni sənaye müəssisələrinin böyük bir qismi Sumqayıt Sənaye Parkında fəaliyyət göstərir. Ümumi sahəsi 640 hektar olan Sumqayıt Sənaye Parkında hazırda 40 rezident fəaliyyət göstərir, layihələrin ümumi dəyəri 6,7 milyard manat, faktiki investisiya həcmi isə 5,5 milyard manat təşkil edir. Layihələr çərçivəsində 8800-ə yaxın yeni iş yerinin yaradılması nəzərdə tutulur. Faktiki olaraq 6135 nəfər işlə təmin edilib. Rezidentlərin ümumi satış həcmi 15,4 milyard manata çatıb ki, bunun da 5,7 milyard manatı ixracın payına düşür.

2015-2025-ci illər ərzində Sumqayıt Kimya Sənaye Parkında Bakı Əlvan Metallar və Ferro Ərintiləri Zavodu, "Tabaterra" QSC-nin tütün məmulatları istehsalı fabriki, Peşə Təhsil Mərkəzi, "Bakı Textil Fabriki" MMC tərəfindən tibbi maska istehsalı müəssisəsi, "Azmonbat" MMC-nin qurğuşun turşulu akkumulyator batareyalarının utilizasiyası istehsal sahəsi, "Azərsulfat" MMC-nin Sulfat turşusunun istehsalı sahəsi, "Glassica" QSC-nin məhsullarının (butulka) istehsalı sahəsi, "Novus Plastica" MMC-nin Polimer materialların emalı müəsisəsi, "Azərbaycan Vanhong Ceramics Co." MMC-nin Keramik plitələrin istehsalı müəssisəsi, "Azərxalça" ASC-nin xalça istehsalı müəssisəsi, "UPI - Universal Packing Industry" QSC-nin Qablaşdırma məhsullarının (qofro karton, fayl və s.) istehsalı zavodu tikilib istifadəyə verilib.

Prezident İlham Əliyev bu il yanvarın 27-də Sumqayıt Sənaye Parkında "Azermirror" MMC-nin güzgü vərəqələrin istehsalı zavodunun, "Bakı Karton və Qutu Fabriki" MMC-nin karton və qutu taralarının istehsalı müəssisəsinin açılışında iştirak edib və "Nun" MMC-nin polipropilen və laminatlı kisə istehsalı müəssisəsinin təməlini qoyub. Ötən il aprelin 30-da isə Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında "Kartaş Kimya" MMC-nin tikinti kimyəvilərinin və "Az-Tex-İmport" MMC-nin "IVECO" markalı yük və xüsusi təyinatlı avtomobil istehsalı zavodlarının açılışında iştirak etmişdi.

Göründüyü kimi, Sumqayıtda sənaye müəssisələrinin yaradılması prosesi davamlıdır. Son 10 ildə şəhərdə fəaliyyət göstərən sənaye müəssisələrinin sayı 124-dən 327-yə çatıb. Bütün bunlar Azərbaycandakı əlverişli biznes mühitinin təzahürü olmaqla, respublikamızın inkişafına, ixracın böyüməsinə və yeni iş yerlərinin açılmasına böyük töhfələr verir. Əgər 2015-ci ildə şəhərin bütün sənaye müəssissələrində çalışan işçilərin sayı 11 min 946 nəfər idisə, 2025-ci ildə bu rəqəm 17 min 750 nəfərə çatıb.

Sumqayıt Sənaye Parkında fəaliyyət göstərən "SOCAR Karbamid" və "SOCAR Polymer" kimi zavodlar isə respublikamızın iqtisadiyyatına və ixracına böyük töhfələr verən müəssisələrdir.

Sumqayıtdakı sənaye müəssisələrinin bir qismi Sumqayıt Texnologiya Parkında (STP) yerləşir. STP-nin ən əsas hədəflərindən biri keyfiyyətli və çoxçeşidli məhsulları və xidmətləri ilə Azərbaycanı Yaxın Şərq və Avropa ölkələrində uğurla təmsil etməkdir.

Prezident İlham Əliyevin dediyi kimi, Sumqayıt müasir sənaye mərkəzidir: "Bu müəssisələrin yaradılmasının və təməlinin qoyulmasının çox böyük əhəmiyyəti var, ilk növbədə Sumqayıt şəhərinin inkişafı üçün. Sumqayıt hazırda nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir və müasir sənaye mərkəzidir. Eyni zamanda son illər ərzində Sumqayıtda yaradılmış bütün müəssisələr ən yüksək ekoloji standartlara cavab verir. Sumqayıt üçün bunun xüsusi əhəmiyyəti var. Çünki əvvəllər Sumqayıt ekoloji fəlakət zonası idi. Biz isə Sumqayıtı müasir sənaye mərkəzinə çevirərək ilk növbədə insanların sağlamlığını nəzərə almışıq".

Sumqayıtda sənayenin inkişafı həm də ən müasir və innovativ texnologiyalara, rəqəmsal və "yaşıl çağırış"lara əsaslanır. Ona görə sənaye şəhəri olmasına baxmayaraq, Sumqayıt həm də ekoloji baxımdan təmiz yaşıl məkan kimi inkişaf edir.

### Quruculuq məkanı, yaranan yeni ünvanlar

Bu gün Sumqayıt Cənubi Qafqazın sənaye mərkəzi kimi tanınsa da, şəhərin nailiyyətləri həm də onun quruculuğunda, müasir şəhərsalma standartları ilə inkişafında, habelə elm, təhsil, səhiyyə, mədəniyyət, şəhər təsərrüfatı və digər sahələrdə əldə etdiyi uğurlarda görünür.

Sumqayıtın əsas nailiyyətlərindən biri şəhərdə həyata keçirilən quruculuq, o cümlədən yenidənqurma işləridir. Müasir və milli memarlıq xüsusiyyətləri əsasında aparılan quruculuq işləri son illərdə şəhərin simasını daha da gözəlləşdirib. Buna misal olaraq Heydər Əliyev Mərkəzini, Yeni Azərbaycan Partiyasının inzibati binasını, Bayraq muzeyini, Gənclər mərkəzini, Şahmat məktəbini, Muğam mərkəzini, Sumqayıt Məhkəmə Kompleksini, Olimpiya və Paralimpiya İdman komplekslərini, Əlillərin Bərpa Mərkəzini, 1 və 2 saylı "ASAN xidmət" mərkəzlərini göstərmək olar. Bu inzibati binalar həm də şəhərimizin son illərdə yaranan yeni ünvanlarıdır.

Sumqayıtın yeni və gözəl ünvanlarından biri də Dənizkənarı bulvardır. Dəniz sahilində yerləşsə də, Sumqayıtda Dənizkənarı bulvar yox idi. Bu baxımdan şəhərdə həyata keçirilən ən nəhəng və əzəmətli quruculuq işlərindən biri Dənizkənarı bulvarın yaradılmasıdır. Bu gözəl və yaraşıqlı məkan hazırda həm şəhər sakinlərinin, həm də qonaqların üz tutduğu əsas ünvanlardan biridir. Prezident İlham Əliyev Sumqayıt bulvarını möcüzə adlandıraraq deyib: "Sumqayıt bulvarı isə hesab edirəm ki, bir möcüzədir. Sumqayıt bulvarının yaradılması ilə bağlı mən hələ bir neçə il bundan əvvəl şəhər rəhbərliyi qarşısında vəzifə qoymuşdum. Sumqayıtlılar yəqin ki, xatırlayırlar, hətta bir neçə il bundan əvvəl mənim üçün təqdimat da keçirilmişdi. Hər zaman maraqlanırdım ki, işlər necə gedir. Məlumat verilirdi ki, orada çətinlik, burada çətinlik var. Ancaq bu gün Sumqayıt bulvarı artıq açılıb. Bu bulvarın yaradılmasında şəhər rəhbərliyinin xüsusi rolu, Sumqayıt sakinlərinin böyük rolu var. Mən çox istəyirdim ki, Sumqayıtda Bakı bulvarına bənzər bir bulvar olsun. Bu gün biz buna nail olduq".

Onu da fəxarət hissi ilə qeyd etmək istərdim ki, Madrid və Paris şəhərlərində keçirilən "Global Trade Leaders Club"un XXIV Beynəlxalq Üstünlük və Liderlik forumlarında Sumqayıt bulvarı "İnternational Award for Excellence & Leadership" mükafatına layiq görülüb.

Qeyd olunanlarla yanaşı, son illərdə həm də sovet dövründə inşa edilmiş binaların təmiri və restavrasiyası həyata keçirilib. Prezident İlham Əliyevin şəhərimizə olan diqqətinin nəticəsi kimi "Kimyaçılar" Mədəniyyət Sarayı, Dram teatrı, "Nizami" kinoteatrı, Mehdi Hüseynzadə adına şəhər stadionu, Sumqayıt Dəmir Yolu Vağzalı Kompleksi ən müasir standartlar səviyyəsində yenidən qurulub.

2015-ci ildən Sumqayıt Səhiyyə şöbəsinin tabeliyində olan tibb müəssisələrinin əsaslı təmir işlərinə başlanılıb. 1 və 2 nömrəli doğum evləri, Onkoloji xəstəxana, Uşaq xəstəxanası, 5 nömrəli uşaq poliklinikası, Narkoloji Dispanser, 1 nömrəli uşaq poliklinikası, 1 nömrəli poliklinika, 2 nömrəli qadın məsləhətxanası, 2 nömrəli uşaq poliklinikası, 4 nömrəli şəhər poliklinikası əsaslı şəkildə təmir edilib. 1 nömrəli doğum evi 2018-ci ildən III səviyyəli perinatal mərkəz kimi fəaliyyət göstərir. Oftalmoloji xəstəxana, Ruhi-əsəb xəstəxanası, Sumqayıt Səhiyyə şöbəsinin inzibati binası, 4 nömrəli xəstəxana və Təcili Tibbi Yardım Stansiyasında isə cari təmir işləri aparılıb. Tibb müəssisələrinin hər biri yüksək tələblərə cavab verən tibbi avadanlıqlarla təmin edilib. 2 saylı Sumqayıt Şəhər Xəstəxanasının yeni binası da şəhərimizin son illərdə həyata keçirilən möhtəşəm quruculuq nümunələrindən biridir.

Aparılan abadlıq və quruculuq işləri şəhərin Şəhidlər xiyabanını da əhatə etmişdir. 1992-ci ildə salınan Şəhidlər xiyabanı 2021-ci ildə əsaslı şəkildə təmir olunmuş, ərazisi genişləndirilərək 1,2 hektara çatdırılmışdır. Yenidən qurulan Şəhidlər xiyabanında "Qalib Əsgər" abidəsi ucaldılıb, hündürlüyü 30 metr olan yeni bayraq dirəyi quraşdırılıb, Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə "Zəfər ağacı" abidəsi yaradılıb.

Şəhərin əsas giriş yolu olan Sülh prospekti 10 metr genişləndirilib, burada 3 km uzunluqlu yaşıllıq zolağı salınıb. Şəhərin mənzil fonduna daxil olan 1200 çoxmənzilli yaşayış binasının dam örtüyü dəyişdirilib, 795 yaşayış binasının, 4 yataqxana binasının fasadları əsaslı təmir edilib, 47 yaşayış binasının fasadları aqlay üzlük daşları ilə üzlənib və işıqlandırılıb, istismar müddətini keçmiş 580 ədəd köhnə lift yeni elektron tipli müasir liftlərlə əvəz olunub. Sumqayıt şəhərində Qafqazda ilk dəfə olaraq, liftlər "onlayn" rejimində işləyən intellektual idarəetmə sisteminə qoşulub. Sumqayıt şəhərinə 250 ədəd müasir, ekoloji təmiz avtobuslar gətirilərək marşrut xətlərinə buraxılıb.

Ümumiyyətlə, kompleks abadlıq işləri, yeni infrastrukturun və şəhər təsərrüfatının qurulması Sumqayıtda müasir və işgüzar abhava yaradıb. Müasir infrastruktur və şəhər təsərrüfatı həm də şəhər sakinlərinə ən yüksək standartlar səviyysində xidmət göstərilməsini təmin edir.

Bunlardan başqa, şəhərdə 80-nə yaxın "nümunəvi" məhəllə salınaraq sakinlərin istifadəsinə verilib. Heydər Əliyev adına park yenidən qurulub, ərazisi genişləndirilib, burada Ulu Öndərin ağ mərmərdən abidəsi ucaldılıb, uzunluğu 76 metr olan bayraq dirəyi quraşdırılıb. Əgər Sumqayıtda 2015-ci ildə yaşıllıq ərazilər 619,39 hektar təşkil edirdisə, indi bu rəqəm 1163,57 hektar təşkil edir.

Bu gün Sumqayıt inkişafın və uğurların ünvanı kimi tanınır. Şəhərin yüksəlişi isə davamlı, sürətli və hərtərəflidir. Qarşımızda dayanan vəzifələr isə bundan sonra da məsuliyyətlə, layiqincə yerinə yetiriləcək və Prezident İlham Əliyevin diqqət və qayğısı ilə qarşıdakı dövrdə də Sumqayıtın yüksəliş salnaməsi yazılacaq.

*Zakir FƏRƏCOV,*
*Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı*











**2026 Şəhərsalma və Memarlıq İli**



# Ulu Öndərin dəstəyi ilə böyüyən Naftalan





**"Şəhərsalma və Memarlıq İli" çərçivəsində Kiçik Qafqaz sıra dağlarının ətəklərində yerləşən, tarixinə və taleyinə işıq tutduğumuz Naftalanda ucaldılan əzəmətli tikililər insanın təbiətə olan sevgisinin ən bariz nümunəsidir. Naftalan şəhəri Azərbaycanın şimal-qərbində, Bakıdan 340 km məsafədə yerləşir. 1967-ci ilə qədər Naftalan şəhəri Goranboy və Yevlax rayonlarının tərkibində qəsəbə kimi fəaliyyət göstərib. 1967-ci il aprelin 28-də Naftalana respublika tabeli şəhər statusu verilib.**

Ulu Öndər Heydər Əliyev 1969-cu ildə Azərbaycana siyasi hakimiyyətə gəlişindən sonra 1 şəhər, 2 kənddən ibarət Naftalanın siması xeyli dəyişib, bu şəhərdə müalicə məqsədilə yeni binalar tikilib. İftixar hissi ilə deyə bilərik ki, xoş sədası dünyanın inkişaf etmiş ölkələrindən, ən böyük şəhərlərindən gələn Naftalan şəhəri və buradakı müalicə mərkəzləri ölkəmizin qürur ünvanına çevrilib.

Xatırladaq ki, Naftalan nefti Orta əsrlərdən bir çox xəstəliklərin müalicəsində dərman kimi istifadə olunub. Buradan çıxarılan neft görünüşcə adi sənaye nefti ilə oxşar olsa da, 70-dən çox xəstəliyi müalicə etməyə imkan verən unikal kimyəvi tərkibə və şəfalı xüsusiyyətlərə malikdir. İndi bu müasir şəhər dünyanın müxtəlif xalqlarından olan insanların üz tutduqları ünvanlardandır. Naftalanın yayı quru-isti, qışı mülayim-isti keçir. "1001 dərdin dərmanı" olan Naftalan nefti əsəb, ginekoloji, uroloji və dəri xəstəliklərinin, eləcə də qaraciyər xəstəliklərinin, oynaqların müalicəsində təsirli vasitə kimi bütün dünyada tanınır. Naftalan mədənlərinin məşhur müalicəvi xüsusiyyətlərinə baxmayaraq, XIX əsrə qədər quyudan neft əl ilə alınıb. 1873-cü ildə ilk quyu qazılıb. 1890-cı ildə burada neft emalı və xəstəxana üçün kiçik zavod fəaliyyət göstərib. Naftalan məlhəmləri ölkənin hüdudlarından kənarda şöhrət qazanıb, hətta dünya müharibələri zamanı əsgərlər tərəfindən istifadə olunmağa başlayıb.

Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin dəstəyi ilə şəhərdə 2005-ci ilin may ayında 3 binadan ibarət olan "Naftalan" sağlamlıq mərkəzi, az sonra üstün konfortlu daha 2 bina (IV və V), ümumiyyətlə, son illər müasir tələblərə cavab verən 10-dan çox sağlamlıq mərkəzi istifadəyə verilib. Hazırda bu sağlamlıq mərkəzi eyni vaxtda üç mindən çox turist qəbul etmək imkanına malikdir.

Bir şəhər, iki kənddən ibarət Naftalanda Respublika Həmkarlar İttifaqları Konfedarasiyasının tabeliyində olan müalicə və istirahət mərkəzlərində son iki ildə mühüm infrastruktur layihələri həyata keçirilib. Müasir tibb müəssisələri, böyük bir diaqnostika kompleksi və müalicəvi Naftalan yağı 70-dən çox xəstəliyi müalicə etməyə imkan verir.

Milli arxitektura elementlərini özündə ehtiva edən 4 ulduzlu "Nafta" sanatoriyası şəhərin mərkəzində yerləşir. Hər tərəfi yaşıllıqlardan ibarət bu sanatoriya təbiətin şəfaverici gücü ilə müasir tibbi texnologiyaları özündə birləşdirərək qonaqlara sakitlik, müalicə və rahatlıq bəxş edir.

Bu barədə redaksiyamıza respublikmızın şəhər və rayonlarından, habelə dünyanın müxtəlif xarici ölkələrindən minnətdarlıq dolu müracət-məktublar daxil olur. Görkəmli tibb alimi, Əməkdar elm xadimi, professor Vaqif Şadlinski deyir: "Səhiyyə üzrə pedaqoq-alim olaraq xarici ölkələrdə bir çox simpoziumun, konfransın, beynəlxalq tədbirin iştirakçısı olmuşam. Hansı ölkədə, hansı şəhərdə olmuşamsa, orada səhiyyənin vəziyyəti, xəstəxanaların yerləşdiyi binaların memarlıq görkəmi və xidmətin keyfiyyəti ilə maraqlanmışam. Hətta bəyəndiyim şəhərə sonradan, məzuniyyət zamanı istirahətə, oradakı xəstəxanaya müainəyə və müalicəyə də getmişəm. Ancaq iki il bundan öncə Naftalanı görəndə bir daha əmin oldum ki, illərlə axtardığım şəfanı burada tapmışam. Respublika Həmkarlar İttifaqının göndərişi ilə keçən il "Çinar" sanatoriyasında, bu il payızın ortalarında həyat yoldaşımla birlikdə "Nafta" sanatoriyasında müayinə və müalicə olunmuşuq. Buraya Orta Asiya, Rusiya, İsrail, Almaniya, Polşa, Çexiya və digər xarici ölkələrdən gələnlər də tərəddüdsüz etiraf edirlər ki, bu möhtəşəm binalarda yaradılan tibbi şərait, müsir avadanlıqlarla təchizat, insanlara göstərilən xidmət dünyanın ən ünlü xəstəxanaları ilə müqayisədə nəinki onlardan geridə qalmır, hətta irəlidədir.

Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycanın sanatoriya-kurort infrastrukturunu təşkil edən bu şəhər həm də sağlamlıq turizminin məkanlarından biri kimi xarakterizə edilir".

Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə "Dünya, ümumiyyətlə, quruculuqla, tikib yaratmaqla yaşayıb, inkişaf edib", deyən Ulu Öndər Heydər Əliyevin təşəbbüs və tövsiyələri ilə Naftalanda yerli memarlıq üslubunda inşa edilən sanatoriya, ictimai və yaşayış binaları, parklar bu yerlərə xüsusi gözəllik verir.

Hazırda Azərbaycanda şəhərsalma və infrastruktur layihələri müasir standartlara uyğun şəkildə davam etdirilir, bu sahəyə xüsusi diqqət yetirilir. Məhz bunun nəticəsidir ki, Prezident İlham Əliyevin 22 dekabr 2025-ci il tarixli sərəncamı ilə 2026-cı il Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan edilib. Bu, təsadüfi deyil. 2026-cı il 17-22 may tarixlərində Bakı şəhərində Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) keçiriləcək. Əvvəlki beynəlxalq tədbirlərdə olduğu kimi, yenə də dünyanın nəzərləri Azərbaycana dikiləcək. Çünki müasir dövrdə qlobal şəhərsalma çağırışları ölkəmizdə müzakirə ediləcək, ən mühüm qərarlar burada qəbul olunacaq.

2026-cı il "Şəhərsalma və Memarlıq İli"nin tarixi əhəmiyyəti həm də ondadır ki, ölkəmizdə müasir memarlıq və şəhərsalma layihələri daha sürətlə icra olunacaq. Azərbaycanın şəhər, qəsəbə və kəndlərinin görkəmi dəyişəcək, gözəlləşəcək. Bu sıradan Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində yaşlandıqca cavanlaşan Naftalanda da yeni tikiləcək memarlıq nümunələri könül oxşayacaq.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Dünya ölkələrində şöhrət qazanmış görkəmli memar

**Azərbaycan memarlıq məktəbinin görkəmli nümayəndələrindən biri də Dövlət mükafatı laureatı, Şərq Ölkələri Beynəlxalq Memarlıq Akademiyasının və Beynəlxalq Ekologiya Akademiyasının həqiqi üzvü, memarlıq doktoru, professor Ramiz Əbdülrəhimovdur. Geniş fəaliyyəti və zəngin yaradıcılığı ilə seçilən və sevilən görkəmli memar gənclərə nümunə olan şərəfli bir ömür yolu keçmişdir. O, 1940-cı ildə Bakı şəhərində dünyaya göz açmışdır. Hələ orta məktəb illərindən inşaat və memarlıq sahəsinə böyük maraq göstərmişdir. Bu maraq onu Bakı Mərkəzi Pionerlər sarayına gətirib çıxarmışdır. Gələcəyin böyük memarı olacaq Ramiz Əbdülrəhimov burada rəsm və heykəl dərnəklərinə üzv yazılmışdır. İlk günlərdən fəallığı və çalışqanlığı ilə seçilmişdir.**



Orta təhsilini başa vurduqdan sonra ailə vəziyyəti ilə əlaqədar işləmək məcburiyyətində qalmışdır. Bir il gündüzlər kitab mağazasında işləmiş, axşamlar isə ali məktəbə qəbul olmaq arzusu ilə imtahanlara hazırlaşmışdır. 1958-ci ildə Azərbaycan Politexnik İnstitutunun İnşaat fakültəsinə qəbul olmuşdur. Birinci kursun sonunda imtahan və məqbullardan yüksək qiymət aldığına görə rektorun əmri ilə dərsə gəlməsi sərbəst olmuşdur. Təhsildəki uğurlarına görə Ramiz Əbdülrəhimov yüksək təqaüd almışdır. Dərslərə gəlməyi sərbəst olduqdan sonra o, asudə vaxtdan səmərəli istifadə edərək tikintidə fəhlə, betonçu, hörgü ustası, malakeş kimi çalışaraq bu işləri dərindən öyrənmişdir. Ali təhsil ocağında dövrünün tanınmış memarları olan M.Hüseynov, Ə.Qasımzadə, H.Məcidov, H.Ələsgərov, B.İvanov, E.Kanukov, O.Qiyasov və başqalarından dərs alaraq biliklərini daha da artırmış, memarlığın sirlərinə dərindən yiyələnmişdir.

Müəllimi Ənvər Qasımzadənin yüksək pedoqoji və insani keyfiyyətləri onun bacarıqlı memar kimi formalaşmasına böyük təsir göstərmişdir. Bacarığına, istedadına görə Ramiz Əbdülrəhimov dördüncü kursdan başlayaraq "Azərkəndlayihə" İnstitutunda baş texnik, memar vəzifələrində işləmişdir. Onun "Əli Bayramlı şəhərinin baş planı" mövzusunda hazırladığı diplom işi SSRİ Memarlıq İttifaqının təşkil etdiyi ali memarlıq məktəblərinin diplom işləri müsabiqəsində mükafata layiq görülmüşdür.

1964-cü ildə Azərbaycan Politexnik İnstitutunun İnşaat fakültəsinin memarlıq ixtisasını bitirən Ramiz Əbdülrəhimov "Azərkommunallayihə" İnstitutunda işləmişdir. Bir müddətdən sonra isə ali təhsil ocağında müəllimi olmuş Ənvər Qasımzadənin məsləhəti ilə Politexnik İnstitutunda çalışmağa başlamışdır. Görkəmli memar Ramiz Əbdülrəhimov 1971-ci ildə texnika elmlər namizədi, 1996-cı ildə isə memarlıq doktoru dissertasiyalarını uğurla müdafiə etmişdir. 1977-ci ildə dosent, 1985-ci ildə professor elmi adı almışdır. Tanınmış memarın 70-ə yaxın layihəsi uğurla həyata keçirilmişdir. Ramiz Əbdülrəhimovun böyük sevgi ilə tərtib etdiyi və həyata keçməsini gözlədiyi layihələrindən biri də Türkdilli Dövlətlər Birliyi Mərkəzinin yerləşəcəyi kompleks olmuşdur.







Ramiz Əbdülrəhimov 1975-1977-ci illərdə tədqiqatçı-alim kimi Almaniyada ezamiyyətdə olmuşdur. Drezden Texniki Universitetində və Berlinin bir neçə elmi-tədqiqat institutlarında o, tanınmış alimlər professor Krak və Rayxartın rəhbərliyi altında xeyli səmərəli tədqiqat işləri aparmışdır. Tədqiqatlarla yanaşı, Ramiz müəllim Drezden Texniki Universitetində memarlıq və inşaat bölmələrində təhsil prosesi ilə də yaxından tanış olmuşdur.

Ramiz Əbdülrəhimov elmi işlərlə yanaşı, 1979-1993-cü illərdə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun Memarlıq fakültəsinin dekanı vəzifəsində çalışmışdır. Gələcəyin memarlarına dərs demiş, bilik öyrətmişdir. Savadlı, bacarıqlı memarların hazırlanması üçün əməyini heç vaxt əsirgəməmişdir.

Pedoqoji fəaliyyət göstərdiyi illərdə R.Əbdülrəhimov Azərbaycan, türk və rus dillərində memarlıq-inşaat lüğəti də hazırlayıb. 1993-cü ildə o, üç həftəliyə Şimali Kipr Cümhuriyyətinə dəvət olunmuşdur. Bu dəvət zamanı görkəmli memar Amerika Universitetinin Memarlıq fakültəsində tədris işlərinin aparılmasıyla bağlı dəyərli təkliflər vermişdir.

Tanınmış pedaqoq, layihəçi-memar, elmi tədqiqatçı Ramiz Əbdülrəhimovun həyat və yaradıcılığı ilə bağlı memarlıq doktoru, professor, AMEA-nın müxbir üzvü Cəfər Qiyasi "Memar Ramiz Əbdülrəhimov" adlı kitab yazıb. Kitabda onu tanıyan və sevən sənət adamları görkəmli memarın gördüyü işlərdən ətraflı söz açmış, ürək sözlərini söyləmişlər. Onun gördüyü işləri yüksək qiymətləndirmişlər.

Kitabda AMEA-nın həqiqi üzvü, professor Şamil Fətullayev-Fiqarov Ramiz Əbdülrəhimov haqqında demişdir: "Ramiz Əbdülrəhimov şəxsiyyətdir! Onun maraq dairəsini və çoxtərəfli istedadını qeyd etməklə, mükəmməl müəllim, gözəl natiq və bakılılara xas olan dünyagörüşünə malik bir vətəndaş olmasını göstərmək lazımdır. Onun insani xüsusiyyətləri prinsipiallığında və qayğıkeşliyində özünü büruzə verməkdədir. Bir memar kimi o özünü Türkiyədə, Kiprdə, Rusiyada, Almaniyada və digər ölkələrdə göstərmişdir".

Ramiz Əbdülrəhimov gördüyü memarlıq işlərinə görə müxtəlif illərdə bir-birindən dəyərli adlar və mükafatlar qazanıb. Ramiz Əbdülrəhimov 1976-cı ildə Azərbaycan Memarlar İttifaqına üzv olub. 1986-cı ildə Azərbaycan SSR "Əməkdar ali məktəb işçisi" fəxri adına layiq görülüb. Azərbaycan Dövlət Opera və Balet Teatrının yenidənqurma layihəsindəki fəaliyyətinə görə Ramiz Əbdülrəhimov Dövlət mükafatına layiq görülüb. Bacarığı və işgüzarlığı ilə şöhrət qazanan memar 1993-1996-cı illərdə İstanbul Texniki Universitetinin, 1996-2008-ci illərdə isə Qaradəniz Texniki Universitetinin professoru olmuşdur. 1992-ci ildə Şərq Ölkələri Beynəlxalq Memarlıq Akademiyasının akademiki seçilib. 1994-cü ildən Turkiyə Memarlar və Akustiklər Cəmiyyətinə, 1999-cu ildə isə Avropa Akustiklər Cəmiyyətinə üzv olub. 2003-cü ildən Beynəlxalq Ekologiya Akademiyasının, 2010-cu ildən isə Rusiya Beynəlxalq Memarlıq və İnşaat Akademiyasının akademikidir. 2016-cı ildən Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsüdür. Geniş fəaliyyətinə, bacarığına görə görkəmli alim 2021-ci ildə 3-cü dərəcəli "Əmək" ordeninə layiq görülmüşdür.

Tanınmış azərbaycanlı memar Ramiz Əbdülrəhimov təkcə ölkəmizdə deyil, Türkiyə, Rusiya və Mərkəzi Asiyada çoxşaxəli layihələri ilə də şöhrət qazanmışdır. Bütün bunlar onu göstərir ki, yüksək bacarığa malik olan mütəxəssisin müəllifi olduğu layihələrin ünvanı çox geniş coğrafiyanı əhatə edir. Buna görə də istedadlı layihəçi-memar Ramiz Əbdülrəhimovu demək olar ki, dünyanın bir çox ölkəsində yaxşı tanıyırlar. Azərbaycan xalqı belə bacarıqlı, istedadlı oğulları ilə fəxr edir.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Bərpaolunan abidələr, yaşayan tarix

**Tarix bəzən daşlarda danışır, bəzən də unudulmuş, gözdən, könüldən uzaq bir binanın uçulub dağılmaqda olan divarlarının səssizliyində gizlənir. Min illərin yaddaşını oxumaq, zamanın yaralarını anlamaq və onları gələcəyə daşımaq isə tarixi bir zərurətdir. Nə yaxşı ki, bu missiyanı öz ömrünün mənasına çevirən, memar-bərpaçılar var ki, onlar, sadəcə, abidələri bərpa etmirlər - keçmişlə gələcək arasında körpü qururlar. Bu yazımızda ömrünü tarixi abidələrin bərpasına həsr edən, daşın yaddaşına toxunan, zamanın izlərini qoruyaraq onları gələcək nəsillərə əmanət edən bir gənc xanımın peşəkar və mənalı ömür yolundan bəhs edəcəyik.**



Günel Ənvər qızı Qafarova taleyi ilə peşəsini, yaddaşı ilə məsuliyyətini birləşdirən gənc memar-bərpaçılardandır. Atası hərbi qulluqçu olan Günel 1990-cı ildə Almaniya Federativ Respublikasının Noyştreviç şəhərində anadan olsa da, onun mənəvi kökü, dünyagörüşü və peşə yolu Azərbaycanla, bu torpağın tarixi və ağrıları ilə sıx bağlıdır. Orta təhsilini Qaradağ rayonunun Lökbatan qəsəbəsində yerləşən E.Həsənov adına 139 saylı məktəbdə alan Günel Qafarovanın memar olmaq arzusu onu 2007-ci ildə Azərbaycan Memarlıq və İnşaat Universitetinə aparır.

Bakalavr və magistr təhsilini uğurla başa vuran gənc memar elmi axtarışlarını da bərpa sahəsinə yönəldir. 2018-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunda "Memarlıq nəzəriyyəsi və tarixi, abidələrin bərpası və rekonstruksiyası" ixtisası üzrə fəlsəfə doktoru hazırlığına qəbul olunması Günelin peşəyə təsadüfi deyil, düşünülmüş və məqsədli yanaşmasının göstəricisidir.

Günel Qafarovanın bərpa sahəsinə bağlılığı təkcə peşə marağından qaynaqlanmır. Bu yolun başlanğıcında ailə yaddaşı, Vətən ağrısı və Qarabağ həsrəti dayanır. Günelin atası hərbçi olub. Almaniyada xidmət etdiyi dövrdə belə Vətənlə yaşayan, torpaqlarımıza qarşı erməni təcavüzü başlayanda Azərbaycana dönərək Birinci Qarabağ müharibəsində iştirak edən döyüşçülərdəndir. Atasının Qarabağın tarixi abidələri, erməni vandalizminin milli-mədəni irsimizə vurduğu yaralar haqqında etdiyi söhbətlər gənc memarın yaddaşında silinməz izlər buraxıb. "Atamın ən böyük arzusu Qarabağın azadlığını görmək idi. Təəssüf ki, o, bu günü görmədi", - Günel xanım deyir.

Atanın arzusu qızının peşə yolunda bir amala çevrilir. 2012-ci ildən etibarən bərpaçı-memar kimi fəaliyyət göstərən Günel Qafarova bu sahədə ardıcıl və məhsuldar işləri ilə fərqlənir. Gənc memarın adı bu gün Azərbaycanın müxtəlif bölgələrində yerləşən onlarca tarixi abidənin bərpası ilə birgə çəkilir. XII əsrə aid Qazaxdakı Sınıq körpüdən tutmuş, Şuşanın məscid və bulaqlarınadək, Ağdamın viran qoyulmuş ibadət məkanlarından Naxçıvanın möhtəşəm türbələrinə qədər uzanan bu siyahı təkcə layihələrin deyil, milli yaddaşın xəritəsidir.

Günel Qafarova, eyni zamanda yeni memarlıq layihələrində də fəal iştirak edir, tarix ilə müasirliyi uzlaşdırmağı bacaran mütəxəssis kimi tanınır. Onun elmi-publisistik fəaliyyəti də diqqətəlayiqdir. 10 elmi məqalənin müəllifi olan gənc memarın bakalavr diplom işi kitab kimi çap olunub, magistr işi isə Sankt-Peterburqda keçirilən beynəlxalq müsabiqədə yüksək mükafata layiq görülüb.





Azad Qarabağa ilk səfəri isə onun üçün dərin mənəvi yaşantı olduğunu, Şuşanı gəzərkən hiss etdiyi qürur və kövrəkliyin bu torpaqlara atasının ruhu ilə birlikdə qayıtmaq hissinin təzahürü olduğunu düşünür. "Mənə elə gəlirdi ki, atamın ruhu başımın üstündə mənimlə birlikdə azad olunmuş torpaqlarımızda gəzirdi", - deyir Günel Qafarova.

Gənc memar gördüyü işləri yalnız bir peşə fəaliyyəti deyil, tarixi və mənəvi borc kimi dəyərləndirir. Onun üçün abidə, sadəcə, daş və divar deyil. Abidə xalqın tarixi kimliyini sübut edən pasport, min illərin yaddaşını daşıyan canlı varlıqdır. Bu baxış onu memarlığa fərqli məsuliyyətlə yanaşmağa vadar edir. Günel Qafarova deyir ki, memar öz işinə sevgi ilə yanaşmalıdır.

Tarixi qorumaq yalnız daşları bərpa etmək deyil, millətin yaddaşını unutdurmamaqdır. Günel Qafarova dağıdılmış abidələrə təkcə memar gözü ilə deyil, Vətəninə borclu bir övladın məsuliyyəti ilə yanaşır. Hər bərpaolunan divarda keçmişin nəfəsi, hər dirçəldilən abidədə gələcək nəsillərə ünvanlanan səssiz bir çağırışı var. Bu yol çətin, məsuliyyətli və səbir tələb edən yoldur. Amma bu yolun davamçıları olduğu müddətdə tarix susmayacaq, daşların yaddaşı itməyəcək. Gənc memar-bərpaçı Günel Qafarova məhz bu yaddaşı qoruyan, keçmişi gələcəyə daşıyan nadir peşə sahiblərindəndir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Bir fərmanın tarixi



### Heydər Əliyevin yoxsulluğun azaldılması ilə bağlı dövlət proqramını təsdiq etməsindən 23 il keçir

**Ümummilli Lider Heydər Əliyevin "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında fərmanının imzalanmasından 23 il keçir. Prezident İlham Əliyev bu sahədə də ardıcıl siyasət apararaq həmin proqramın icrasını təmin etmişdir.**

Ulu Öndər Heydər Əliyevin səyləri nəticəsində 1996-2002-ci illər ərzində Azərbaycanda ümumi daxili məhsul 1,7, iqtisadiyyata kapital qoyuluşu 7,8, əhalinin nominal pul gəlirləri 3, orta aylıq əməkhaqqı və pensiya 5 dəfə artmışdı. Lakin ondan əvvəlki dövrdə yaranmış gerilik belə tez bir zamanda ölkədə iqtisadiyyatın yüksək inkişaf səviyyəsini və əhalinin beynəlxalq standartlara uyğun həyat tərzini tam təmin etməyə imkan verməmişdi. Odur ki, Ümummilli Lider 2003-cü il fevralın 20-də sözügedən fərmanı imzalamışdır.

Proqramın həyata keçirilməsi nəticəsində 2005-ci ildə yoxsulluq səviyyəsi 2002-ci ildəki 46,7 faizdən 29,3 faizə düşmüşdür. Görülən tədbirlər sayəsində 2007-ci ilin axırına yoxsulluq səviyyəsi artıq 15,8 faizə enmişdir.

Bu istiqamətdə aparılan siyasətin ardıcıl xarakter daşıdığını 2008-ci ilin sentyabrında Prezident İlham Əliyevin imzaladığı "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" sərəncam da sübut etdi. Bu sənəd əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində əldə olunmuş nailiyyətləri davam etdirmək, yoxsulluq səviyyəsinin daha da azaldılmasını, habelə bununla bağlı BMT-nin qəbul etdiyi "Minilliyin İnkişaf Məqsədləri"ndən irəli gələn vəzifələrin ölkəmizin xüsusiyyətləri nəzərə alınmaqla yerinə yetirilməsini təmin etmək məqsədi daşıyırdı.

2004-cü ilin fevralında isə dövlət başçısının fərmanı ilə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq olundu. 2004-2008-ci illəri əhatə edən bu birinci proqram və sonrakı illərdə həmin istiqamətə yönəldilən növbəti proqramlar yoxsulluğun azalmasında misilsiz rol oynadı. Bölgələrin tarazlı inkişafı təmin edildi, təkcə iri şəhərlərdə deyil, rayonlarda da çoxsaylı sənaye, emal, xidmət müəssisələri açıldı. Unudulmuş, tənəzzülə uğramış kənd təsərrüfatı sahələrinin dirçəldilməsi ilə minlərlə insanın məşğulluq problemi həll olundu.

2004-cü ildən bəri regionlarda on minlərlə yeni müəssisənin açılması və burada milyonlarla iş yerinin yaradılması şərhə ehtiyacı olmayan faktdır. Təkcə 2025-ci ilin 9 ayında ölkədə 77,7 min yeni iş yeri açılıb. Həmin ilin 11 ayında 530 mindən çox şəxs aktiv məşğulluq proqramlarına cəlb edilib, o cümlədən 16,5 min şəxs üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik ailə biznesləri yaradılıb. Ümumilikdə ötən dövrdə 111 min şəxs özünüməşğulluq proqramına cəlb edilib. Bu proqramın dəstəyi ilə onlar üçün kiçik ailə təsərrüfatlarının qurulması təmin olunub. Hazırda dövlət məşğulluq siyasətinin başlıca istiqamətlərindən biri "Böyük qayıdış" proqramına uyğun olaraq doğma yurdlarına köçürülən vətəndaşların məşğulluğunun təmin edilməsidir.

Son 22-23 il ərzində Azərbaycanın ümumi daxili məhsulu bir neçə dəfə artıb. Ölkəmizin həyata keçirdiyi qlobal neft-qaz və ixrac layihələri Avropanın enerji xəritəsini dəyişdirib. Ölkə iqtisadiyyatının bel sütununu təşkil edən "Azəri-Çıraq-Günəşli" yataqları milyardlarla dollar gəlir gətirib. Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, üç böyük boru xəttinin birləşməsindən yaranan "Cənub qaz dəhlizi" bir çox ölkənin enerji təhlükəsizliyində mühüm rol oynayaraq Azərbaycanın iqtisadi qüdrətini getdikcə daha da artırır. Bu layihələr ölkəmizə rifah gətirir və dövlətimiz eyni zamanda uğurlu sosial siyasət yeridərək neft kapitalını insan kapitalına çevirib.

Yoxsulluğun minimuma endirilməsi yenə də prioritet olaraq qalır. Təsadüfi deyil ki, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də də bu məsələ özünə geniş yer alıb. Burada dövlətin vətəndaşın rifahını nə qədər yüksək tutması bir daha aydın görünür. Qeyd olunur ki, davamlı və yüksək iqtisadi artım dinamik və inklüziv cəmiyyətin formalaşmasına xidmət etməli, hər bir vətəndaş öz həyatında bu inkişafı hiss etməlidir. İnsanların sosial statusundan və yaşadığı ərazidən asılı olmayaraq, iqtisadi imkanlara çıxışı bərabər və ədalətli olmalıdır. İnkişafdan hər bir vətəndaşın bəhrələnməsi yenə də diqqət mərkəzindədir. Dövlət yüksək inkişaf üçün yalnız iqtisadi artımı deyil, cəmiyyətin bütün üzvlərinin sosial rifahını mühüm amil sayır: "İqtisadiyyat inkişaf etdikcə vətəndaşların sərvət və gəlirlərinin, o cümlədən əməkhaqlarının artırılaraq layiqli səviyyəsi təmin edilməli, əməkhaqqının artımı əmək məhsuldarlığının artımı ilə uzlaşdırılmalıdır. Ölkədə artan gəlirlər daha geniş iqtisadi imkanlar yaratmalı, bütün əhali qrupları üçün səmərəli məşğulluğa və layiqli əməyə nail olunmalı, xüsusilə qadınların iqtisadi imkanlara çıxışı yaxşılaşmalıdır... İqtisadiyyatın davamlı inkişafı gəlirlərin ədalətli bölgüsünü təmin etməli, əhalinin aşağıgəlirli təbəqəsinin sosial-iqtisadi rifahını artırmalıdır".

"Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" bir daha təsdiqləyir ki, ölkə əhalisinin bütün təbəqələri cəmiyyətin ayrılmaz hissəsidir və dövlət onların qayğısına qalır. Ölkədə yoxsulluq səviyyəsinin minimuma endirilməsi və aşağı işsizlik səviyyəsi, eləcə də yoxsul təbəqənin ehtiyaclarının qarşılanmasına yönələn ünvanlı yardımların əhatə dairəsinin genişləndirilməsi vətəndaşların sosial müdafiəsinə əlavə imkanlar yaradır.

Deyilənlərə bir neçə fakt və rəqəmi də əlavə etmək istərdik. Belə ki, 2018-2025-ci illərdə icra olunan, 4 milyondan çox vətəndaşı əhatə edən, illik əlavə olaraq 7,6 milyard manat vəsaitin ayrıldığı 5 sosial islahat paketi nəticəsində minimum pensiya 3 dəfəyə yaxın artırılaraq 110 manatdan 320, minimum əməkhaqqı 3,1 dəfə artırılaraq 130 manatdan 400 manata yüksəlib. Bu dövrdə orta aylıq pensiya 208 manatdan 540 manata (o cümlədən yaşa görə orta aylıq pensiya 234 manatdan 576 manata), orta aylıq əməkhaqqı 545 manatdan 2025-ci il noyabrın 1-nə olan tarixə 1086,3 manata çatıb.

Bütün bunlar bir daha göstərir ki, dövlətimizin siyasətinin mərkəzində vətəndaşın maraqları, sosial rifahı dayanır. Dövlət başçısının həyata keçirdiyi sosial-iqtisadi islahatların uğurunu insanların yaşayışına aid bütün sahələrdə - məşğulluq probleminin həllində, maaşların və pensiyaların artırılmasında, səhiyyə və təhsildə, sosial infrastrukturda, digər istiqamətlərdə reallaşdırılan çoxsaylı layihələrdə aydın görmək mümkündür. Bu işlərə vaxtilə Ulu Öndər Heydər Əliyev başlamış və onlar Prezident İlham Əliyev tərəfindən ardıcıllıqla, böyük müvəffəqiyyətlə davam etdirilməkdədir. Azərbaycanda, əslində, qısa zaman kəsiyində yoxsulluğun səviyyəsinin 50 faizdən təxminən 5 faizə enməsi bax, belə çoxşaxəli tədbirlər sayəsində mümkün olub.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Azərbaycan və Gürcüstanın dəniz limanları arasında əməkdaşlıq dərinləşir

**Azərbaycanla Gürcüstan arasında iqtisadi əlaqələr yüksək səviyyədədir. Qonşu və dost ölkəyə qoyulan xarici sərmayədə Azərbaycan ilk sıralardadır. "Əsrin müqaviləsi"ndən sonra Avropaya ünvanlanan bütün boru kəmərlərimiz Gürcüstanın ərazisindən keçir və bu baxımdan Gürcüstanı Azərbaycanın Avropaya açılan iqtisadi qapısı hesab etmək olar.**

Gürcüstan həmçinin Azərbaycanla beynəlxalq ticarət marşrutu olan Orta dəhlizdə sıx əməkdaşlıq edir, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta dəhliz) üzrə üç təsisçi ölkədən biridir. Orta dəhlizin yaranmasında Azərbaycan, Qazaxıstan və Gürcüstan səylərini birləşdirərək mühüm tranzit ölkələrə çevriliblər. Yeri gəlmişkən xatırladaq ki, Orta dəhlizboyu Gürcüstandan keçən dəmir yolu xətlərinin yenidən qurulması üçün vəsaiti olmadığından dost ölkəyə Azərbaycan simvolik faizlə kredit vermişdir. Üstəlik həmin xəttin yeni tələblərə uyğun modernləşdirilməsini də Azərbaycan həyata keçirmişdir.





Orta dəhlizin səmərəliliyinin artırılmasında vahid tarif sistemi önəmli rol oynayır. Yükgöndərənlə yük qəbul edən tərəflər məhz vahid tarifin tətbiqi nəticəsində gəlirlərini müəyyən edə bilirlər. O üzdən dəhliz ölkələrinin həmin istiqamətdə razılaşması çox vacibdir. Vahid tarifin tətbiqində təşəbbüsçü kimi Azərbaycan çıxış etmiş, Qazaxıstanla yanaşı, Gürcüstan da ölkəmizin mövqeyini dəstəkləmişdir.

Gürcüstan həm Azərbaycanın, həm də Mərkəzi Asiya ölkələrinin dünya dənizlərinə çıxışını təmin edən limanlara malikdir. Bu yaxınlarda ADY nümayəndələri limanlar üzərindən yükaşırmanın imkanlarını öyrənmək üçün Gürcüstanda olmuşlar. Limanların fəaliyyəti ilə tanış olan ADY nümayəndə heyətinə Qara dənizdə strateji mövqeyə malik Batumi və Poti limanlarının çoxsaylı yük növlərinin emalı baxımından aparıcı infrastruktura malik olması barədə məlumat verilmişdir.

ADY sədri Rövşən Rüstəmov bildirib ki, Azərbaycanda dəmir yolu-liman əməliyyatları artıq vahid idarəetmə prinsipi əsasında təşkil edilir. Ötən il Bakı Beynəlxalq Dəniz Limanının ADY-yə uğurla inteqrasiyası limanın yükaşırma nəticələrinə də müsbət təsir göstərib. 2025-ci ildə Bakı limanında rekord həcmdə - 107 min TEU-dan çox konteyner yükü aşırılıb ki, bu da 2024-cü illə müqayisədə 40 faiz artım deməkdir.

Görüşlərdə Bakı və Gürcüstan limanları arasında əməkdaşlığın dərinləşdirilməsi və təcrübə mübadiləsinin Orta dəhliz üzrə artan yükdaşımaların daha da səmərəli həyata keçirilməsinə imkan verəcəyi vurğulanmışdır.

Dəmiryolçularımız gürcüstanlı həmkarları ilə Poti limanında "Azərbaycan Dəmir Yolları" QSC (ADY) və "Gürcüstan Dəmir Yolları" SC-nin rəhbər heyətlərinin iştirakı ilə Poti-Bakı ekspres blok-qatarının yola salınması mərasimində də iştirak etmişlər. Tədbirdə yeni ekspres qatarının işə salınmasının əhəmiyyəti qeyd olunmuş və bildirilmişdir ki, bu xidmət sayəsində yük sahibləri təkcə vaxtlarına deyil, terminalda yük və boş konteynerlərin saxlanması kimi xərclərə də qənaət edə biləcəklər.

Poti-Bakı marşrutu üzrə işləyəcək blok-qatar Qara dəniz limanlarını Azərbaycanın liman və terminalları ilə birləşdirəcək. Bu anlaşma həmçinin yük sahiblərinə Potidən Bakıya və geriyə müəyyən edilmiş vaxtlarda, heç bir gecikmə olmadan konteynerlər əldə etməyə imkan verən sadələşdirilmiş logistika xidmətidir.

Onu da qeyd edək ki, ADY BTQ xəttinin Gürcüstandan keçən və mürəkkəb coğrafi relyefə malik 184 kilometrlik hissəsində təmir-bərpa və modernləşdirmə işlərini uğurla yekunlaşdırıb və nəticədə xəttin illik yükötürmə qabiliyyəti 1 milyon tondan 5 milyon tona çatıb. Bu dəmir yolu xəttinin modernləşdirilməsinin əsas məqsədi Orta dəhlizin rəqabət qabiliyyətini artırmaq və BTQ-ni dəhlizin əsas yükdaşıma arteriyalarından birinə çevirməkdir.

Azərbaycanın apardığı logistika siyasətinin və qonşu ölkələrlə qurduğu əməkdaşlığın nəticəsidir ki, ADY 2025-ci ildə 392 blok-qatar qəbul edib. Bu, 2024-cü ilin göstəricisi (287 blok-qatar) ilə müqayisədə 37 faiz çoxdur. Ümumilikdə ötən il 135 300 TEU konteyner (2024-cü ilin göstəricisindən (114 min TEU) təxminən 19 faiz çox) yük daşınıb.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Dövlət maliyyə vəsaitlərinin hərəkəti real vaxt rejimində izləniləcək

**"Rəqəmsal Dövlət Maliyyəsi" İnformasiya Sisteminin yaradılması ölkə iqtisadiyyatının dayanıqlı və effektiv inkişafı baxımından mühüm institusional və texnoloji istiqamətlərdən biri kimi çıxış edir". Bunu AZƏRTAC-a açıqlamasında iqtisadçı-ekspert Aslan Əzimzadə söyləyib.**

İqtisadçının sözlərinə görə, bu sistem dövlət maliyyəsinin idarə olunması prosesində şəffaflığın artırılmasını, resurslardan istifadənin səmərəliliyinin yüksəldilməsini və maliyyə nəzarətinin rəqəmsal əsaslar üzərində formalaşdırılmasını təmin edən bir sıra funksional altsistemləri özündə birləşdirir: "Bu altsistemlər vasitəsilə dövlət maliyyə vəsaitlərinin hərəkətinin real vaxt rejimində izlənilməsi, risklərin vaxtında identifikasiyası, həmçinin maliyyə intizamının gücləndirilməsi mümkün olacaq. Məlum olduğu kimi, iqtisadi inkişafın əsas məqamlarından biri kapitalın səmərəlilik səviyyəsinin yüksəldilməsidir. Bu kontekstdə dövlət büdcəsi vəsaiti hesabına ayrılan kreditlərin və maliyyə resurslarının xərclənməsinə effektiv nəzarət mexanizmlərinin formalaşdırılması həmin vəsaitlərin təyinatı üzrə istifadəsini təmin etməklə yanaşı, hesabatlılığın və institusional şəffaflığın daha da dərinləşməsinə şərait yaradacaq.

Digər tərəfdən, bu sistem fiziki və hüquqi şəxslərlə qarşılıqlı münasibətlərin operativliyinin artırılmasını, inzibati prosedurların sadələşdirilməsini və proseslərin optimallaşdırılmasını təmin edəcək. Bütün maliyyə əməliyyatlarının vahid informasiya platforması üzərindən həyata keçirilməsi dövlət-vətəndaş-biznes münasibətlərində çevikliyi artırmaqla yanaşı, vaxt və resurs itkilərinin minimuma endirilməsinə, eləcə də qərar qəbuletmə proseslərinin daha əsaslandırılmış və analitik yanaşma üzərində qurulmasına imkan verəcək".

Xatırladaq ki, Prezident İlham Əliyevin 2026-cı il yanvarın 26-da imzaladığı fərmanla "Rəqəmsal Dövlət Maliyyəsi" İnformasiya Sisteminin Əsasnaməsi təsdiq edilib.

## Ötən il Dövlət Məşğulluq Agentliyi tərəfindən 72,6 min gənc işlə təmin edilib, 2500 gənc üçün kiçik bizneslər qurulub

**Dövlət məşğulluq siyasətinin mühüm istiqamətlərindən biri də gənclərin əmək bazarına inteqrasiyasının dəstəklənməsi, məşğulluğunun təminatıdır.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən bu istiqamətdə aparılan işlərin davamı olaraq, ötən il daha 72,6 min gənc münasib işlərlə təmin edilib.

Özünüməşğulluq proqramı gənclərin də kiçik sahibkarlığa çıxışında mühüm rola malikdir. Son bir ildə bu proqram çərçivəsində daha 2500 gəncə aktivlər verilməklə onlar üçün müxtəlif iqtisadi fəaliyyət sahələri üzrə kiçik bizneslər qurulub. 9500-dək gənc isə agentliyin peşə hazırlığı kurslarına cəlb edilərək müasir əmək bazarının tələblərinə uyğun peşələrə yiyələnib.

Gənclərin müasir əmək bazarında tələb olunan peşələr barədə məlumatlı olmalarına, düzgün peşə seçiminə dəstək göstərilməsi də diqqətdə saxlanır. Ötən il bu məqsədlə böyük əksəriyyəti gənclər olan 343 min şəxs peşəyönümü xidmətlərlə əhatə olunub.

Habelə paytaxt və bölgələrimizdə gənclərin düzgün peşə seçiminə, onların karyera istiqamətində doğru addım atmalarına dəstək olmaq məqsədilə "Peşə öyrən, gələcəyini qur!" devizi ilə "PeşəFest" tədbirləri uğurla davam etdirilib. Gənclərin məşğulluğunun təminatına dəstək üçün agentlik Bakı və bölgələrdə gənclər üçün vebinarlar, konfranslar, karyera sərgiləri və yarmarkalar təşkil edir, "Alo karyera" dəstək xidməti fəaliyyət göstərir. Gənclər bu tədbirlərdə karyera planlaması, düzgün ixtisas/peşə seçimi, iş axtarışı yolları, CV, istək məktubunun hazırlanması, müsahibəyə hazırlıq və s. mövzular üzrə məlumatlandırılır.

Son illərdə Dövlət Məşğulluq Agentliyi və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin birgə dəstəyi ilə "Səyyar kofe evləri" layihəsi də icra olunub ki, layihə çərçivəsində barista sahəsində çalışmaq istəyən gənclər üçün səyyar kofe satışı üzrə kiçik bizneslər qurulub.

## Binalarda enerji səmərəliliyinə dair Türkiyə təcrübəsi öyrənilir

**Azərbaycan-Türkiyə Enerji Forumunun Enerji səmərəliliyi üzrə İşçi qrupu çərçivəsində Binalarda Enerji Effektivliyi İnformasiya Sisteminin (BEEİS) yaradılması istiqamətində təcrübənin öyrənilməsi məqsədilə Azərbaycan nümayəndə heyəti Ankarada səfərdə olub.**

Səfər çərçivəsində Azərbaycanın Energetika və Fövqəladə Hallar nazirliklərinin nümayəndələri ilə Türkiyənin müvafiq qurumları arasında bir sıra görüşlər keçirilib. Görüşlərdə Türkiyənin Ətraf Mühit, Şəhərsalma və İqlim Dəyişikliyi Nazirliyi və Enerji və Təbii Sərvətlər Nazirliyi ilə binaların enerji səmərəliliyi üzrə pasportlaşdırılması sisteminin formalaşdırılması və mövcud rəqəmsal həllərə dair geniş müzakirələr aparılıb.

Türkiyənin Ətraf Mühit, Şəhərsalma və İqlim Dəyişikliyi Nazirliyi ilə görüşlər zamanı binalarda enerji səmərəliliyinə dair hüquqi-normativ baza, enerji effektivliyi göstəricilərinin hesablanması metodologiyası və enerji effektivliyi informasiya sisteminin işləmə mexanizmi təqdim edilib. Ankara Memarlar Assosiasiyası ilə keçirilən görüşdə enerji effektivliyi pasportunun tərtibatçıları üçün təlimlərin təşkili və sertifikasiya prosesi barədə məlumat mübadiləsi aparılıb.

Altındağ Bələdiyyəsi ilə görüşlər çərçivəsində layihəçilər və tərtibatçılar tərəfindən hazırlanan texniki parametrlər, onların qiymətləndirilməsi və tətbiqi mexanizmləri müzakirə olunub. Eyni zamanda "Eltemtek" şirkəti ilə enerji səmərəliliyi sahəsinə investisiya cəlbi (Enerji Servis Şirkəti (ESCO) modeli), enerji auditi və binaların pasportlaşdırılması üzrə təcrübə və yanaşmalar ətrafında fikir mübadiləsi aparılıb.

Bundan əlavə, Türkiyənin Enerji və Təbii Sərvətlər Nazirliyi ilə ESCO və Super ESCO modellərinin tətbiqi, enerji menecerləri institutu, eləcə də enerji səmərəliliyi fəaliyyətlərinin idarə olunmasının rəqəmsallaşdırılması təcrübəsi müzakirə edilib.

Səfər zamanı əldə olunan təcrübə və müzakirə nəticələrinin Azərbaycanda BEEİS-in yaradılması və binaların enerji səmərəliliyi üzrə pasportlaşdırma mexanizminin formalaşdırılmasına töhfə verəcəyi gözlənilir.

I Türkoloji Qurultay - 100

# Terminologiya: ideoloji mübarizənin əsas cəbhələrindən biri



**Ötən əsrin əvvəllərində terminologiya sahəsi ideoloji mübarizənin əsas cəbhələrindən birinə çevrilmişdi. Türk xalqları arasında vahid terminoloji sistem mövcud deyildi. Azərbaycan ədəbi dilində milli terminlərin formalaşması XIX əsrin ikinci yarısına təsadüf edir və həmin dövrədək elmi terminlərin böyük qismi ərəb mənşəli olmuş və tərcümə əsərlərində əsasən orijinaldakı kimi saxlanılmışdır.**

Terminologiya sistemlərində ərəb və fars mənşəli sözlərin say dinamikası isə Azərbaycan dilinin keçdiyi mürəkkəb tarixi proseslərlə üzvi surətdə bağlı olmuşdur. Azərbaycan milli dilinin təşəkkülü mərhələsinədək elmi üslubun əsas terminoloji mənbə rolunu oynayan ərəb və fars sözlərinin ictimai zərurət baxımından əhəmiyyətini nəzərə alan I Ümumittifaq Türkoloji Qurultay dilimizin normalarına uyğunlaşaraq mənimsənilmiş bu sözlərin seçmə yolu ilə istifadəsini məqsədəuyğun hesab etmişdir. Bu yanaşmanın nəticələri bu gün də öz təsdiqini tapmaqdadır.

XX əsrin əvvəllərindən etibarən Azərbaycan dilinin ictimai və kommunikativ funksiyası genişlənmiş, ictimai həyatda baş verən dəyişikliklər, eləcə də elm və mədəniyyətin inkişafı dilin lüğət tərkibinə və sözlərin semantikasına ciddi təsir göstərmişdir. Yeni ictimai-siyasi şəraitin formalaşması ilə əlaqədar sözalma mənbələri də dəyişmiş, meydana çıxan yeni anlayışları ifadə etmək üçün çoxsaylı yeni söz və terminlər yaranmış, bəzi leksik vahidlər isə arxaikləşərək dildən çıxmış və ya yeniləri ilə əvəz olunmuşdur. Ötən əsrin ilk onilliklərinədək ərəb və fars dilləri yeganə terminoloji mənbə funksiyasını tam itirmiş, kəmiyyət və keyfiyyət baxımından yeni anlayışların ifadəsi üçün rus və Qərbi Avropa dillərindən alınmış terminlərdən istifadə edilməyə başlanılmışdır. Bununla belə, rus və müasir Avropa dillərinin terminoloji təsirinə baxmayaraq, ərəb və fars mənşəli terminlər Azərbaycan dilinin terminologiya sistemində mövqelərini qoruyub saxlamış və müəyyən mənada bünövrə xarakteri daşımağa davam etmişdir.

Terminoloji sistemdə ərəb və fars mənşəli sözlərə ikili münasibət yaranmışdı. Bəzi tədqiqatçılar dilimizin qrammatik qaydalarına uyğun gəlməyən mürəkkəb, digərləri isə hətta artıq mənimsənilərək "vətəndaşlıq hüququ" qazanmış ərəb və fars mənşəli söz və terminlərin dilimizdən tamamilə çıxarılmasını təklif etmişlər. Məsələn, F.Ağazadə "Türkcəni zənginləşdirmək yolları" adlı məqaləsində ərəb və fars sözlərinin əleyhinə olduğunu açıq şəkildə bildirir və onların "türkləşdirilməsi üsulları"nı göstərir. Bu üsulların səmərəsiz olduğu hallarda digər tədbirlərin görülməsini təklif edərək yazırdı: "Əvvəla, türkləşə bilməyən kəlmələrin əski türkcəsi varsa, həmin əski kəlmələri tapıb canlandırmalı; ikincisi, hərgah türkləşə bilməyən kəlmələrin əski türkcəsi yoxdursa, başqa türk şivələrindən qarşılıqlarını almalı". Beləliklə, termin yaradıcılığı sahəsində purizm adlanan və dilin lüğət tərkibinin zənginləşməsi və təkmilləşməsinə müəyyən təsir göstərən ziddiyyətli bir cərəyan formalaşmışdır.

Puristlər ərəb və fars mənşəli terminlərə birtərəfli yanaşır, Azərbaycan terminologiyasında mövcud nöqsanların aradan qaldırılmasının əsas yolunu bütün bu sözlərin dildən çıxarılmasında və onların yerinə hər vəchlə qarşılıqlar qoyulmasında, yaxud sözlərin sonluqlarının Azərbaycan dilinə uyğunlaşdırılmasında görürdülər. Bu yanaşmanın konkret nümunələrini 1922-ci ildə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi yanında təşkil olunmuş İstilah Komissiyasının hazırladığı lüğətlərdə müşahidə etmək mümkündür. "Maarif və mədəniyyət" jurnalının 1923-cü il 3-cü sayında Ə.Cövdət İstilah Komissiyasının ərəb və fars mənşəli terminləri dilimizdən tamamilə çıxarmaq prinsipinə əsaslanan terminoloji lüğətlərə tənqidi mövqedən yanaşmışdır. Termin yaradıcılığında purizmin zərərli bir hadisə olduğunu göstərən B.Çobanzadə isə "Türkcə sərf və nəhv istilahları" adlı məqaləsində "Əcəba, Azəri türk sərf və nəhvində hansı tədbirləri işlətməli?" sualına üç müxtəlif cavab təqdim edir: 1.Avropa terminlərini qəbul etmək; 2.Terminləri türk dilinin imkanları hesabına yaratmaq; 3.Əski ərəb terminlərini mümkün olduğu qədər sadələşdirərək müvəqqəti olaraq qoruyub saxlamaq. Əlbəttə, terminologiyamızın çətin anlaşılan ərəb və fars mənşəli sözlərdən təmizlənməsi və ədəbi dilin xalq danışıq dilinə yaxınlaşdırılması prosesində puristlərin xidmətlərini inkar etmək olmaz. Onların yaratdıqları terminlərin bir çoxu bu gün də aktiv işlənməkdədir: fırlanma, yığılma, durum, sıxac, tıxac, biçim, itki, bildiriş, görkəm, uduş və s.



I Ümumittifaq Türkoloji Qurultayda **Həbibulla Əbdürrəşid oğlu Odabaş (1891-1937)** məruzəsində purizmin müsbət cəhətlərinə toxunaraq qeyd edir ki, purizm ərəb və fars dillərinin qrammatik qanunlarının Azərbaycan dilinə təsirini zəiflətdi və bu dillərdən söz axınının qarşısını müəyyən dərəcədə aldı. Qeyd etmək lazımdır ki, Odabaş qurultaydakı bir çox məruzəçidən fərqli olaraq, ərəb və fars sözlərinə daha az mühafizəkar münasibət bildirmişdi.



**Artur Rudolfoviç Ziffeld-Simumyagi (1889-1939)** "Türk dillərində elmi terminologiyanın yaranma prinsipləri" mövzusunda etdiyi məruzədə ərəb və fars mənşəli terminlərə qarşı açıq şəkildə mənfi mövqe sərgiləyir. O, türkdilli xalqların elmi terminologiyasının formalaşmasında prinsiplərini, əsas ideyalarını aşağıdakı kimi ümumiləşdirir:

1. Elmi terminlərin qaynağı - türk dillərində elmi terminlər ya mövcud türk sözlərindən yaradılır, ya da xarici dillərdən götürülərək fonetik və morfoloji uyğunluq təmin edilir.
2. Fonetik uyğunluq - terminlər türk dilinin səs sisteminə uyğun olmalıdır ki, həm danışıqda, həm yazıda rahat istifadə olunsun.
3. Morfoloji uyğunluq - söz quruluşu və şəkilçilər türk dilinə uyğun seçilir, bununla da yeni terminlər dilin qanunlarına zidd olmur.
4. Dialektlərarası birlik - müxtəlif türk dialektlərində terminlərin oxşar formada olması qarışıqlığın qarşısını alır və elmi kommunikasiya üçün vacibdir.
5. Alınma sözlərin mənimsənilməsi - Avropa dillərindən və digər dillərdən alınan sözlər türk dilinin fonetik xüsusiyyətlərinə uyğunlaşdırılır.
6. Tarixi və mədəni amillər - terminologiya yaradılarkən həm dilin tarixi inkişafı, həm də milli-mədəni xüsusiyyətlər nəzərə alınır.

O, əksər türkdilli xalqların mühitində ədəbi dilə münasibətdə dörd əsas istiqaməti fərqləndirir və onları belə adlandırır: panislamistlər, avropalaşdırıcılar, pantürkçülər, xalqçılar (demokratlar). Bu dörd istiqamətə ictimai baxışdan yanaşmaq üçün həyatın digər sahələrində baş vermiş inqilabı və cəmiyyətin qarşısında duran mövcud vəzifələri nəzərə alır. Onun fikrincə, avropalaşdırıcılar - daha müasir, daha irəliyə getmək istəyən, daha inqilabçı insanlar, mədəniyyət ideallarını Orta əsr müsəlman dünyasında deyil, daha inkişaf etmiş xalqlarda axtarırlar.

Xalqa yaxın ədəbi dil yaratmaqda böyük kömək canlı xalq ləhcələrinin izahlı lüğətləri ola bilər; bu lüğətlərə dilçilərin rəhbərliyi altında, kənd müəllimlərinin iştirakı ilə söz materialı toplanmalıdır. Məsələn, anatomiya və tibb ilə bağlı terminlərin bir çoxu qəssablar, baytarlar və həkimlər tərəfindən tapıla bilər; aqronomluq və botanika terminləri fermerlər, bostançılar, bağbanlar tərəfindən; zoologiya - ovçular və balıqçılar tərəfindən və s. Əgər mürəkkəb anlayışları ifadə etmək üçün hazır sözlər yoxdursa, ən faydalı yol doğma dilin köklərindən söz yaratmaqdır, məsələn, demir - yol (dəmir yolu) nümunəsində olduğu kimi. Ərəbçilər tərəfindən gülünc hesab edilən yer-bil tipli terminləri rədd etmək lazım deyil, onları düzəltmək olar: yer-bilik - torpaqşünaslıq, yıldız-bilik - astronomiya, su-bilik - hidrologiya və s. Xalq dilinin dialekt zənginliklərindən tam istifadə edildikdən sonra belə bəzi boşluqlar qalacaq və onlar yalnız başqa dillərdən götürülməklə doldurula bilər.

Ərəb və fars sözlərinin əleyhinəyəm, hesab edirəm ki, bunlar yalnız dini irsdən qalmışdır, buna görə də türk dillərində yalnız dini anlayışları ifadə edən terminləri saxlamaq mümkündür. Məsələn, ərəb dilindən: "Allah", "şeytan", "molla", "axund", "namaz", "hacı"; fars dilindən: "dərviş", "abdəst" və s. Ümumi qayda olaraq, xarici dillərdən terminlər yalnız son çarə kimi götürülməlidir, yəni öz dilimizin bütün imkanları istifadə edildikdən sonra.

Ziffeld-Simumyaginin məruzə etdiyi prinsiplər klassik terminologiya nəzəriyyəsi ilə ümumən uzlaşır: daxili mənbələrə üstünlük verilir. Bu milli terminologiyaların formalaşdırılmasında təbii yanaşmadır. Dilin öz köklərindən yaradıcılıqla istifadə edilməsi həm dilin milliliyini qoruyur, həm də danışan üçün anlaşıqlığı artırır. Alınma terminlərin yerli dilin səs və söz quruluşuna uyğunlaşdırılması da istifadədə rahatlıq yaradır. Türk dillərinin yaxınlığı nəzərə alınarsa, ortaq terminoloji sahə yaratmaq elmi kommunikasiya üçün çox faydalıdır. Canlı dil materialı üzərində terminologiya qurmaq fikri çox sağlamdır, "yer-bilik", "su-bilik" kimi modellər məhz bu yanaşmanın məhsuludur - yəni termin birbaşa semantik şəffaflıq qazanır.

Məruzənin ən kəskin hissəsi ərəb və fars sözlərinə qarşı tutduğu mövqedir. O, burada iki böyük problem görür: 1) ideoloji mövqe. Terminologiyanın ideologiyalaşdırılması ilə elm dilinin mənbələrini sırf dini keçmişlə bağlayıb rədd etmək. Ərəb və fars elementləri təkcə dini sahə ilə məhdudlaşmır; fəlsəfə, məntiq, tibb, ədəbiyyat terminlərinin böyük hissəsi tarixən bu dillərdən keçmişdir. 2) real dil faktoru. Əksər türk xalqlarının ədəbi dilində ərəb və fars sözləri artıq "milliləşmiş"dir, onları süni şəkildə çıxarmaq həm sabitlik, həm də anlaşma baxımından parçalanmaya səbəb ola bilər. Ziffeld açıq şəkildə bildirir ki, ərəb və fars sözlərinin əleyhinədir, bunlar dini irsdən qalmışdır. Yəni ərəb və fars terminləri "standart mənbə" yox, yalnız fövqəladə ehtiyat variant kimi görülür: dilin öz leksik imkanlarına böyük önəm verir, türk dilləri üçün milli kimliyi gücləndirir. Ancaq ərəb və fars sözlərini təkcə dini miras adlandırmaq düzgün deyil, məsələn, "fəlsəfə", "məntiq", "ədalət", "mədəniyyət", "elm" kimi sözlər dini yox, mədəni-elmi terminlərdir, bunlar artıq xalqın dilində milliləşib, islam dünyasında elm yalnız dini deyil.

Ziffeldin təklif etdiyi modelə diqqət edək. 1-ci mərhələ türk dillərinin öz köklərindən termin yaratmaq. Məsələn, torpaqşünaslıq - yer-bilik, astronomiya - yıldız-bilik, hidrologiya - su-bilik və s. 2-ci mərhələ dialektlərdən söz tapmaq. 3-cü mərhələ ən sonda başqa dillərdən söz almaq. Bu məruzədə ən orijinal fikirlərdən biri budur ki, elmi terminləri yalnız alimlərdən yox, xalq içində olan konkret peşə sahiblərindən toplamaq lazımdır. O, konkret sosial qrupları sadalayır. Məqsəd xalq dilinə əsaslanan terminoloji sahə yaratmaq cəhdidir: xalq dilinin canlı resurs kimi qəbul edilməsi, terminologiyanın təcrid olunmuş elit sistemə çevrilməməsi, terminlərin təbiiliyini və işləkliyini artırması. Bu halda da bəzi problemlər ortaya çıxa bilər: xalq dilində bütün sahələr üçün terminoloji ifadələr yoxdur, terminlərin beynəlxalq uyğunluğu zəifləyə bilər, terminlər məişət yönümlü ola bilər, bu halda elmi dəqiqlik itkisi yarana bilər.

Ziffeld dil siyasətini panislamistlər, avropalaşdıranlar, pantürkçülər, xalqçılar cərəyanları ilə əlaqələndirir və özü avropalaşdıranlara daha yaxındır. Bu, ərəb və fars terminlərinə etirazının sırf dil deyil, həm də mədəni-siyasi mövqeyi ilə əlaqədar idi. Bu mövqe XX əsrin əvvəllərində geniş yayılmış modernist yanaşmadır: keçmişdən qopmaq və Qərb elm modelinə yaxınlaşmaq.

Məruzə elmi terminologiyanın milliləşdirilməsi üçün güclü və ardıcıl nəzəri çərçivə təklif edir, lakin ərəb-fars mənşəli sözlərə qarşı münasibəti ideoloji xarakter daşıdığı üçün obyektiv elmi mövqe sayıla bilməz. Ziffeldin məruzəsinin əsas müsbət tərəfi: milli dilə böyük hörmət, xalq danışıq dilinin dəyərini vurğulaması, terminologiyanın sistemli qurulmasını tələb etməsi, türk dilləri arasında birlik ideyası.

B.Çobanzadə elmi terminologiya sistemi ilə bağlı çıxış edir. Belə bir nəticəyə gəlir ki, Avropa xalqlarının dilində artıq vahid elmi terminologiya formalaşıb, buna görə də hər hansı bir sahənin mütəxəssisi digər millətlərin mütəxəssisləri ilə çətinlik çəkmədən ünsiyyət qura bilir. Həmin nəticələri verən əsas amillər bunlardır: elmi sistemin vahidliyi, sxolastik latın dili və Renessans dövrünün ortaq bazası Avropa xalqları arasında sıx əlaqə, onların Hind-Avropa dil ailəsinə mənsub olması. Avropa xalqlarının əsası vahid iqtisadiyyat və bu xalqların sıx əlaqəsidir, öz növbəsində ortaq elmi-mədəni dilin formalaşması ilə nəticələnir.

Türk dillərinin lüğəti üçün 3 ümumi baza mövcuddur. Birincisi, ümumtürk bazasıdır. Digər məsələlərdə biz türk dialektləri arasındakı fərqlilikləri müzakirə etmişik, lakin bu, yalnız dialektlər arasındakı münasibətləri və fərqləri müəyyən etmək üçün edilmişdir. Türk dialektləri arasında ortaq baza təşkil edən böyük material və minlərlə ortaq xüsusiyyət mövcuddur. Bu baza terminologiya hazırlanarkən nəzərə alınmalıdır. Hər hansı yolla dillərimiz bu baza ilə zənginləşsə də, bunu yalnız aqqlütinasiya və ya ahəng baxımından qiymətləndirmək olmaz. Bizdə ahəng və aqqlütinasiya, yəni təmiz türk dilinə xas xüsusiyyətlər ərəb və fars sözləri ilə pozulmuşdur. Dilimiz bu qarışmaları nəzərə alaraq, tamamilə təmiz türk dili deyildir və buna görə də o, aqqlütinasiya və ahəng qanunlarının əsas qaydalarına tam tabe olmur. Çuvaşlar və qismən yakutlar istisna olmaqla, onlar müsəlman olmasalar da, islamın təsirinə məruz qalan digər qohumları ilə yaxınlıq nəticəsində çoxlu Avropa, ərəb və fars sözünə sahib olmuşlar. Fars və ərəb mənşəli sözlər əsasında başqa baza mövcuddur. Məsələn, Əlişir Nəvai, eləcə də XV-XVI əsrlərin istənilən osmanlı klassiklərinin (Baki, Nəbiya və Nadimi və b.) terminologiyasında olan ərəb və fars sözləri sayəsində dilləri oxşardır və bizim üçün başadüşüləndir.

Terminologiya hazırlanarkən diqqət yetirilməli üçüncü ümumi baza isə elmi anlayışların, konsepsiyaların, terminlərin qəbulunda Avropa istiqamətidir. Heç bir xalq, hətta Çin sərhədlərində olsa belə Şərqə deyil, Qərbə yönəlir. Yaponiya çox təcrid olunmuşdur və Uzaq Şərq türk tayfalarına təsir göstərə bilməz. Yakutlardan başlayaraq, Avropa mədəniyyətinə, sivilizasiyasına yönəlmişik, bu da ümumi bazadır.

Terminlərin iki mənası var: elmi və pedaqoji. Terminlər olmadan məktəblərdə dərs deyə və elmi kitablar yaza bilmərik. Terminlərlə biz yalnız öz elmi vəziyyətimiz və mədəni şəraitimizi nəzərə alaraq pedaqoji tərəfə yönələ bilərik, çünki bir neçə ildən sonra artıq 3-cü pillə, yəni ali məktəblər üçün terminlərin yaradılması zəruri olacaq. Mən belə bir mövqedən çıxış edirəm, hələlik elmi tərəfi saxlayaq, pedaqoji tərəf bütün elmi əhəmiyyətli məsələləri əhatə edir. Elmi terminologiya hər anlayış üçün ayrı bir söz tələb edir, sözlərin bir-biri ilə qarışdırılmaması vacibdir. Terminologiya yaradılarkən yerli dillərə, xüsusən də onların fonetik formalarına, yəni sözlərin tələffüzü və morfologiyasına diqqət yetirilməlidir. Bütün türk xalqları elmi terminologiyanın yaradılmasına və Avropa klassik ədəbiyyatına keçidə hazırlaşmalıdır. Bunun üçün əsasları götürməliyik: müsəlman, ərəb-fars, ümumtürk və Avropa bazaları. Avropa terminləri üçün isə vahid mənbəyə yönəlmək lazımdır: məsələn, yunan əsasında termin alınacaqsa, bütün türk xalqları onu yunan formasında qəbul etməlidir.

*(Ardı var)*

***Nadir MƏMMƏDLİ,***
***AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor***

# Azərbaycan-Türkiyə münasibətləri regional sabitliyin və strateji inteqrasiyanın əsas dayağıdır

**"Azərbaycan ilə Türkiyə arasında son illərdə müşahidə olunan siyasi və iqtisadi yaxınlaşma klassik ikitərəfli əməkdaşlıq çərçivəsindən çıxaraq regional və qlobal miqyasda strateji əhəmiyyət daşıyan müttəfiqlik modelinə çevrilib".**

Bunu AZƏRTAC-a açıqlamasında türkiyəli siyasi ekspert Cafer Dal bildirib. Ekspertin fikrincə, iki ölkə arasında münasibətlərin əsasını qarşılıqlı etimad, ortaq tarixi-mədəni dəyərlər və milli maraqların uzlaşdırılması təşkil edir. O bildirir ki, "Bir millət, iki dövlət" konsepsiyası artıq praktiki siyasətdə konkret mexanizmlərlə təsdiqlənən institusional əməkdaşlıq formatıdır. Onun sözlərinə görə, Türkiyənin Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə verdiyi birmənalı dəstək ikitərəfli münasibətlərin strateji xarakterini müəyyən edən əsas amillərdəndir.

"2021-ci ildə imzalanmış Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə münasibətlərini rəsmi müttəfiqlik səviyyəsinə yüksəldərək regional təhlükəsizlik və siyasi koordinasiya baxımından yeni mərhələ yaradıb. Bakı və Ankara regional proseslərdə eyni mövqedən çıxış edir. Bu koordinasiya Cənubi Qafqazda davamlı sülhün və sabitliyin formalaşmasına mühüm töhfə verir. Azərbaycan-Türkiyə iqtisadi əlaqələrinin əsas dayaqlarından biri enerji sahəsində həyata keçirilən strateji layihələrdir. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və TANAP layihələri iki ölkəni Avropanın enerji təhlükəsizliyində mühüm tərəfdaşlara çevirib. Qarşılıqlı investisiyaların artması, sənaye və infrastruktur layihələrində birgə iştirak iqtisadi münasibətlərin daha da şaxələndirilməsinə imkan yaradır. Türkiyə şirkətlərinin Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma prosesində fəal iştirakı iqtisadi əməkdaşlığın yeni mərhələyə keçdiyini göstərir," - deyə o əlavə edib.

Ekspert Zəngəzur dəhlizini Azərbaycan-Türkiyə münasibətlərinin gələcək inkişafında açar layihə kimi qiymətləndirir. Onun sözlərinə görə, bu nəqliyyat-kommunikasiya xətti Türkiyəni birbaşa Azərbaycanla, oradan isə Orta Asiya ilə birləşdirərək Türk dünyası daxilində iqtisadi və logistika inteqrasiyasını gücləndirəcək: "Zəngəzur dəhlizi yalnız ikitərəfli deyil, regional əməkdaşlıq baxımından da strateji əhəmiyyətə malikdir".

# Qahirədə "Misir ədəbiyyatı Azərbaycan şərqşünaslığının güzgüsündə" mövzusunda seminar keçirilib



**Azərbaycanın Qahirədəki səfirliyinin təşəbbüsü və təşkilatçılığı ilə 57-ci Qahirə Beynəlxalq Kitab Sərgisi çərçivəsində "Misir ədəbiyyatı Azərbaycan şərqşünaslığının güzgüsündə" mövzusunda seminar təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, "Fəxri qonaq" zalında keçirilən tədbirdə azərbaycanlı tədqiqatçı Nigar Bakıxanovanın müəllifi olduğu "Əhməd Şövqinin dramaturgiyası" adlı kitabın ərəb dilinə tərcüməsi müzakirə edilib.

Müzakirədə Azərbaycanın Misirdəki səfirliyinin ikinci katibi Emin Yusifzadə, Qahirə Universitetinin professoru, Azərbaycan icmasının rəhbəri tədqiqatçı-alim Seymur Nəsirov, keçmiş SSRİ ölkələri üzrə ekspert Əhməd Abdoh Tarabik, eləcə də kitabın ərəb dilinə tərcüməçisi, rus ədəbiyyatı üzrə mütəxəssis professor Məhəmməd Nəsrəddin Cəbali iştirak ediblər.

Seymur Nəsirov çıxışında qeyd edib ki, sovet dövründə tətbiq edilən ideoloji məhdudiyyətlərə baxmayaraq, Azərbaycan cəmiyyətində ərəb dilinə və şərq elmlərinə maraq qorunub saxlanılıb. O bildirib ki, ərəb dili islam mədəniyyəti ilə sıx bağlıdır, Azərbaycan ziyalılarının bu dilə olan marağı ən çətin dövrlərdə belə saxlanıb.

S.Nəsirov vurğulayıb ki, sovet dövründə Ələsgər Məmmədov, Vasim Məmmədəliyev, Ziya Bünyadov və Aidə İmanquliyeva kimi görkəmli alimlər ərəb dili və ədəbiyyatı sahəsində mühüm elmi irs yaradıblar. O, bu gün də Azərbaycanda ərəb dilinə marağın artdığını, bir sıra ali təhsil müəssisələrinin Şərqşünaslıq fakültələrində bu dilin tədris olunduğunu, artan turist axını fonunda ərəb dili mütəxəssislərinə ehtiyacın yüksəldiyini diqqətə çatdırıb.

Əhməd Abdoh Tarabik çıxışında kitabın əhəmiyyətini vurğulayaraq bildirib ki, Nigar Bakıxanovanın tədqiqatı yalnız Əhməd Şövqinin yaradıcılığının təhlili deyil, eyni zamanda ərəb mühacirət ədəbiyyatına Azərbaycan elmi baxışının təqdimatıdır. O qeyd edib ki, Azərbaycan Şərqlə Qərbin qovuşuğunda yerləşdiyi üçün özünəməxsus mədəniyyət formalaşdırıb. Azərbaycan ədibləri, ziyalıları dövrün mühüm dillərində yazıb yaradıblar. Bununla da öz növbəsində mədəniyyətlər arasında körpü rolunu oynayıblar.

Bildirilib ki, müəllif gənc yaşına baxmayaraq, Cübran Xəlil Cübran, İlya Əbu Madi və Mixail Nueymə kimi mühacirət ədəbiyyatının görkəmli nümayəndələrinin fəlsəfi dünyagörüşünü dərindən təhlil etməyə nail olub.

Kitabın tərcüməçisi Məhəmməd Cəbali çıxışında tərcümə prosesinin çətinliklərindən danışaraq qeyd edib ki, əsərdə ərəb dilindən rus dilinə çevrilmiş mətnlərin yenidən orijinal ərəbcəyə qaytarılması xüsusi elmi axtarış və mənbələrlə iş tələb edib. O vurğulayıb ki, Əhməd Şövqinin dramaturgiyası dünya ədəbiyyatında mühüm hadisədir.

Tədbirin sonunda Azərbaycan şərqşünaslıq məktəbinin Qafqazda yalnız dil deyil, eyni zamanda tarix, fəlsəfə, coğrafiya və mədəniyyətlərarası əlaqələrin inkişafında mühüm rol oynadığı qeyd olunub.

Tədbirin sonunda səfirliyin təşəbbüsü ilə ərəb dilinə tərcümə edilmiş kitab oxuculara hədiyyə edilib.

# REGİONLAR

## Ağsaqqallar Gənclər Gününü Gəncədə qeyd etdilər

**Gənclər Günü münasibətilə Gəncədə Azərbaycan Ağsaqqallar Şurasının "Gənclik enerjisinin və ağsaqqal müdrikliyinin vəhdəti güclü dövlətin və sağlam cəmiyyətin təminatıdır" mövzusunda regional konfransı keçirilmişdir.**

Konfransda Gəncə, Qazax, Şəmkir, Ağstafa, Daşkəsən, Gədəbəy, Samux, Tovuz, Göygöl, habelə Kəlbəcər və Cəbrayıl rayonları Ağsaqqallar şuralarının və gənclər təşkilatlarının rəhbərləri və üzvləri, ağsaqqallar, ziyalılar, şəhid valideynləri, həmçinin ADAU-nun, Gəncə Dövlət və Azərbaycan Texnologiya universitetlərinin, o cümlədən kolleclərin müəllim və tələbələri iştirak etmişlər.



Torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edildikdən sonra Azərbaycan Ağsaqqallar Şurasının sədr müavini Bayram Yusifov çıxış edərək gəncləri 2 Fevral - Gənclər Günü münasibətilə təbrik etmiş və Ulu Öndər Heydər Əliyevin başladığı və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi gənclər siyasətinin uğurlarından danışmışdır. Qeyd etmişdir ki, qəhrəman gənclərimiz Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində yüksək döyüş əzmi, cəsarət və vətənpərvərlik nümayiş etdirərək Azərbaycanın Zəfər salnaməsini yazmışlar. Natiq həmçinin Azərbaycan Ağsaqqallar Şurası üzvlərinin gənclərimizin sağlam, xoşbəxt və uğurlu gələcəyi üçün gənc nəslin maarifləndirilməsində, vətənpərvərlik ruhunda və milli-mənəvi dəyərlərə bağlı sağlam şəkildə yetişdirilməsində yaxından iştirak etdiklərini, onların cəmiyyət üçün layiqli vətəndaşlar olaraq formalaşmasında bilik və bacarıqlarını əsirgəmədiklərini diqqətə çatdırmışdır.

Sonra Gəncə Şəhər İcra Hakimiyyətinin sektor müdiri Yadigar Bədəlov, ADAU-nun tədris işləri üzrə prorektoru Əhməd Məlikov, Gəncə-Daşkəsən Regional Gənclər və İdman İdarəsinin rəisi Elşən Hüseynov, Gəncə Şəhər Ağsaqqallar Şurasının sədri, professor Nurəddin Məmmədov, Gəncə Tibb Kollecinin direktoru Mehman Rzayev, şəhid anası Nigar Məmmədova və gənclər təşkilatlarının nümayəndələri çıxış edərək mövzu ətrafında fikirlərini səsləndirmişlər.

***S.YUNİSOĞLU,***
***"Azərbaycan"***

## Keçən il Ağstafada orta aylıq əməkhaqqı 8,7 faiz artıb

**2025-ci il ölkəmizin həyatında dövlət suverenliyinin möhkəmlənməsi, hüquqi dövlət quruculuğunun dərinləşməsi və ölkəmizin beynəlxalq nüfuzunun daha da artması baxımından xüsusi əhəmiyyət kəsb edən növbəti il kimi yadda qalmışdır. Ölkəmizin sosial-iqtisadi inkişafında əldə olunan nailiyyətlər, regionların tarazlı inkişafı, azad edilmiş ərazilərin dirçəldilməsi - davam etməsi ötən ilin yaddaqalan hadisələridir.**

Bu fikirlər Ağstafada keçirilən 2025-ci ilin yekunları və qarşıda duran vəzifələrə həsr edilmiş hesabat yığıncağında səsləndirilmişdir. Hesabat məruzəsi ilə çıxış edən rayon icra hakimiyyətinin başçısı Seymur Orucov demişdir ki, dövlət başçısının regionların inkişafına göstərdiyi yüksək diqqət və qayğının, həyata keçirdiyi uğurlu iqtisadi islahatların nəticəsidir ki, keçən il də Ağstafada infrastruktur yenilənmiş, abadlıq-quruculuq və yaşıllaşdırma işləri geniş vüsət almış, sakinlərin rahatlığının təmin edilməsi istiqamətində xeyli tədbirlər görülmüşdür: "2025-ci ildə ölkəmizin sosial-iqtisadi inkişafı davam etmiş, qeyri-neft sektorunun, sahibkarlığın dəstəklənməsi, yeni istehsal və xidmət sahələrinin yaradılması iqtisadiyyatın şaxələndirilməsini sürətləndirmişdir. Həmçinin infrastruktur layihələri gerçəklənmiş, əhalinin məşğulluğu və sosial rifahının yüksəldilməsi istiqamətində ardıcıl və məqsədyönlü addımlar atılmışdır".



Ötən il rayon üzrə ümumi məhsul buraxılışının dəyərinin 248 milyon 274 min, o cümlədən istehsal edilən sənaye məhsullarının dəyərinin 24 milyon manat olduğunu deyən məruzəçi orta aylıq nominal əməkhaqqının 8,7 faiz artaraq 658 manata çatdığını bildirmişdir. Ağstafanın iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. 2025-ci ildə rayon üzrə istehsal edilən kənd təsərrüfatı məhsullarının dəyəri 130 milyon manat olmuşdur. Keçən il rayon üzrə 16084 hektarda kənd təsərrüfatı bitkiləri əkilmiş və 26272 ton məhsul istehsal edilmişdir. Rayonda 2026-cı ilin məhsulu üçün müxtəlif növ kənd təsərrüfatı bitkilərinin payızlıq əkini aparılmış, artıq 9720 hektarda şum qaldırılmış və 8187 hektar taxıl səpini aparılmışdır.

Bütün regionlarda olduğu kimi, Ağstafada da abadlıq, quruculuq və yenidənqurma işləri davam etmişdir. Ağstafa şəhərinin abadlaşdırılması, küçə və meydanların yenidən qurulması, çoxmənzilli yaşayış binalarının təmiri hesabına rayon mərkəzi simasını dəyişmişdir.

2025-ci ildə əhalinin elektrik enerjisi ilə təminatı da yaxşılaşmışdır. İl ərzində yararsız 36 dayaq yenisi ilə əvəz edilmiş, 6 kilometr yeni SİP kabel xətti çəkilmiş və 720 yeni metal dayaqlar quraşdırılmışdır. Müxtəlif gücə malik 22 transformator əsaslı, 40 transformator isə cari təmir olunaraq istismara verilmişdir. Təbii qaz təminatına gəldikdə, Ağstafa şəhərində, Xətai, Yenigün kəndlərində abonentlərin qaz təchizatını gücləndirmək və onları fasiləsiz təbii qazla təmin etmək üçün diametri 159 millimetr olan qaz xəttində yenidənqurma işləri aparılmışdır. Rayon mərkəzinin bir sıra ərazilərində və kəndlərdə istismarı dayandırılmış qaz xətləri götürülmüşdür. Qarabağ müharibəsi qazilərinin və veteranlarının müraciətləri əsasında bir cox ünvanlarda müxtəlif qaz xətlərinin yeri dəyişdirilmiş, iki şəhid ailəsinin fərdi evinə qaz xətti çəkilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Tovuzlular ötənilki nəticələri son hədd saymırlar

**Tovuz Rayon İcra Hakimiyyətində 2025-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və cari ildə qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağı keçirilmişdir.**

Yığıncaqdan əvvəl iştirakçılar Ulu Öndərin abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzmüşlər. Sonra Nizami adına Mədəniyyət evində Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən stendlər, kitab sərgisi, eləcə də ötən il rayonda istehsal edilən kənd təsərrüfatı məhsulları ilə tanış olmuşlar.



Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edildikdən sonra rayon icra hakimiyyətinin başçısı Məmməd Məmmədovun il ərzində görülən işlərə dair hesabat məruzəsi dinlənilmişdir. Bildirilmişdir ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan 2025-ci ildə də davamlı inkişaf yolunda mühüm addımlar atmışdır: "Dövlət başçısının məqsədyönlü siyasəti nəticəsində ölkədə idarəetmənin səmərəliliyi artırılmış, sosial rifahın yüksəldilməsi və regionların inkişafı istiqamətində ciddi nəticələr əldə olunmuşdur. İl ərzində Tovuzda dövlət proqramları və Prezidentin sərəncamlarından irəli gələn tapşırıqların icrası istiqamətində ardıcıl işlər həyata keçirilmişdir. Dövlət və özəl sektor arasında əməkdaşlıq genişlənmiş, həyata keçirilən tədbirlər rayon əhalisinin rifahının yaxşılaşdırılmasına, sosial müdafiənin gücləndirilməsinə və dayanıqlı inkişafın təmin olunmasına yönəldilmişdir".

Qazax-Tovuz Regional Təhsil İdarəsinin rayon üzrə sektor müdiri Aysel Quliyeva, Tovuz Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin rəisi Nəsrəddin Aslanov, Tovuz Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Emin Eyvazov, Vətən müharibəsi iştirakçısı Eyvaz Süleymanov, rayon Ağsaqqallar Şurası İdarə Heyətinin üzvü Mücaməddin Axundov çıxış edərək keçən il görülmüş işləri təhlil etmiş, qarşıda duran vəzifələrlə əlaqədar fikirlərini səsləndirmişlər.

Yığıncaqda Prezident Administrasiyasının sektor müdiri Elvin Azadəliyev, Milli Məclisin deputatları Nizami Səfərov və Arzu Nağıyev çıxış edərək qeyd etmişlər ki, Azərbaycanın bugünkü inkişafının əsasında Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi dövlətçilik strategiyası dayanır. Bu siyasi xətti müasir dövrün tələblərinə uyğun davam etdirən Prezident İlham Əliyev ölkəmizin suverenliyini, milli maraqlarını və beynəlxalq mövqeyini uğurla möhkəmləndirmişdir.

Yığıncağın sonunda rayonun ictimai-siyasi həyatında fəal iştirak edən bir qrup şəxsə Tovuz Rayon İcra Hakimiyyətinin fəxri fərmanları təqdim olunmuşdur.

***"Azərbaycan"***

## Naxçıvanda "Gənc Fest" festivalı keçiriləcək

**Gənclər və İdman Nazirliyi ilə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı əsasında Naxçıvan şəhərində 2 Fevral - Azərbaycan Gəncləri Günü münasibətilə "Gənc Fest" festivalı keçiriləcək.**

AZƏRTAC xəbər verir ki, ölkəmizdə həyata keçirilən "Gənclər həftəsi" proqramı çərçivəsində təşkil olunacaq festival fevralın 6-sı "Naxçıvanqala" Tarix Memarlıq Muzey Kompleksində baş tutacaq. İki gün davam edəcək tədbirə hər kəs qatıla bilər.

Festival çərçivəsində hərbi-vətənpərvərlik, yaradıcılıq və əyləncə zonaları fəaliyyət göstərəcək, intellektual müsabiqələr, interaktiv təlimlər təşkil ediləcək.

"Gənc Fest" gənclərin intellektual, yaradıcı və fiziki potensialının inkişaf etdirilməsi, onların sosial fəallığının artırılması və milli-mənəvi dəyərlərə bağlılıq ruhunun gücləndirilməsi məqsədini daşıyır.

## Xızılı gənclərin sorağı rayon sərhədini çoxdan aşıb

**Xızıdakı Heydər Əliyev Mərkəzində rayon icra hakimiyyətinin, Abşeron-Xızı Regional Gənclər və İdman İdarəsinin rayon üzrə sektorunun birgə təşkilatçılığı ilə "Heydər Əliyev və dövlət gənclər siyasəti" adlı tədbir keçirilib.**



Tədbirdə rayonun mədəniyyət, təhsil, elmi-pedaqoji fəaliyyət sahəsində fərqlənən qabaqcıl gəncləri ilə yanaşı, idarə, müəssisə və təşkilatların nümayəndələri də iştirak ediblər.

Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarətlə başlayan tədbirdə bildirilib ki, gənclərə həmişə böyük diqqət və qayğı ilə yanaşan, bu siyasəti müstəqil Azərbaycan dövlətinin fəaliyyətinin ən mühüm istiqamətlərindən biri hesab edən Ulu Öndər gəncləri dövlətin gələcəyi və inkişafının əsas dayağı kimi dəyərləndirmişdir. Qeyd olunub ki, bu gün gənclərimizin səsi dünyanın tanınmış universitetlərindən gəlir. İntellektual və vətənpərvər olmaq gənclərimizin həyat amalına çevrilib. Bu baxımdan xızılı gənclər də istisna deyil.

Sonda fəallığı ilə seçilən bir qrup gəncə RİH-in fəxri fərmanları təqdim olunub.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Belə getsə, yerli mal-qara "Qırmızı kitab"a düşəcək

### Ötən il ölkə üzrə qaramalın sayı 30,1 min, qoyun-keçinin sayı 138,7 min baş azalıb

**Qlobal səviyyədə baş verən geosiyasi hadisələr ölkələrdən sosial məsələlərə daha həssas yanaşmağı tələb edir. Çox sadə bir səbəbdən: beynəlxalq miqyasda siyasi maraq və ambisiyalardan doğan ziddiyyətlər son nəticədə əhalinin sosial-iqtisadi həyatına təsir göstərir. Təbii ki, mənfi cəhətdən. Bu sahədə ən həssas məqam isə ərzaqla təminatdır.**

O səbəbdən dünyada dövlətlərin və hökumətlərin ən çox məşğul olduqları məsələlərdən biri məhz ərzaq təhlükəsizliyinin təminatıdır. Bu isə hər ölkəyə nəsib olmur və o zaman vəziyyətdən çıxış yolu kimi idxaldan savayı əlac qalmır. İdxal da asılılıq və bahalıq deməkdir. Bunun qarşısını almağın yolu isə yerli istehsalı artırmaqdır.

Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə illər öncə aqrar islahatlara başlanıb, ilk növbədə istehsalçılara çoxsaylı güzəştlər tətbiq edilib. Bu hesaba müəyyən uğurlarımız da var. Məsələn, 90-cı illərdə və 2000-ci illərin əvvəlində daxili bazarda satılan meyvə-tərəvəzin əksəriyyəti idxal məhsulları idisə, indi bunun əksinədir. Üstəlik, bu növ məhsulların ixracında böyük uğurlar qazanılıb. Təkcə ötən il ölkəmiz meyvə-tərəvəz ixracından 900 milyon dollardan çox gəlir əldə edib. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü illə müqayisədə ötən il ixrac edilən bu cür məhsulların dəyəri 27,3, həcmi isə 23,2 faiz artıb. Ümumiyyətlə, Azərbaycan mənşəli əsas qeyri-neft məhsullarının ixracında meyvə-tərəvəzin payı 27,64 faizə çatıb.

Dünya üzrə aparılan statistikaya əsasən, ən çox istifadə olunan ərzaq növü düyüdür, buğda ondan sonra gəlir. Həmin statistikada ət və ət məhsulları da insanların ən çox istehlak etdiyi ərzaqlar sırasındadır. Bəs ölkəmizdə bu sahədə vəziyyət necədir?

Açıqlanan statistik rəqəmlər göstərir ki, bu sahədə vəziyyət yumşaq desək, elə də ürəkaçan deyil. Həm yerli mal-qaranın baş sayı, həm ət məhsullarının istehsalında yaranan boşluğu doldurmaq üçün əlac idxala qalıb.

Məlumdur ki, biz xalq olaraq qoyun əti istehlak etməyə üstünlük veririk. Təəssüf ki, son vaxtlar bu sahədə ağzımızın tamı dəyişib. Çünki yerli qoyun-quzu kəmiyyət sarıdan tələbatımızı ödəmədiyindən idxal məhsullarını istehlak etməyə məcburuq. Təkcə ötən il Azərbaycana xaricdən dəyəri bir neçə milyon dollar olan minlərlə baş yalnız diri qoyun gətirilib. Bunun səbəbi nədir? Dövlət Statistika Komitəsinin məlumatına görə, 2026-cı il yanvar ayının 1-nə Azərbaycanda qaramalın sayı 2 milyon 435,5 min, davarların sayı isə 6 milyon 757,8 min baş olub. Bu, 2025-ci ilin yanvar ayının 1-i ilə müqayisədə müvafiq olaraq 1,2 və 2 faiz (30,1 min və 138,7 min baş) azdır. Əvəzində Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən ilin 11 ayında ölkəmizə idxal edilən mal ətinin həm miqdarı, həm də qiyməti artıb. Özü də az yox - 4,7 və 6,1 faiz.



Bu ət isə, qeyd etdiyimiz kimi, uzaq-yaxın ölkələrdən gətirilir. Amma burada bir məsələyə toxunmaq istərdik. Uzaq coğrafiyadan idxalın bir iqtisadi ağırlığı var - qiymətlər logistikaya və daşınmaya görə yüksək olur. Buna son qoymaq üçün ətlik heyvanları alıb yerli təsərrüfatlarda çoxaltmaq olmazmı? Təbii ki, hökumət tərəfindən dəstək və ən əsası sərfəli qiymətə qüvvəli yem bazası olarsa, mümkündür.

Statistik rəqəmlərə diqqət yetirdikdə bir məqamla da rastlaşırıq. Hazırda davarların ən çox baş sayı Beyləqan, Ağcabədi, İmişli və Qubadadır. Halbuki sovetlər dönəmində Zaqatala, Balakən, Qax, Oğuz, Qəbələ, İsmayıllı və digər dağ rayonları da heyvandarlıq regionları sayılırdı. Biz hələ aran bölgəsini demirik. Əvvəllər dövlət tərəfindən aran və dağlıq rayonlarında heyvandarlığın inkişafı üçün qışlaq və yaylaq əraziləri ayrılmışdı. Sonra bu qayda dəyişdi. Heyvandarlar qışlaqlardan və yaylaqlardan istifadə etmək üçün yerli icra orqanlarına müraciət etmək, minnətçi düşmək məcburiyyətində qaldılar. Burada isə bürokratik əngəllərlə, get-gəllə qarşılaşan maldar fermerlərin əksəriyyəti peşələrindən ayrılmalı oldular.

Aqrar sahədə aparılan islahatların əsas hədəfi məhsul bolluğu yaratmaqdır, amma əsasən məhsuldarlığı artırmaq hesabına. Bizdə isə, məsələn, taxıl və ya pambıq istehsalını artırmaq üçün əkin sahələrini genişləndirirlər. Halbuki dünya təcrübəsi göstərir ki, məhsuldar toxum, düzgün aqrotexniki qulluq, faydalı gübrələr və düzgün suvarma məhsul istehsalını artırmağın ən effektiv yoludur. İnkişaf etmiş ölkələrdə məhz bu hesaba hər hektardan 60-80 sentnerə qədər taxıl götürülür. Ölkəmiz üzrə isə həmin rəqəm 30 sentner civarındadır. Digər vacib məqam - əkin sahələrinin genişləndirilməsi ilə istehsalda artıma nail olmaq həm də örüş yerlərinin azalmasına səbəb olur ki, bu da heyvandarlıqda indiki vəziyyətə gətirib çıxarır. Amma problem təkcə bu da deyil. İri aqrotəsərrüfatların örüş yerlərini zəbt etmələri, yemin bahalığı və bu kimi digər məsələlər bir vaxtlar süfrəmizdən əskik olmayan əti getdikcə əlçatmaz, yerli mal-qaranı isə "Qırmızı kitab"lıq edir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# ABŞ, Rusiya və Ukrayna arasında danışıqlar təxirə salındı

## Əbu-Dabidə növbəti üçtərəfli görüş fevralın 4-5-də keçiriləcək

**Rusiya-Ukrayna müharibəsinə son qoymaq üçün Kiyev, Moskva və Vaşinqton arasında üçtərəfli görüşlərin növbəti mərhələsi çərşənbə və cümə axşamı keçiriləcək. Prezident Volodimir Zelenski Ukraynanın substantiv müzakirələrə hazır olduğunu bildirib.**



Ukrayna Prezidenti açıqlayıb ki, Rusiyanın Ukraynaya qarşı təcavüzünə son qoymaq üçün Ukrayna, Rusiya və ABŞ arasında növbəti danışıqlar fevralın 4-5-də planlaşdırıldığı kimi, Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə keçiriləcək. Xatırladaq ki, görüşlər fevralın 1-də nəzərdə tutulurdu. Lakin V.Zelenski sosial media platforması "X"-də yazıb: "Növbəti üçtərəfli görüşlərin tarixləri təsdiqlənib: 4 və 5 fevral - Əbu-Dabidə. Ukrayna substantiv müzakirələrə hazırdır". V.Zelenski ümid edir ki, danışıqların nəticəsi "bizi müharibənin real və ləyaqətli sonluğuna yaxınlaşdıracaq".

Rusiyanın TASS Agentliyi xəbər verir ki, danışıqların təxirə salınmasının səbəbi məlum deyil. "The New York Times" qəzeti isə yazır ki, "Ukraynada sülh danışıqları ötən ayın son günündə Mayamidə keçirilmiş Rusiya-Amerika görüşündən sonra təxirə salınıb".

Yanvarın 31-də Rusiya Prezidenti Vladimir Putinin xarici ölkələrlə investisiya və iqtisadi əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Kirill Dmitriyev Floridada ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoff, Xəzinədarlıq katibi Skott Bessent, Ağ Evin baş müşaviri Coş Qrünbaum və sahibkar Cared Kuşner ilə danışıqlar aparıb. Amerika nümayəndə heyəti ilə danışıqlardan sonra o bildirib ki, görüş zamanı Rusiya-Ukrayna münaqişəsinin həlli, həm də ABŞ ilə iqtisadi əməkdaşlığı müzakirə ediblər. Kreml rəsmisinin sözlərinə görə, Mayamidə prezidentin xüsusi elçisi Kirill Dmitriyevlə ABŞ rəsmiləri arasında danışıqlar konstruktiv və müsbət keçib. "Heç bir detal olmayacaq. K.Dmitriyev və S.Uitkoff tərəfindən aparılan qiymətləndirmələr, ümumiyyətlə, hər iki tərəf üçün konseptual idi. Ümumilikdə, bunlar olduqca müsbət və konstruktiv söhbətlər idi", - deyə V.Putinin mətbuat katibi Dmitri Peskov danışıqların təfərrüatları və qiymətləndirilməsi ilə bağlı suala cavab olaraq bildirib. Öz növbəsində Stiv Uitkoff "X" sosial media saytında görüşdən ruhlandığını qeyd edərək yazıb ki, "Rusiya Ukraynada sülhün bərqərar olması üçün çalışır".

Xatırladaq ki, ötən həftəsonu - yanvarın 23-24-də Moskva və Kiyev nümayəndələri ABŞ-nin təklif etdiyi kimi, döyüşlərə son qoymaq planı ilə bağlı ilk dəfə Əbu-Dabidə birbaşa danışıqlar aparıblar. Tərəflər bazar günü müzakirələri davam etdirmək barədə razılığa gəlsələr də, sonradan görüşün vaxtı dəyişdirilib.

Danışıq dairələrindəki mənbələrə görə, tərəflər artıq bir neçə məsələdə razılığa gəliblər. Lakin əsas məsələ ilə bağlı hələlik razılıq əldə olunmayıb - Rusiya Ukrayna qoşunlarının Donbasdan çıxarılmasını istəyir, Kiyev isə bu tələbi rədd edir.

Bir neçə gün əvvəl ABŞ Prezidenti Donald Tramp da tərəflərin Ukraynada sülh razılaşmasına mümkün qədər yaxınlaşdığını bildirib. O, qarşıdan gələn danışıqların şanslı olacağına ümid etdiyini açıqlayıb.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Süni intellekt həkimi əvəz edə bilərmi?

**Son illərdə insanların həm gündəlik, həm də peşəkar həyatında süni intellekt texnologiyalarının yeri nəzərəçarpacaq dərəcədə möhkəmlənib. Bir vaxtlar yalnız elmi fantastika filmlərində rast gəlinən bu texnologiyalar bu gün artıq hər kəs üçün əlçatandır. Xüsusilə pulsuz və sürətli şəkildə fərdiləşdirilmiş cavablar təqdim edən generativ süni intellekt sistemləri cəmiyyətin müxtəlif sahələrində olduğu kimi, səhiyyədə də geniş istifadə olunmağa başlanılıb.**





Qlobal miqyasda aparılan müşahidələr göstərir ki, insanlar artıq sağlamlıqla bağlı suallarını həkimdən öncə süni intellekt platformalarına yönləndirirlər. Statistikaya görə, hər həftə təxminən 130 milyon insan xəstəlik simptomlarını, narahatlıqlarını və analiz nəticələrini birbaşa bu sistemlərə təqdim edir. Təkcə "ChatGPT" platformasına bu məqsədlə sual verənlərin sayı 40 milyonu ötüb. İstifadəçilərin maraq dairəsi əsasən xəstəlik barədə məlumatlar, tibbi terminlər və mümkün müalicə variantları ətrafında cəmlənir. Bu rəqəmlər süni intellektin səhiyyə məlumatlarına çıxışı baxımından nə qədər cəlbedici bir alətə çevrildiyini açıq şəkildə göstərir.

Bu texnologiyaların müəyyən müsbət tərəfləri də var. Xəstələr artıq eyni sualları təkrar-təkrar vermək ehtiyacı duymur, gözləmə otaqlarında gərginlik azalır, gündəlik və texniki xarakterli məlumat toplama işi avtomatlaşdırılır. Süni intellekt bir növ "ön filtr" rolunu oynayaraq həm xəstələrin, həm də həkimlərin vaxtına qənaət etməyə kömək edir. Bu mənada süni intellekt səhiyyə sistemində müəyyən yüngülləşmə effekti yaradır. Lakin məsələ yalnız bununla bitmir.

Ən böyük risk odur ki, insanlar süni intellektdən aldıqları məlumatları bəzən şərtsiz həqiqət kimi qəbul edir və bu da peşəkar tibbi yardıma müraciəti gecikdirir. Süni intellekt sistemləri insan emosiyalarını dəyərləndirə bilmir, empatiya hissinə malik deyil. Ekranda "səni başa düşürəm" cümləsini oxumaq, sistemin real anlamda sizi anladığı demək deyil. Bu texnologiyalar yalnız ehtimallar və məlumat modelləri üzərində işləyir. Onlar narahatlığın dərinliyini, qorxunu, ağrının subyektiv şiddətini və ya xəstənin psixoloji vəziyyətini hiss edə bilməz.

Özünümüalicə riskləri artıq nəzəri səviyyədə deyil, real hadisələrlə təsdiqlənib. 2025-ci ilin avqustunda psixiatrik keçmişi olmayan 60 yaşlı bir kişinin bromid zəhərlənməsi ilə xəstəxanaya yerləşdirilməsi bu təhlükənin konkret nümunəsidir. Həmin şəxs süni intellekt sisteminin tövsiyə etdiyi qida əlavəsi qəbuluna başlamış və nəticədə ağır vəziyyətə düşmüşdü. Bu hadisə süni intellektin tibbi tövsiyələrinin nə qədər ehtiyatla qəbul edilməli olduğunu bir daha gündəmə gətirir.

Süni intellekt diaqnoz qoymaq və ya müalicə təyin etmək üçün nəzərdə tutulmayıb. Maşın öyrənmə alqoritmləri böyük həcmdə tibbi məlumatları analiz edərək müəyyən xəstəlik nümunələrini və əlamətləri tanıya bilər, lakin son diaqnostik qərar hər zaman həkimə məxsusdur. Çünki tibbi diaqnostika yalnız məlumatların mexaniki təhlili deyil. Bu proses xəstənin tibbi tarixçəsinin, yanaşı xəstəliklərinin, qəbul etdiyi dərmanların, həyat tərzinin və bir çox halda süni intellektin hüdudlarından kənarda qalan incə klinik məqamların birlikdə dəyərləndirilməsini tələb edir.

Həkimlər illərlə klinik mühakimə, təcrübə və peşəkar intuisiya formalaşdırırlar. Bu intuisiya yalnız biliklə deyil, minlərlə real xəstə ilə ünsiyyət nəticəsində yaranır. Süni intellekt isə xəstəni görmür, müayinə etmir, onun reaksiyalarını, mimikasını, səsini və davranışını qiymətləndirə bilmir. Tibbin mahiyyəti təkcə nəticələrə baxmaq deyil, xəstəni bütöv şəkildə anlamaqdır.

Bununla belə, süni intellektdən yalnız xəstələr deyil, həkimlər də aktiv şəkildə istifadə edirlər. ABŞ-də aparılan sorğulara görə, 2024-cü ildə həkimlərin 66 faizi iş prosesində süni intellektdən istifadə etdiklərini bildirib. Bu göstərici 2023-cü ildə cəmi 38 faiz idi. Bu artım süni intellektin tibdə rəqib deyil, köməkçi alət kimi qəbul edilməyə başlandığını göstərir.

Süni intellekt tibdə əsasən məlumatların təhlili, elektron tibbi qeydlərin idarə olunması, görüntülərin ilkin qiymətləndirilməsi və rutin tapşırıqların avtomatlaşdırılması üçün istifadə olunur. Bu isə həkimlərə xəstələrlə daha çox ünsiyyət qurmağa, mürəkkəb klinik qərarlara fokuslanmağa imkan yaradır. Generativ süni intellekt modelləri həkimlər üçün yüksək ixtisaslaşmış rəqəmsal köməkçilər rolunu oynayır və onlar mütəxəssislər tərəfindən nəzarət altında istifadə olunur.

Problem əsasən təlim keçməmiş insanların ümumi süni intellekt platformalarından nəzarətsiz şəkildə istifadə etməsidir. "ChatGPT", "Gemini" kimi alətlər tibbi hallüsinasiyalar yarada, yəni səhv və ya uydurma məlumatlar təqdim edə bilərlər. Təcrübəsiz istifadəçi isə bu səhvləri ayırd etməkdə çətinlik çəkir. Süni intellekt xəstənin yaşını, yanaşı xəstəliklərini, dərmanların qarşılıqlı təsirlərini və risk faktorlarını adekvat şəkildə qiymətləndirə bilmir.

Məhz bu səbəbdən "ChatGPT Health" kimi xüsusi sağlamlıq yönümlü rejimlər təqdim edilib. Bu platformalar test nəticələrinin izahı, tibbi terminlərin sadələşdirilməsi, həkim qəbuluna hazırlıq və həyat tərzi məlumatlarının izlənməsi üçün nəzərdə tutulub. Tərtibatçılar açıq şəkildə bildirirlər ki, bu alətlər yalnız məlumatlandırma məqsədi daşıyır, həkimi əvəz etmir, diaqnoz qoymur və müalicə təyin etmir. Düzgün istifadə edildikdə isə pasiyentlərin daha məlumatlı olmasına və həkimə doğru suallar verməsinə kömək edir.

Bu gün MRT, KT, qan analizləri və klinik hesabatların süni intellektə yüklənərək şərh edilməsi artıq geniş yayılıb və bu da "Süni intellekt həkimləri əvəz edəcəkmi?" sualını aktuallaşdırıb. Elmi tədqiqatlar göstərir ki, süni intellekt tibbi ədəbiyyatın icmalı və görüntülərin analizi sahəsində faydalı olsa da, klinik qərarları təkbaşına vermək üçün yetərli deyil.

Mütəxəssislərin sözlərinə görə, xüsusilə həkimə tez müraciət edə bilməyən və ya təcili vəziyyətlərdə məlumat axtaran insanlar süni intellekt tətbiqlərinə üz tuta bilərlər. Süni intellekt həkimi əvəz etmək üçün deyil, qərar qəbuletmə prosesini dəstəkləmək üçün mövcuddur. O, güclü bələdçi ola bilər, lakin həkimi əvəz edə bilməz. Son qərar hər zaman mütəxəssisə məxsus olmalıdır, əks halda səhv şərh edilən məlumatlar lazımsız narahatlıq və gecikmiş müalicə ilə nəticələnə bilər.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi “İnklüziv cəmiyyət naminə bərabər hüquqlar və imkanların təşviq edilməsinə dəstək” adlı müsabiqə keçirir

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 17 fevral 2026-cı il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 18 fevral 2026-cı il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

**Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5032)**

***Müsabiqə komissiyası***

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi “Sosial sığınacaqların inkişafına dəstək” adlı müsabiqə keçirir

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, “Çinar Park” biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 17 fevral 2026-cı il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 18 fevral 2026-cı il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

**Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5032)**

***Müsabiqə komissiyası***


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Milli Məclisinin komitə sədri Hicran Hüseynova və komitənin üzvləri Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovaya qardaşı

**QALİB BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı Mübariz Qurbanlı Milli Məclisin Sədri Sahibə Qafarovaya qardaşı

**QALİB BABAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatları Ağalar Vəliyev və Heydər Əsədov Milli Məclisin Sədri Sahibə Qafarovaya qardaşı

**QALİB BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovaya qardaşı

**QALİB BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İqtisadiyyat Nazirliyinin kollektivi iş yoldaşları Əlipaşa Zeynalova əzizi

**MAHMUD RZAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi Milli Məclisin Sədri Sahibə Qafarovaya qardaşı

**QALİB BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının kollektivi kafedranın dosenti, hüquq üzrə fəlsəfə doktoru Leyla Əliyevaya əzizi

**GULANFURA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi Milli Məclisin Sədri Sahibə Qafarovaya qardaşı

**QALİB BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi iş yoldaşları Murad Əlizadəyə əmisi

**AKİF ƏLİZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi iş yoldaşları Vüsalə Qarayevaya anası

**MƏFURƏ ƏSƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi iş yoldaşları Azər Sanılıya əzizi

**FƏRRUX ŞƏRİFOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi komitənin Sənədlərlə və vətəndaş müraciətləri ilə iş şöbəsinin müdiri Sevda Süleymanovaya anası

**FİRƏNGİZ SÜLEYMANOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İba Həsənov, Mütalib Şirinov, Vahid Alışov, Aydın və Qəşəm Məmmədovlar, Elbrus Əhmədov, Əli, Rasim və Rafiq Hüseynovlar, Şamo Mustafayev dostları Kazım Mehdiyevə oğlu

**ELTAC VƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yevlaxdan Anar Tağıyev Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovaya qardaşı

**QALİB BABAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə və Milli Məclisin deputatı Cavanşir Paşazadə Milli Məclisin Sədri Sahibə Qafarovaya qardaşı

**QALİB BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədova və universitetin kollektivi professor Ədalət Əliyevə oğlu

**ELÇİN ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Əli, Hacı Müşfiq, Mobil, Rafiq və Nail Hüseynovlar, Əlövsət Əliyev, İlham və Tural İbrahimovlar, İlham Həsənov, Hidayət, Müstəqim, Mircəfər və Mircəlil İsmayılovlar Cəbrayıl rayonunun tanınmış həkimi Mübariz Məmmədova əzizi

**ELTAC KAZIM OĞLU VƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | | |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan” nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3242
Sifariş 170

Qiyməti 60 qəpik